9. O kərəm kānı kim müdām ondan
Hər zəmāndə nəvālə-ẖᵛār oldun

10. Zū`i bəḥr-i səẖā Səlīm bəg kim
Pāy-ı pūsınə rəh-sipār oldun

17[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Çün cüyūş-ı şəhü`l-leyl nümāyān oldı
Gecə gəldükdə yəqīn ḥəşr-i ġərībān oldı

2. Beytü`l-əḥzānım ara əgləşübən (?) ḥəsrət ilə
Köñlümə dərd ü ġəm ü ġüṣṣə firāvān oldı

3. Nə ẕiməm [ü] nə pərəstār nə mūnis nə rəfīq
Dəm-bə-dəm dīdələrimdən dökübən qan oldı

4. Fikr edirdim nədi cürmim ki bu qürbətdə mənim
Həm-dəmim şām [u] səḥər nālə vü əfğān oldı

---

[1] ṭəbābətdən: şərī'ətidən (d.)
[2] 23a
[3] 86a

5. Nā-gəhān hātif-i ġeybī kimi bir yār-ı ʻəzīz
Müjdə-i şövq kimi ẖürrəm ü ẖəndān oldı

6. Dedi ey Żū`ī-i dil-ẖəstə dəẖi ġəm çəkmə
Dərd-i möḥnətlərüvə müjdə ki dərmān oldı

7. Çəkdigün qürbət-i ẕillət ü möḥünət getdi
Ġəm zimistānı saña bāğ-ı gülüstān oldı

8. Dedim ey dost nədür bir belə beḥcət ẖəbəri
Dedi şeʻr ol ki Ḫudādan saña eḥsān oldı

9. O şəh-i məsnəd-i ʻürfānı ki beytu`llāh
ʻƏzm-i ṭavf eyləyübən zā`ir-i riżvān oldı

10. İmdi ṣəd şükr ki öz şövkət-i şānıyla bugün
Gəlüb öz təẖt-i humāyūnunə sulṭān oldı

11. O nəcībü`n-nücəbā cūd Səttār nəg kim
Fəżl-i cūd ilə adı şöhrət-i Şīrvān oldı

12. Bəẖşiş ü cūd u səẖāvət sizə ẕātī ẖiṣlət
ʻElm ü ādāb u hünər sizdə firāvān oldı

13. Gər ẖəzān fəṣlidi lākin qədəmündən biz içün
Növ-bəhār oldı cəhān mövsüm-i būstān oldı

14. Eləsün bāqī Ḫudā şövkət-i şān ilə səni
Çünki səndən hamuyə şövkət ilə şān oldı

15. ʻİzzət-i dövlətivi dā`imī qılsun Ḫāliq
Çünki ʻāləm sənə hər gündə s̱ənā-ẖ˘ān oldı

16. Bāb-ı ʻədl oldı qapun ẖəlqə dəẖi Żū`ī-i zār
Ṣidqlə dərgəhüvə bəndə-i fərmān oldı

18[1]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Bəhār olubdı cavānlıq düşüb genə yādə
Köñül dilər olə bəzmində sāğər-i bādə

2. Neçə rəfīq-i müvāfiqlə ṣəḥn-i gülşəndə
Sürūd-ı rūd ilə cām-ı şərābı āmādə

3. Keçürdə fəṣl-i bəhārı riyāż-ı riżvān tək
Behişt-i ʻədni mühəyyā edə bu dünyādə

4. Vəlī nə sūd ki mümkün dögül ziyād etmək
Nə şey` ki rūz-ı əzəldə olub Ḫudā-dādə

5. Mürüvvətün əs̱əri yoẖdı hīç kimsənədə
Genə səẖā tapulur rind-i bādə-peymādə

6. Fəqīr ü münʻim-i əhl-i zəmānənün birisi
Tapulmayur çatə ġəm günlərində imdādə

7. Keçür bəhār ilə ʻömrim ʻəbəs̱ yerə bī-cā

[1] 121a

Bu ḥāldə bizi qoyma İlāhi yet dādə

8. Dünən təżərru‘ ilə belə ‘əqldən sordum
Cəhāndə kimdi çatan belə gündə fəryādə

9. Cəvāb verdi ki ey Żū`ī-i ġəm-ālūdə
Məgər ki görməmisən ol əmīr ḫān-zādə

10. Əmīrḫān ki Ḫudāvənd ẕātını eləyüb
Əmīr-i məmləkət-i fəżl ü cūd mə‘nādə

11. Rə`īs-i şəhr-i səḫāvət əmīr-i mülk-i ‘əṭā
Ki fəżldə dögi həmtā-yı Ḥātəm-i Ṭā də

19[1]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Bilməm nədəndi yoḫdı ṣəfā bu bəhārdə
Nə seyr-i gülşən ü gül ü nə lāləzārdə

2. Nə güldə ‘əṭr var nə bülbüldə bir nəvā
Nə ẕövq-i sāyə ‘ər‘ər ü sərv çinārdə

3. Yoḫdur əzəlki qā‘idədə cəzbə ḥüsndə
Dil-bər dögül o ṭavr ilə ruḫsār-ı yār də

4. Vermir nəşāṭı ḫāṭirə nə şūḫ-ı şāh-nāz
Nə ẕərrə qədri şūr u humāyūn ḥiṣārdə

5. Nə var nəşāṭ meykədə ṣəḥnində ‘ārifə
Nə bir əs̱ər nə nəş`ə mey-i ḫˇoş-güvārdə

6. Yā Rəb nədəndi cümləsi tə`s̱īrdən qalub
Cām-ı mey ü sürūr-ı ney ü çəng tār də

7. Dün ‘əcz ilə soruşdım mən pīr-i ‘əqldən
Bā‘is̱ nədür bu ḥālə bugün rūzgārdə

8. Lüṭf ilə gəldi niṭqə dedi ey fəqīr-i sən
Qıl bir nəẓər cəhānə nihān āşkārdə

9. Bī-pūlluqdı bunları tə`s̱īrdən salan
Bir sirr varmış ol adı pūl zəhr-i mārdə

10. Sərbārdur təmām mey ü bəzm ü yār u gül
Gər olmasə bəğəldə zər-i sikkədārdə

11. Pūl olsə növ-bəhār olı qış mövsümi əgər
Pūl olmasə olarsan dūzəḫdə nārdə

12. Bir cövhər-i nəfīsdi bu pūl ki cənnəti
Pūlla verür ḫəlā`iqə fikr elə tārdə

13. Həm ḥālət-i ḥəyātdə həm vəqt-i mərkdə
Lāzımdı bu cəhāndə olan cümlə kārdə

14. Pūl eyləyür təmām köñül ārzūların
Bī-pūl cümlə ḫəlq qalur iżṭirārdə

[1] 128b

15. Yoḫdur bu gündə mə‘rifət ü şe‘rə müştərī
Hərçənd cüst [ü] cū elədim hər diyārdə

16. Ancaq əmīr-i məmləkət-i cūd Əmīrḫān
Kim Ḥātəm-i zəmānədi bu rūzgārdə

17. Bāb-ı səḫāsı qiblə-i ərbāb-ı mə‘rifət
Ẕikr-i ‘əṭāsı vird-i ṣaġār u kibārdə

18. Ondan olur ‘əlāc genə dərd-i Żū`iyə
Yoḫdur səḫā rəviyyəsi gūşə kənārdə

20[1]
mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

Vələhu Eyżən

1. Cəhān köçübdi behiştdən əgərçi ləẕẕət ilə
Nə sūd ḫəlq qalub ẓülmət-i cəḥālət ilə

2. Sölə ki hansı zəmāndə var idi bir telefon
Yā telġıram [yā] vaġon kim gedir bu sür‘ət ilə

3. Səmənd sür‘ət ilə on günə gedən rāhı
Vaġon gedir onı bir gündə istirāḥət ilə

4. Evində görmədigün hər ṭə‘ām lövn-bə-lövn
Gəlür ḥużūruvə hər mənzilündə ‘işrət ilə

5. Eşitmisən ki Süleymān gedirdi bād üzərə
Olurdı kölgəligi quş qanadı zəḥmət ilə

6. Sən indi təḫt-i rəvān üzrə ondan artuqraq
Vaġonda seyr eləyürsən həzār ḥəşmət ilə

7. O söz ki sən onı bir ildə hīç bilməzdün
Ġazet verür ḫəbərin gündə yüz ḥekāyət ilə

8. Cəmī‘-i ḥikmət-i ‘elm-i zəmīn[i] Yūnānun
Bu yerdə ẓāhir olubdur əgər sühūlət ilə

9. Vəlī çe fā`idə ādəmlərinə ḥikmət-i ‘elm
Dögül mü`əs̱s̱ir bir zərrəcə sirāyət ilə

10. Təṣəvvür eyləməyürlər ki muncə əşyānı
Tapubdılar hamusın dərs-i bəḥs̱-i ḥikmət ilə

11. Gərəkdi bizdə də olsun mədāris ü məktəb
‘Ulūm-ı fəżlə çataq məktəb içrə zəḥmət ilə

12. Gərək mü‘əllim-i qābil olə o məktəbdə
Cəvāb söliyə hər bir su`ālə diqqət ilə

13. Nəīnki bizdəki tək ẓāhirīn edə bər-bād
‘Əbā qəbā uzun arḫaluq u ‘imāmət ilə

14. Su`āl edəndə ġəżəbnāk olub der dinmə

[1] 18a

Ki kāfir oldun bir də demə bu kəlmət ilə

15. Dögül bu növ‘lə cānım ‘ulūm əhli gərək
Verə cəvāb mətīn sā`ilə ləyāqət ilə

16. Nə növ‘ söz söləsə bənd edər ḥədīs̱ə anı
Deyər bəlī bunı Qur`ān deyübdi āyət ilə

17. Dürüst baḫson əgər bilməz öz adın yazmaq
Bu qism ādəm-i mollādı nə dəlālət ilə

18. Bizim bu mülkdə bī-mə‘rifət belə qalmaz
Dolar mürūr ilə yüz ‘elm ü min fərāsət ilə

19. Nə sūd o vəqtə bizim ‘ömrimiz vəfā etməz
Tükəndi əhl-i cəḥālət içində ḥəsrət ilə

20. Nə qədri dād elədim məktəb eyləyün bün[y]ād
Oḫı oyan yuḫudan qalma ḫᵛāb-ı qəflət ilə

21. Sözim bu dāşə dönən ḫəlqə etməyür tə`s̱īr
Nə`dim nə çārə deyüm bu sözi nə ṣūrət ilə

22. Nə qədri söylədi İrşād Mollā Nəṣrə`d-dīn
Bu yaḫşı sözləri yüz və‘ẓ min nəṣīḥət ilə

23. Bu daş baqırlu ḫəlā`iq qəbūl etmədilər
Niẓām-ı mə‘rifəti qaldılar żəlālət ilə

24. Budur bu ... ey ḥəyāt-ı cān-pərvər
Ġazetdə dərc elə bu şe‘ri bir kināyət ilə

25. Ki bəlkə Zū`ī-i kəm-nām künc-i ‘üzlətdə
Edən du‘āsı ḥuṣūlə[1] yetə icābət ilə

21[2]

mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Çərḫün nədür ‘ədāvəti mən dil-fikār ilə
Qoymuş məni bu dərd ü ġəm-i bī-şümār ilə

2. Yoḫ əhl-i ḥāl şərḥ eləyim tā bəlālarım
Çoḫdur şikāyətim mənim Pərvərdgār ilə

3. ‘Uryān edübdi nərgis-i bīmārı sər-nigūn
Həm-dəm qılubdı gör gül-i ḥəmrānı ḫār ilə[3]

4. ‘Īsā kimi vücūd-ı piyādə ḥımārı yoḫ
Nāqə verüb ḥımār olanə yüz qaṭār ilə

5. ‘Ārifləri bəlā vü ġəmə həm-dəm eyləyüb
Nā-dān olanı sīm u zər-i bī-şümār ilə

6. Yoḫdur bir ağ gün mən-i bəḫti qara içün
‘Ömrüm keçir ‘əbəs̱ belə leyl ü nəhār ilə

---

[1] ḥuṣūlə: qəbūlə (d.)
[2] 168b
[3] Həm-dəm qılubdı gör gül-i ḥəmrānı ḫār ilə: Həm-dəm qılıbdı nərgis-i gül bər ruḫu ḫār ilə (d.)

7. Yā Rəb həmīşə belə olubdur mı rūzgār
Yā rūzgār imdi olub bu qərār ilə

8. Mən belə fikrlərdə köñül içrə müżṭərib
Cəng ü cidāldə fələk-i kəc-mədār ilə

9. Oldı dūçār baña ədīb-i zəmānə kim
Həm-nāmdur birisinə ol həşt ü çār ilə

10. Rāḥil təḫəllüṣ ol ki qılur kūr dīdəsi[1]
Gər olsə həm-nəbərd yüz İsfəndiyār ilə

11. Ḫāqānī-i zəmānədi hər növ‘ şe‘rdə
Feyz-i cəhānə gün kimidür iştihār ilə

12. Etdi ḫiṭāb bəndiyə Żū`ī nə var genə
Çoḫ də ḫəyālə getmə dil-i dāğdār ilə

13. Vəqtün ḫ˘oş eylə ġəmimə dövr növ-bəhārdur
Tər eylə bir damağı mey-i ḫ˘oş-güvār ilə

14. Çoḫ çəkmə rūzgār ġəmin yoḫ var içün
Hīç kimsə çün bacarmadı bu rūzgār ilə

15. Şād ol cəhāndə çəkmə dəḫi var yoḫ ġəmin
Yoḫdur təfāvüti əcəlün yoḫ var ilə

16. ‘Ömrün keçürtmə dərd ilə ‘eyş ü nəşāṭ qıl
Az cəng eylə ḥökm-i Ḫudāvəndgār ilə

17. Bu nüktəni əzəldən əbəd kimsə açmayub
Sən bundə bəḥs eyləmə çoḫ Kirdgār ilə

18. Bir sirr var bu işdə Ḫudāvənd-i ẕü`l-minən
Ḫəlq eyləyübdi hər birini bir qərār ilə

19. Bə‘żün alubdı ‘əqlini mālın verüb füzūn
‘Ömri keçür ḥesāb ilə āh u zār ilə

20. Bə‘żə verübdi ‘əql ziyādə nə sīm ü zər
‘Əqlilə ḫ˘oşdı olmasə gər bərg ü bār ilə

21. Ṭūl etmə Żū`ī ‘ārı buraḫ dövlətün olə
Dövlət olur mu dəhrdə nāmūs u ‘ār ilə

22[2]

mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

Dər-Tə‘rīf-i Məḥəmməd Bəg

1. Mənim ‘ömrimsən ey sāqī yetüşdim bəs ki mən cānə
Nədür fövt eyləmək vəqti gətür sən cām-ı peymānə

2. Bəhār əyyāmıdur baḫ gör gülüstān içrə bülbüllər
Gəlübdür gül həvāsıylə necə fəryād [u] əfğānə

3. Açılmış gülşən içrə yüz gül ü rə‘nā nəzākətlə

[1] dīdəsi: dīdəsi kim
[2] 14b; 73b

Verübdür nāmiyə min zīb-i zīnətlər gülüstānə

4. Qədəm bas gülsitānə bāğ ara gör kim nə şūr ilə
Nəvālar sāz edüb ‘uşşāq içün qumrī-i dīvānə

5. Açub hər gūşəsində gülşənün yüz məclis-i ‘işrət
Bəlābil ləḥn-i mūsīqār ilə gəlmiş nə əlḥānə

6. Gülün şūr-ı (?) ruẖundan nərgis-i bīmār çeşmindən
Biri ġərq-i ‘ərəq olmuş biri dolmuşdurur qanə

7. Oẖur vəṣf-i behişt-i ‘ədn hər bir gūşədə ṣulṣul
Dügāh ṣübḥ ü şām içrə neçə ‘uşşāq-ı dīvānə

8. Görüb bu ‘işrət-i pünhānı sordum bāğbānlardan
Nədür bu ‘eyş [ü] ‘işrət vāqif et bir sirr-i pünhānə

9. Dedi ey bī-ẖəbər gūyā ẖəbərsizsən bu ‘işrətdən
Ki ‘āləm sər-bə-sər dönmüş behişt-i ‘ədn-i riżvānə

10. Budur vəchi Məḥəmməd bəg büsāṭ-ı toy binā etmiş
Fələk cedy ü ḥəməldən bəzmə vermiş bərrə büryānə

23[1]

mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

Eyżən Min-Nəvādir

1. Köñül bir ‘ibrət ilə qıl nəẓārə dünyānı
Bu beş gün ‘ömr içün incitmə çoẖ gözəl cānı

2. Hanı Sikəndər ü Cəmşīd ü Bəhmən ü Dārā
Ki imdi topraqə dönmüş o nāzlu əbdānı

3. Dürüst diqqət elə bir umūr-ı dünyāyə
Təmām şāh u gədā cümləsi olur fānī

4. Bu ‘əṣrdə dəẖi çoẖ pādşāhə eylə nəẓər
Nə ṭövr ẕillətə āẖırdə döndi dövrānı

5. Otuz üç il elədi ‘āləm içrə sulṭānluq
Gör āẖır eylədilər ḥəbs o növ‘ sulṭānı

6. Nədür bu dəhrdə bundan ötəri bī-hūdə
Şınẖiyyəti (?) vermə nə ḥāl olsə şād qıl cānı[2]

7. Çü yoẖdı kimsədə qüdrət qəżāyə təğyīrə
Rıżā ilən elə ẖ̆oş ẖāṭir-i pərīşānı

8. Ziyādə fikrlərə düşmə anla bu rəmzi
Nə gücdə ẖəlq eləyüb Ḥəq əzəldən insānı

9. Gücündən artıqə ümmīd dutmə ġəm çəkmə
Nə gəlsə şād qıl āẖır dil-i ġəm-əfzānı

10. Ümīd dutmə ki ẖurmā verə dirəẖt-i çinār
Olur mu dərmək ‘əzīzim tikandan almanı

---

[1] 33b
[2] Vezin bozuk.

11. Nə növ‘ ẖilqət edübdürsə ẖāliqü`l-əşya`
Muḥāldur onə ey dil təğayyür imkānı

12. Görəñ olur mu dəvə çevrilüb olə ādəm
Vəyā ğəzāl edəsən qurdı yā ki aşlanı

13. Genə təṣəvvür edür ‘əql-i nüktə-dān ki Ḫudā[1]
Ziyādə qüvvədə ẖəlq eyləyübdi insānı

14. O qüvvələr ki bənī ādəmə verib Ḫāliq
O gücdə eyləməyüb ẖəlq hīç bir cānı

15. Əgərçi ṣūrət-i şəẖṣiyyə tapmayur təğyīr
Vəlīk ‘elm qılur çoẖ ziyādə nöqsānı

16. Əgərçi ṣūrətə təğyīr ġeyr-i mümkündür
Vəlī təğayyüri[2] mümkündi ḥāl-i mə‘nānı

17. Biri öküz təki nāqiṣdi ādəmiyyətdən
Biri ‘ulūm oẖuyubdur keçübdi Loqmānı

18. Necə ki ṣūrət ilən müttəhiddi cümlə bəşər
Muğāyərət nə qədərdür gör əhl-i ‘ürfānı

19. Əzəl zəmāndə də inṣandə var idi çıplaq
Nə düşsə əhl qılurdı keçirdi sāmānı

20. Bular də bīşədə cəngəllər içrə qalmışdı
Məqām dutmuş idi özlərinə ṣəḥrānı

21. Yavaş yavaş bulara gəldi kāmil ādəmlər
Yetürdi tā bu məqāmə ki dutdı dünyānı

22. Müsəẖẖər etdi ‘ulūm ilə fīl ü bəbr ü pələng
Əsīr qıldı fərāsət nəhəng dəryānı

23. O rütbədən bu məqāmə nədən çatub sölə
‘Ulūm ilən bəlī ‘elm eyləyüb belə anı

24. Sölə bu ‘elm nə ṭərz ilə pəs olur ḥāṣīl
Ki kāmil ādəm edə bir o növ‘ ḥeyvānı

25. Bu ‘elm mədrəsə məktəblər içrə ḥāṣīl olur
Mü‘əllimi də gərək olsun ‘elm-i ‘ummānī

26. Nəīnki bir qurı ‘əmmāmə vü ‘əyālı olə
Vəlīk bilməyə imlānı yā ki inşānı

27. On on beş il bizim ādəmlər eyləyür təḥṣīl
Nə dil bilür ‘Ərəbīcən nə yaẖşı imlānı

28. Üç il içində Rusun[3] məktəbdəṭāliblər
Bilürlər üç dili həm oẖumaqlə yazmanı

29. Üç ildə gör necə kāmil ‘Ərəb dilini bilür

---

[1] Ḫudā: Ḫudā bil
[2] təğayyüri: təğayyür
[3] Rusun: Nədən Rus

Ki Rusə tərcümə eylir ḥədī̱si Qur`ānı

30. Nədür səbəb bunə pəs bī-niẓāmlıqdur həm
Nə yoẖdı yaẖşı müʻəllim də öyrədə anı

31. Bizimki getdigi təḥṣīl ʻəbādı ʻəmmāmə
Biri təʻəṣṣüb-i məzhəb ki yıẖdı dünyānı

32. Deyür danışməgilən Rusī rūzə bāṭil olur
Yəqīn ki kāfir olur qoysə başə şapqanı

33. Biləndə Rus dilin kimsə eyləyür təkfīr
Ki kəsb-i məʻrifətə qoymayur müsəlmānı

34. Nə çārə belə bu ʻāləm təmāmı cühhālə
Ki saldı ẓülmət-i cəhl içrə əhl-i īmānı

35. H̱udā vü Marrat u Kristos u Tarı bir sözdür
Bu küfr olur mu kişi bilsə bu müʻəmmānı

36. Əgərçi Rus dilini bilməgi günāh desön
Qamu dili niyə dersən bilən Süleymānı

37. Nə olsə dəhrdə cəhlindən ʻelm əfżəldür
Bunı ʻalən buyurubdur rəsūl-i ʻürfānī [1]

38. H̱üsūṣi hər dili hər məzhəbi gəzüb bilmək
Tətəbbuʻ ilə qəbūl eylə şərʻ-i ġərrānı

39. Qəbūl-i qəvllə girmə bu dām-ı təqlīdə
Uṣūl-i dīndə də bir ictihādə at cānı

40. İnanmayandə nöçün bāṭil oldı çīn bilürəm
Təmām əvāmir-i şərʻ-i şərīf-i beyżānı

41. Deyür ki müctəhidə bağlamaz isön boynun
Təmām ʻəməllərün olur qətrə olur fānī[2]

42. Bu iddiʻā də bir olsə nə eybi hər mollā
Beş on ʻəvām yıqub qalẖızır buğāğunı

43. Odur ki millət-i İslām olubdı yüz firqə
Gedüb o qüvvə qalub ḥāl-i nəzʻədə cānı

44. İlāhī mərhəmətündən özün yetüş dādə
Gətür üṣūlə bu cühhāl adı mollānı

45. Gəl imdi vəqtidür ey ṣāḥibü`z-zəmān gəl gül (?)
Fədā qədəmlərivə ey ʻədālətün kānı

46. Dutubdı ʻāləmi Yə`cūc tıynət ü Dəccāl
Nicāt ver bizə sənsən bu dərd dərmānı

47. Gözətlə Żū`ī bu ẓülmāt-ı şām-ı cəhl gedər
Qılur zəmānəni ẖ\vurşīd-i ʻelm nūrānī

48. H̱ˇoşā o şəẖşə ki min dört yüz ildə dünyāyə

---

[1] rəsūl-i ʻürfāni: rəsūl-i bāni; O kān-ı ʻürfāni (d.)
[2] Bu beytin üzeri çizilmiş.

Gələ görər ki behişt-i bərīndi dünyānı

24[1]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Yā Rəb o qədīm 'əṣr o ləẕẕət hara getdi
Ḫəlq içrə olan 'eyş ilə 'işrət hara getdi

2. Var idi mey-i nābdə çoḫ ẕövq ü ṣəfālar
Pəs ondə olan nəş`ə-i behcət hara getdi

3. Ḫəlq eylər idi birbirinə mehr ü vəfālar
Ol mehr ü vəfā ilə ṣədāqət hara getdi

4. Gözlərdi təmām əhl-i cəhān ḥəqq-i səlāmı
N`oldı o ṣədāqət o məḥəbbət hara getdi

5. Eylərlər idi cümlə 'ulūm əhlinə ḥörmət
Cövr etdi 'əṭā batdı səḫāvət hara getdi

6. Yüzdən birinün yoḫdı bu ovqātdə fəhmi
'Elm ü ədəb ü fəhm ü fərāsət hara getdi

7. Nə 'āləm ü nə 'ārif u nə ḫān u nə bəg var
N`oldı bularə muncə cəmā'ət hara getdi

8. Yer gök elə onlardı cəhān ilə o dünyā
Keçmişdəki inṣāf u mürüvvət hara getdi

9. Var idi çoḫ üftādələrə əl dutan imdi
Hanı o ṣifət əhl-i mürüvvət hara getdi

10. Zərdür bu cəhān əhlinə mə'būd-ı ḥəqīqī
Allāh peyəm-bər o 'ibādət hara getdi

11. Dünyā dolanub Żū`ī dönüb çərḫ-i cəfā-cū
Çoḫ söləmə ol köhnə şərī'ət hara getdi

[1] 129b

[MESNEVİLER]

1[1]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

Məsnəvī Dər-Mədḥ-i Cənāb-ı Əmīrḫān Şīrvān

1. Sāqiyā dur gəti ol zādə-i Cəmşīd-i Cəmi
Ki gidərsün[2] dil-i şəd-pārədən əndūh-ı ġəmi

2. Dögi çārə ġəmə nə dövlət ü nə təḫt nə tāc
Ondan özgə nədi 'āləmdə ġəm ü dərdə 'əlāc

3. Ātəş-i ḫarman-ı ġəmdür özi ki āb isə də
Ḫeyrdür cān u tənə gər adı şərāb isə də

4. Gözlərün şədqəsi cān sāqī ayağun ələ al
Dön pey-ā-pey genə bir şūr-ı cünūn başımə sal

5. Eyləyüb çünki fərāmūş məni pīr-i muğān
Gör necə olmuşam āvārə-i şəḥrā-yı Muğān

6. Niyə yā Rəbb belə bī-çārə vü ḥeyrān oldım
Bilmirəm[3] çārəmi ḥeyrətlə pərīşān oldım

7. Ey ḫ˘oş ol vəqt ki mən sākin-i mey-ḫānə idim
Başdə mey nəş`əsi həm məşrəb-i cānānə idim

8. Həm-dəmim şām [u] səḥər hər dəm şāhib-i fıṭnət
Bilməyürdüm nədi dünyādə bəlā vü möḥnət

9. Olmuş idim dəḫi āsūdə ġəm-i 'āləmdən
Mə`mənim gūşə`-i mey-ḫānə idi hər ġəmdən

10. İmdi āvārə vü bī-çārə vü əsīr-ġürbət
Nə pərəstār nə bir mūnis nə [bir] həm-şöḥbət[4]

11. Dün şikāyət eləyürdüm fələk-i bəd-ḫūdan
Ki nöçün bağladı gərdūn yolumı hər sūdən

12. Mülhim-i ġeybī bana eylədi nā-gəh ilhām
Ey giriftār-ı bəlā Żū`ī-i zār u nā-kām

13. Ḥātəm-i 'əşrdən agāh dögülsən əşlā
Ki onun süfrəsinə ḥāżırdur şāh u gədā

14. Bəḥr-i 'ürfān Əmīrḫān ki Ḫudā-yı mənnān
Eyləyüb ẕātını dərd əhllər içün dərmān

15. Mə'dən-i bəẕl-i 'əṭā mənbə'-i fəżl-i 'ürfān
Ṣādiqü`l-qəvl səḫī-ṭıynət [ü] bəḫşāyişə-kān

16. Āsmān-ı hünər ü cūd u ma'ārif māhı
Məsnəd-i məmləkət-i cūd [u] səḫāvət şāhı

---

[1] 7a; 71b
[2] gidərsün: gedirdim
[3] Bilmirəm: Bilməyürəm
[4] Vezin bozuk.

2[1]
fe'ilātün / mefā'ilün / fe'ilün

Bu Məẕkūr Olan Məs̱nəvī Cənāb-ı Seyyidü`s-sādāt böyük Vələd Mərhūm Ḥācī Seyyid Zəki Sākin-i Qübbə Bədāhətən Yazılubdur.

1. Ey olan sıbṭ-ı pāk-ı peyğən-bər
Ey səlīl-i kənəndə-i Ḫeybər

2. Həm ḥəsəb həm nəsəbdə bī-həmtā
İsmi tək həm özi böyük aqa

3. Lüṭf edüb gūş qıl mən-i zārə
Gətürim 'ərż-i ḥālım iẓhārə

4. Çərḫ-i ġəddār rūzgār-ı dənī
Eyləyüb pāy-māl ġüṣṣə məni

5. Bir zəmān şəhr-i Şīrvān içrə
Var idim bāğ u būstān içrə

6. Dā`imā ḫ˘oş keçürdi əḥvālım
Çoḫ idi mülk ü dövlət ü mālım

7. Əhl-i 'ürfān müṣāḥibim var idi
Ḥāṣil idi nə məṭləbim var idi

8. Bir neçə şā'ir ü qələndər idük
Hər ṭərīq ü sānə māhir idük

9. Kīsə ḫālī olanda dirhəmdən
Görməz idük nə ġüṣṣə nə ġəmdən

10. O zəmān bir qəṣīdə-i qərrā
Midḥət-i bir əmīrdə inşā

11. Eləyən dəmdə kīsəmiz dər-ḥāl
Olur idi pūlilə mālāmāl

12. Midḥət-i ol əmīr-i əhl-i səḫā
Oḫunur tā be-ḥəşr cā-yı be-cā

13. Necə Firdovsī-i ḥəkīm-i cəhān
Ḥāl-i sulṭānı eyləyübdi 'əyān

14. Mədḥ u ẕəm bāqīdür qiyāmətəcən
Çünki mə'lūmdur dəfātirdən

15. Olı bir müddət-i bə'īd ki mən
Gəlmişəm Qübbəyə Şəmāḫīdən

16. Tapmadım bir vücūd lā`iq olə
Nəẓm-i əş'ārə köñli şā`iq olə

17. Edə mədḥində Żū`ī-i şeyda
Hər zəmāndə qəṣīdələr inşā

18. Bir sizi lā`iq-i s̱ənā gördüm

---
[1] 8a; 68b

Mədḥ-i təvṣīfə müqtəżā gördüm

19. Bədv-i ẖilqətdə Kirdgār-ı ʻalīm
Sizi eylübdi əḥsən-i təqvīm

20. Nə desə vəṣfivə əgər Żū`ī
Deyəcək cüz`-i müẖtəṣər Żū`ī

21. Var vücūdundə çün Ḫudā-dādə
Cümlə fəżl ü kəmāl āmādə

22. Bir vücūdı ki Ḥəq edə mümtāz
Nə desön vəṣfinə olur çoẖ āz

23. Ey biḥār-ı ʻulūm-ı fəżl u kəmāl
Midḥətündə zəbān-ı nāṭiqə lāl

24. Vəsfivə ʻācizəm mən-i nā-kām
ʻƏcz ilə eylədim sözim itmām

25. Olsə hər yerdə Żū`ī-i müżṭər
Saña məddāḥdur kəmīn çākər

26. Bu verdiyim mənim duʻālardan
Ḥəq səni ḥifẓ edə bəlālardan

27. Səni övlādıvı Ḫudā-yı kərīm
Kərəmilə bəlādan edə səlīm

3[1]
mefāʻīlün / mefāʻīlün / feʻūlün

Be-Ḥużūr-ı Molla Aqa Sākin-i Qübbə Neveşte Şode

1. Əlā ey məʻdən-i fəżl-i bəlāğət
Sücād-ı məʻrifət kān-ı fəṣāḥət

2. Ġərīb ü bī-nəvā kəslər pənāhı
Bu Żū`īnün ḥəqīqət qibləgāhı

3. Olan əlfāẓı məhbūb u dil-ārā
Müsəmmāyə muṭābıq Mollā aqa

4. Yetüşdi nāmə-i müşkīn ẖitāmun
Yəqīn məʻlūm olundı həm mərāmun

5. Gərək fərmāyişātun qənd olaydı
Fərəḥdən cān u dil pür-ẖənd olaydı

6. Əgər təlẖ olsə də şīrīn olur kām
Ki şīrīnliq gərək olsun sər-əncām

7. Çü var bu bəndədə doğrı ṣədāqət
Verür tənbākū şəkkər kimi ləẕẕət

8. Nə ʻeybi vardur kim muṣliḥi`d-dīn
Verübdür gülsitānə belə təẕyīl

[1] 10a; 65b

9. اکر خنظل خوری از دست خوشخوی
به از شیرینی از دست ترش روی[1]

10. Nə mümkündür saña bu Ẕū`ī-i zār
Qılə iḫlāṣını kāğəẕlə iẓhār

11. Ḥuṣūl olsə əgər feyz-i vüṣūlun
Yetüşsə şəmme gər ẕövq-i məqālun

12. Behişt-i ʻədn ḥāṣil oldı gūyā
Dəḫi qılmaz köñül firdövsə pərvā

13. Dəḫi īhām ilə qılmışdun inşā
Ki ṣāḥib əz-kələm həm qaḫ u alma

14. Yəqīndür bu ki sizdə çoḫdur alma
Vəlī ās̱ārı məʻlūm olmaz əṣlā

4[2]
fāʻilātün / fāʻilātün / fāʻilün

Be-Nikaloyof Aqabəg Məsiḥī Neveştəm

1. Sāqī gətür cām-ı mey-i ḫᵛoş-güvār
ʻƏrż qılum dərd-i dilim hər nə var

2. Güẕārişim tā olə ḫəlqə ʻəyān
Eyləyüm əḥvālımı şərḥ ü bəyān

3. Müddət ilə ḫıṭṭə-i Şīrvāndə
Şəmāḫı-ı rəşk-i gülüstāndə[3]

4. Şām [u] səḥər bāğlardə yār ilə
Ərġan u ṭənbūr dəf [ü] tār ilə

5. ʻĀrif u şāʻir neçə yoldaş idüq
Hər bir işdə birbirə sīr-dāş idüq

6. Bəhār ilə Seyyid-i şīrīn-kəlām[4]
Tāzə verən gövhər-i nəẓmə niẓām

7. Eyləyürdük dəm-bə-dəm ʻeyş ü nəşāṭ
Hər çəməndə döşəyirdük bir büsāṭ

8. Bilməyürdük zəmānənin möhnətin
İstəməyürdük Tarının cənnətin

9. Çəkməyürdük pūl ilə mālun ġəmin
Ḫān u māl u əhl-i ʻəyānun ġəmin

10. Hər nəyimiz var idi ṣərf eylədük
Ev eşik ṣatub təmāmını[5] yedük

---

[1] Sadi`nin bir beytidir: Huyu güzel, güler yüzlü birinin elinden acı yemek asık suratlı birinin elinden tatlı yemekten daha iyidir.
[2] 10b; 66a
[3] Vezin bozuk.
[4] kəlām: süḫən (d.)
Vezin bozuk.
[5] təmāmını: təmāmən

11. Hər nə ki bəglərdən alurduq ḥesāb
Əlimizdən alırdı cām u şərāb[1]

12. Bilməz idük kim fələk-i bī-vəfā
Bizlərə āḫır edəcək yüz cəfā

13. Söndürübən şəm'-i büsātım mənim
Dağıdəcəq bəzm-i nəşāṭım mənim

14. Ẕillət ilə āḫır salur ġurbətə
Ġurbət içrə yüz min ġəm u möḥnətə[2]

15. Görməyübən hīç kimsədən nicāt[3]
Rūzīmiz āḫır oləcəq həm zəkāt

16. Dün gecə əndūh-ı ġəm u ġüṣṣədən
Danışurdum başə gələn qiṣṣədən

17. Āh [u] fəğān ilə köñül darıḫub
Öz işimün āḫırınə bəd baḫub

18. Bārī Ḫudāyā necə olur bu iş
Dağ yerində gəldi souq çatdı qış

19. Nədən yeyüm bu qış nədən yandırum[4]
Mən belə əḥvālı kimə qandırum

20. Ḥəqqə edirdüm gecə mən bir du'ā
Oturmuşkən ḫəstə bəstə mübtəlā[5]

21. Ki nā-gəhān bir qāṣid-i ḫˇoş-ḫəbər
Əlində bir nāmə-i fərruḫ-əs̱ər[6]

22. Verdi baña ġüṣṣə vü ġəmdən nicāt
İskəndərə yetüşdi āb u ḥəyāt[7]

23. Açub gördüm bir nāmə-i dil-güşā[8]
Kāḫ-ı gülşən sīnī-sünbül cān-fəzā

24. Yazub baña bir nāmə-i möḥtərəm[9]
Bəḥr-i səḫā mə'dən-i kān-ı kərəm

25. Kān-ı 'əṭā 'ayn-ı səḫā bəḥr-i cūd
Gəlməyüb hīç 'āləmə belə vücūd

26. Şücā'ətdə Rüstəm-i[10] Zālī kimi
Fəṣāḥətdə ləhcəsi bülbül kimi

---

[1] Vezin bozuk.
[2] Beytin vezni bozuk.
[3] nicāt: bir nicāt
[4] Vezin bozuk.
[5] Vezin bozuk.
[6] Vezin bozuk.
[7] Vezin bozuk.
[8] Vezin bozuk.
[9] Vezin bozuk.
[10] Rüstəm ü: Rüstəm-i

27. Münşī-i gərdūn kimi təḥrīrdə
Bəlīğ u ibl kimi təqrīrdə

28. İsm-i müsəmmā tək Aqabəg olub
Belə aqa dəhrdə tək tək olub

29. Ümmət-i ʻĪsādə bunun tək aqa
Kān-ı səḫā məʻdən-i cūd u ʻəṭā

30. İşārətlə rəmz ilə yazmış baña
Məgər bu söz yetməyübdi gūşuña[1]

31. مرغ رود جای چینه باشداش
نه به جای رود چینه بایدش[2]

32. Ġərəż görüb nāmədə bu müjdəni
Ṣanki ʻĪsā diriltdi bu mürdəni[3]

33. Tez durubən ayağə bir at tapub
Cənnət sarı uçmaqa qanat tapub[4]

34. Baḫmayuban qışun souq qarınə[5]
Gəlmişəm tīz Dəvəçi bāzārınə

35. Beş gün olub [ki] vəʻdən daḫı ötüb
Dərd [ü] ġəmdən cānım boğāzə yetüb[6]

36. Ṣəd şükürlə ki yetişdim ḫidmətə
Elə bil kim tāzə düşdim cənnətə

5[7]
fāʻilātün / fāʻilātün / fāʻilün

ʻƏrż-i Ḥāl Be-Ḥużūr-ı Əmīrḫān Şīrvānī

1. Sāqī-i gül-çöhrə gətür cām-ı mey
Bərbət [ü] mizmār u dəf [ü] rūd u ney

2. Rüstəm-i ṭəbʻim olə tā məst-i cām
Fəth edə ʻəqlim cəhānı [bir] təmām

3. Ḥālət-i Cəmşīd ilə Hūşəngün
Tūr-ı Firidūn ilə Pəşəngün

4. Sər-be-sər əḥvālını təqrīr edim
Cümlə ḥekayātını təḥrīr edim

5. Əvvəl edim ḥālət-i Żəḥḥākı yād
Sitməgər ü ẓālim ü bī-bākı yād

6. Qoydı cəhān içrə neçə bəd-niẓām
Ondan oldu rənce təmām ḫāṣṣ u ʻām

---

[1] Vezin bozuk.
[2] Kuş yem olan yere gider. Yem olmayan yere gidilmemeli.
[3] Beytin vezni bozuk.
[4] Vezin bozuk.
[5] Vezin bozuk.
[6] Vezin bozuk.
[7] 12a; 63b

7. Şāhlığından görmədi bir ʻişrəti
Qoydı getdi özi içün ləʻnəti

8. Ondan sora gəldi Firidūn Şāh
Şəh deme çərẖ üzrə yəqīn çıẖdı māh

9. ʻƏdālətlə zində qıldı ʻāləmi
Köñüllərdən silübən jəng ü ġəmi

10. Yeddi yüz il pādşāhlıq eylədi
Çərẖ-i caḥān içrə məhliq eylədi

11. Āẖırı bu çərẖ-i qədīmü`l-bīnā
Eyləyə bir ləḥẓədə anı fənā

12. Pəs belə əşẖāsı ki bu çərẖ-i dūn
Eyləyə bir ləḥẓədə zār u zəbūn

13. Yeddi yüz il ʻömr ilə olan fənā
Bizlərə nə eyləyəcəkdür vəfā

14. Dur saña qurbān gəti sāqī şərāb
ʻÖmr keçir qoymə şitāb et şitāb

15. Söləmə Cəmşīd nīk ü nāmdan
Sölə baña piyālə vü cāmdan

16. ʻÖmr ilə dünyāyə çü yoẖ ʻetibār
Qoymə keçə fəṣl-i gül ü lāləzār

17. Səbzə ṣalub fərş-i zümürrüd yerə
Təẖt qurub gül qoyub əfsər sərə

18. Bülbül edüb saḥn-ı … sāni sāz
Şūr ilə hər dəmdə qılur şāhə nāz

19. Ḫüld-i bərīn cənnət-i mevʻūd-ı Ḥəq
İmdiki gülşəndən ötür bir vərəq

20. Sünbül [ü] gül lālə vü nəsrīn ü bāğ
Sīnə-i firdövsə qoyub tāzə dāğ

21. Dün baña bir yār-ı ʻədīmü`l-miṡāl
Sölədi ey Żū`ī-i şīrīn-məqāl

22. Bir belə əyyāmdə ʻāləm təmām
ʻEyş ilə ʻişrətdədi yek-sər müdām

23. Sən nə içün olmusan zār u ḥəzīn
Qaryələrdə ẖəstə vü gūşə-nişīn

24. Nə biləcək qədrüvi əhl-i davāt
Qalmısan bu növʻ ilə ḥeyrān māt

25. Dur ayağə gülşən içrə cām dut
Şūr ilə mey nūş edib ārām dut

26. Bād-ı Kūbə şəhrinə elə güẕər
Ḥəq onə lüṭf ilə edübdür nəẓər

27. ‘Ərż qıldım ḥəqdi kəlāmun təmām
Līk bu ovqāt alınmur kəlām

28. Bundan əqdəm əhl-i səẖā var idi
Kān-ı ‘əṭṭār bəḥr-i səẖā var idi

29. Līk çü yoẖ imdi bir əhl-i səẖā
Qəsīdə vü şe‘rə desün mərḥəbā

30. Hanı Şəmāẖı ki yazam şe‘rlər
Hər birinə bəẕl edələr sīm ü zər

31. Tā deyübən qəṣīdə bəẖşiş alam
Ḫırmən ü dərd ü ġəmə bir od salam

32. Sölədi ey Żū`ī-i bī-ẖānmān
‘Əqlün çaşub dīvānəsən bī-gümān[1]

33. Yoẖdı Şəmāẖı buradə var vəlī
Şəmāẖınun ẖānlarınun əfżəli

34. Əmīrẖān kim zübdə-i āfāqdur
Səẖāvətdə hər mülükdə ṭāqdur

35. Əmr-i ḥökūmətdə qılur ‘ədl ü dād
Süfrə-i əlṭāfı həmīşə güşād

36. Yoẖdı kənār ‘elminün dəryāsınə
Vəṣf çatmaz cūdınə səẖāsınə

37. Ey şāh-ı iqlīm fünūn-ı ədəb
Cəm‘ idi ẕātundə ḥəsəb həm nəsəb

38. İki səẖā əhlinə mümtāzsan
Səẖāvətdə zübdə-i Qafqāzsan

39. Eyləsön inṣāf ilə gər bir nəẓər
Demək olmaz bu sözlərdən bir ẖəbər

40. Kim qalubdur Żū`ī-i bī-ẖānmān
Ḫānlar arasındədi ḥālı yaman

41. Ḫālīdi kīsəm zər ilə sīmdən
Ḥāṣil olmaz bir qəpik hīç kimdən

42. Fikr elə ey sərvər-i vālā-təbār
Sən var ikən mən qalam bī-çīz-i ẖār

43. Sənsən mənim ṣāḥib-vəlī-ne‘mətim
Ḫəlq içində ‘izzət dövlət ḥörmətim

44. Ġeyri ẖānlar bizə ‘əṭā etməsə
Ḫəl‘ət-i dīnār ‘əṭā etməsə

45. Tutmazam mən onlarə hīç diqqəti
Görməyüblər bəẖşişi səẖāvəti

---

[1] Vezin bozuk.

46. Eşitməyüb nəğmədə şūr u nəvā
‘Eyb dögül anlamasə bī-nəvā

47. Şā‘irə ḥörmət olunur hər zəmān
Şe‘r ilə bāqī qala yaḫşı yaman

48. Mənim da‘vām səninlədür sərvərā
Qolı sınıq bilür qədr-i mūmiyā[1]

49. Ḫeyli zəmāndur məni yād etmədün
Dirhəm ü dīnār ilə şād etmədün

50. Żū`ī du‘ā eylə sözə vermə ṭūl
İmdi olur çünki du‘ālar qəbūl

51. Bārī Ḫudā ‘ömri ilə dövlətin
Arturgilən gün-bə-gündən şövkətin[2]

6[3]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

Eyżan Min-Nəvādir-Ṭəb‘

1. Sāqiyā bir kərəm et durma gözün qurbānı
Bir iki cām ilə sərşār elə mən-nālānı

2. Məst olub tövsən-i təb‘im götürüb cövlānə
Şe‘r-i şəmşīr ilə tā ki girüb meydānə

3. Mərd nā-mərdi qılub cümlə cəhān içrə ‘əyān
Zişt [ü] zībānı ḫəlā`iqlərə iẓhār u bəyān

4. Tək tək ādəmdə qalub ‘elm ü səḫā vü īmān
Yoḫdı onları də bu əhl-i cəhāndan tanıyan

5. İndi lāzımdı ki iẓhār eləyüm əḥvālı
Qalmasun hīç kəsün bī-hūdə qīl ü qālı

6. ‘Elm[4] ü inṣāf u səḫāvət bu cəhāndan qutarub
Hər nə şey` var isə ‘āləmdə qurı ad qalub

7. ‘Uləmā firqəsinün bir adı ‘ālim deyülür
Özi vallāh nə üṣūl u nə fürū‘ātı bilür

8. Öz adın yazmaqı bilməz nə bilür kāf ilə nūn
İddi‘āsı budı līkən ki mənəm Əflāṭūn

9. Ṣīğəsin bilməyə bir kimsə nikāḥun əṣlā
Rüknini şərṭini məṣdərligini anlamaya

10. Belə mollā olanun kəsdigi kābindi zinā
Dəḫi bundan bətərindən bizi ḥifẓ eylə Ḫudā

11. Enni qurşaqı uzun börki uzun saqqalı
Hər kəsün olsə odur məsnəd-i ‘elmə vālı (?)

---

[1] Beytin vezin bozuk.
[2] Vezin bozuk.
[3] 19a
[4] ‘elm: dīn (d.)

12. Dərs-i bəḥs̱-‘elm nə lāzımdı bu qədəm-dūnə
Budu vallāhi dīnlər öküzə meymūnə

13. Var bu ‘aṣrdə də bir neçə mümtāz ‘üləmā
Oları ḥifẓ eləsün ẓıll-ı pənāhındə H̱udā

14. Əvvəlimci biridür Ḥacı Məcīd əfəndi
Ki olub ‘āləm onun mev‘iẓəsi ẖursəndi[1]

15. Cümlə şəhr əhli du‘ā-gūdı o ẕāt-ı pākə
Yetüb āvāzə`-i ‘elm ü ‘əməli əflākə

16. Gün-bə-gündən eləsün Bārī H̱udā ‘ömrin uzun
Kərəmindən eləyüb cümlə fəqīri məmnūn

17. İndi iẓhār eləyüm gəl nücəbā silsiləsin
Bəg ü ẖān-zādə vü cümlə ümərā silsiləsin

18. Çoẖı fəẖr ilə deyürlər ki mənəm ẖān-zādə
Fikr qılmır ‘urəfā bənd dögüldür adə

19. Hər adı Rüstəm olanlarda şücā‘ət olu mı
Hər adı Yūsif olan kəsdə məlāḥət olu mı

20. Olsə hər kəsdə səẖāvət özi ol ḥālətdür
Olmasa gər hünəri neylüm adı Rüstəmdür

21. Hīç kəs ism-i Məḥəmmədlə peyğən-bər olmaz
‘Əli olmaqla adı Ḥeydər ü Ṣəfdər olmaz

22. Qurı ad ilə dögül ẖān u bəg ü mollālıq
Ləfẓ içün mə‘ni gərək yoẖsə gəlür rüsvālıq

23. Ḥəqqi mollā odı kim hər sözi yazub oẖuyə
Yoẖsə ki bilməyə bir ḥərfi yalandan toẖuyə

24. Ẓāhirən zīb verə qurşāq ‘əbā saqqalə
Məs`ələ vəqti qaçub bərk soẖulə qanqalə

25. H̱ān o kəsdür ki ḥəqīqətdə səẖāvətlə olə
Mə‘rifət ṣāḥibi vəqtində şücā‘ətlə olə

26. Mə‘rifət əhli səẖā əhlinə ẖān sölərlər
Kimə hər nəẖv-i ẖiṭāb eyləsə cān sölərlər

27. Cümlə ẖəlq ilə vücūd əhlinə eylər ḥörmət
Elə bəg-zādələrün ẖidməti ‘ayn-ı dövlət

28. Yoẖsə çoẖ dünbülü-bāz ism-i bəg əẖz eyləyüb
Özini bir adı bəgliklə nəcābətli bilüb

29. Bunı bilmür ki H̱udāvənd-i ‘alīm ü dānā
Buyurubdur ki خلقنا ذكىٌ والانثى[2]

30. Yə‘nī məcmū‘-ı cəhān içrə bənī növ‘-i bəşər

---

[1] ẖursəndi: ẖūrsəndi
[2] Hucurat suresi, 13. ayet. Erişim: 6 Nisan 2019, **http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=49&ayet=13**

Yaranub bir kişi bir ‘övrətidən sər-tā-sər

31. Pəs nəcābət belə olduğdə ṭəbi‘ətdə olur
‘Elm-i ‘ürfān vücūdundə səḫāvətdə olur

7[1]
mef‘ūlü / mefā‘ilün / fe‘ūlün

Dər-Mədḥ-i Əmīrḫān-ı Şīrvānī

1. Sāqī gətür ol şərāb-ı nābı
Kim yetdi niṣābə ġəm ḥesābı

2. Bir cām ilə dəf‘-i dərd ü ġəm qıl
Tədbīr-i ḫumārım et kərəm qıl

3. Ver cām ləb-ā-ləb ü pey-ā-pey
Kim ġüṣṣə vü ġəm ‘əlācıdur mey

4. Başdə əsər-i şərāb-ı gül-nār
Nə olsə köñüldə eylər iẓhār

5. Dərdimi çəküb bəyānə [mən]
İẓhār eləyüm cənāb-ı ḫānə

Be-Ṭərīq-i Ġəzəl Goftə

6. Ey ḫān-ı ‘əẓīm-i şān Əmīrḫān
Ḫānlar arasındə cān Əmīrḫān

7. Öz mərḥəmətin Cənāb-ı Bārī
Səndə eləyüb ‘əyān Əmīrḫān

8. Köñlündi dür-i ‘ulūmə dəryā
Dəstündi səḫāyə kān Əmīrḫān

9. Bəḫşiş dəmi sīm ü zər əlündən
Hər dəm çəkür əl-əmān Əmīrḫān

10. Hər bəzmdə səndən özgə kimdür
Tā kim olə zər-fəşān Əmīrḫān

11. Bu ‘ərẓimə şəfqət ilə gūş et
Dərdim eləyüm bəyān Əmīrḫān

12. Qūdyāl məmālikində rāḥət
Vəqtim keçinürdi bī-əẕiyyət

13. Şād idi köñül o sāḥət içrə
Hər ləḥẓədə ‘eyş ü ‘işrət içrə

14. Tā inki üç ay bundan əqdəm
Bir yaḫşı zəmāndə ḫeyr məqdəm

15. Nərrād-ı qəżā çəküb baña dav
Gəldi o məqāmə bir piristav[2]

---

[1] 24b; 62b
[2] Rusça kelime olup, Sovyetler döneminde polis memuru için kullanılmıştır.

16. İẓhār elədi dövr elə iqdām
Dövrān saña eyləyübdi ikrām

17. Ḫānlar səni istəyübdi mollā
Rūḥānī umūr içrə dārā

18. Ḥāżırdı yanımdə pirġavāri[1]
Gəl olmə bu işdə sən firārī

19. Ḫānlar adını eşitcək ol dəm
Şövq ilə dedim ki ḫeyr məqdəm

20. Baş üstə deyüb ayağə durdum
Ol Kə`bə-i məqṣədə yüz urdum

21. Düşdim yolə sə'y ü gūşiş ilə
Bī-rāḥ ilə zār u pūşiş ilə

22. Dedim ki nə var cəhān mənimdür
Çün şəfqət ü lüṭf-i ḫān mənimdür

23. Üç ay olı gəlmişəm mən-i zār
Ḫərc etməgimə nə sīm ü zər var

24. Gəh Bākıdan eylədim sifāriş
Gəh Aqcaqabūldan nigāriş

25. Bir kimsədən olmadı ḥimāyət
Göstərmədi kimsə bir səḫāvət

26. Əvvəl məni nişə istədüz siz
Gəlün bu məqāmə sölədüz siz

27. Ḫāṭirdən edüb ṣora fərāmūş
Yüz dərd ü bəlāyə eylədüz tūş

28. Bāzar-ı Qalaqayındə müddət
Çoḫ çəkdim [o] ġürbət içrə ẕillət

29. Çün olmadı bir rəfīq-i ṣādiq
Şərḥ etməgə ḥālımə müvāfiq

30. Baḫ dərdimə nə məqāmə çatdım
Tā āḫırı sā'atımı satdım

31. Nā-gāh fələk tərəḥḥüm etdi
Əndūh-ı ġəmə 'əlāc yetdi

32. Təşrīf gətürdi ḫān-ı Şīrvān
Kān-ı kərəm ü səḫā Əmīrḫān

33. Əlṭāf ilə sordı eḥtiyācım
Hər vəcfdən eylədi 'əlācım

34. Ey mīr-i büzürgvār Əmīrḫān
Qurbān saña yüz mənim kimi cān

35. Yoḫdur baña şāh səndən özgə

---

[1] Rusça kelime olup, "müzakere veya mahkeme kararı, cümle, söylemek" gibi anlamlara gelir.

Żū`iyə pənāh səndən özgə

36. Müddətdi ki gəlmişəm burayə
Yoḫdur yetən çatan ḥarayə

37. Ġüṣṣə baña çoḫ edüb sirāyət
İmdi saña eyləyim şikāyət

38. Qoymə çıqə çərḫə dūd-ı āhım
Ḫānım [u] şəhim ümīdgāhım

8[1]
mef'ūlü / mefā'ilün / fe'ūlün

Qiṭ'ə-i Məs̱nəvīyyāt-ı Təqāżāī

1. Ver sāqī baña şərāb-ı gül-nār
Kim dövr-i fələk edüb məni ḫār

2. Bir buq'ədəəm əsīr ü ḥeyrān
Salmış məni min bəlāyə dövrān

3. Nə yārunə həm-zəbān nə ġəm-ḫ̌ār
Nə mūnis ü dost nə pərəstār

4. Ver cām-ı ləb-ā-ləbi pey-ā-pey
Kim ġüssə vü ġəm əlācıdur mey

5. Bir cām ilə ġüṣṣə gedə məndən
Ġəm jəngini tā silüb köñüldən

6. Ḥāl-i dilimi çəküb bəyānə
Çün ġüṣṣə sirāyət etdi cānə

7. 'Ərż eyləyüm ol büzürgvārə
Tā ḫeyr nədür bu kār-ı zārə

8. Ey sərvər-i əhl-i fəżl-i āləm
Mümtāz u güzīn-i nəsl-i ādəm

9. Tā'ətdə olan miṣāl-i Ẕünnūn
Dövlətdə şərīk-i māl-i Qārūn

10. 'Elm ü ədəb ilə rəşk-i Buqrāt
Ḥikmətdə təlāmiẕündi Soqrāt

11. Bilməm nədi bā'is̱ ey nīk ü nām
Kim bu işə verməyürsən əncām

12. Əvvəlki hesābdə dögülsən
Ol āb ilə ṭābdə dögülsən

13. Kim lüṭflüqi şü'ār qılmə
Żū`īni nəzərdə ḫ̌ār qılmə

14. Kim mərhəmət elə pādşāhım
Bildür baña kim nədür günāhım

---

[1] 26a; 56b

15. Nə hörmətim olsə hörmətündür
Nə dövlətim olsə dövlətündür

16. Sən olmason ər bənimlə ġəm-ẖˇār
Qallam belə bī-nəvā vü əfkār

17. Var yoqum u yoẖluqum kim anlar
Kim ḥālımdan olur ẖəbərdār

18. Gər əsbdən olmusan pərīşān
Qurbān saña at bəlkə həm cān

19. Bir yaẖşı məs̱əl bu dāstāndə
Sə'dī buyurubdı Gülsitāndə

20. Şīrāzdə bir mürīd-i kāmil
Mürşidliqə olmuş idi qābil

21. Ḫəlq eylədi izdiḥām-ı kəsrət
Qalmadı mürīdə z̤övq-i vəḥdət

22. Ustādınə 'ərz̤ qıldı āẖır
K`ey rāh-ı ṭərīqət içrə māhir

23. Cəm' oldı ẖəlā`iq üstümə çoq
Da hər nə 'ibādətə yolım yoq

24. Lüṭf eylə bu ẖəlqi qıl kənārə
Sən bārī bu dərdə eylə çārə

25. Ustādı təbəşşüm eyləyüb şād
Etdi onə belə fikr bünyād

26. Gər istəsön ey 'əzīz̤-i 'āləm
Kim gəlməyə yanıña bir ādəm

27. Dövlətlü olan mürīdlərdən
Qərz istə 'əzīz-i sīm ü zərdən

28. Kasıblarə qərz ver dəẖi māl
Gör necə sora olur bu əḥvāl

29. ... qılub bu nəḥv-i ḥālı
Dağıldı təmām lāubālī

30. At istəməgimdən imdi sən də
Kim mərhəmət olma durma kəndə

31. Dünyā üzi sər-bə-sər fənādur
Bir yaẖşılıq adı kim bəqādur

32. Sölə hanı Ḥātəmün vücūdı
Bāqīdi vəlīk adı cūdı

33. Sən mənbə'-i çeşme-i 'əṭāsən
Əbr-i kərəm ü məh-i səẖāsən

34. Qoymə məni intiz̤ār içində
Şām u səḥər āh u zār içində

35. Yā at bəḥāsını bərāt et
Yā inki bərātımı bir at et

36. Tā ʻömr-i ṭavīl elə İlāhī
Versün saña tāc-ı pādşāhı

feʻilātün / feʻilātün / feʻilātün / feʻilün[1]

37. Ey vəfā kānı Əmīrẖān ki dəm-ā-dəm Ḥəqqdən
Ṣıdq ilə vəqtivi ẖ˘oş keyfivi çaq istəyürəm

38. Ṣıdq ü iẖlāṣ ilə hər ṣübḥ ü məsā Ḫāliqdən
Rūz u şəb ʻişrət ilə cānıvı saq istəyürəm

39. Eləyürsən hamunun ḥālinə lüṭf ilə nəẓər
Bir mənim də dəẖi bu ʻərżimə baq istəyürəm

40. Söndürüb bād-ı fələk şəmʻimi qılmış tīrə
Ẓülmət-i leylim ʻəlācınə çırāq istəyürəm

41. Çün fəqīrün yüzidür hər iki dünyādə qara
Kərəminlə bu qara yüzimi aq istəyürəm

42. Qalmışam pāy-ı piyādə gəlübən dərgəhiñə
ʻƏcz ilə mərhəmətündən bir ayaq istəyürəm

43. ʻĀlim-i şāʻirəm dərvīş ü fəqīr ü müżṭər
Hansı vəch ilə desön mən o sayāq istəyürəm

44. Żū`iyəm mən də Şamāẖīdə sənün məddāḥun
Düşmənün dīdəsinə çəkməgə dāq istəyürəm

9[2]

feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

Məs̱nəvī Be-Ḥəqq-i İslām

1. Dövrə gəl dövrüvə qurbān tən u cān ey sāqī
Bədən-i mürdə içün rūh-ı rəvān ey sāqī

2. ʻÜrəfā zümrəsinə cām-ı cəhān bīn meydür
Cühəlā firqəsinə bir qurı hāy u huydur

3. Cām-ı Cəmdür[3] dəẖi İskəndərün āynəsidür
Məst olandə bilisən ʻāləmün ādəm nəsidür

4. ʻĀrifə māżi vü müstəqbəli ilhām eylər
Ġeybdə məẖfī olan ḥāləti iʻlām eylər

5. ʻİllət-i ʻġā`iyə-ʻālim nədi bu ʻāləmdə
Bu kərāmətlə olan kimdi bənī ādəmdə

6. Kūdək ādəm elə bu ṣūrət-i şəẖṣiyyə olur
Yā vücūdındə onun ġeyr-i kərāmət tapulur

7. Bəlī insān odı kim ʻelm ilə ʻürfānı olə

---

[1] 27b; 57b
[2] 28b
[3] Cām-ı Cəmdür: Cām u Cəmdür

Yoḫsə ẕāhirdə elə ṣūrət-i insānı olə

8. Hər kəsün mə‘rifəti olsə təmām ādəmdür
Olmasa ādəmə oḫşar ḥeyivāndan kəmdür

9. ‘Elm ü ‘ürfān nədür āləmdə dəẖi vāżeḥ edək
Sora inṣāfı olan şəḫṣlərə şərḥ eliyək

10. Dögi bir ṣūrət-i şəḫṣiyyə ilə insānlıq
‘Elmlən ḥāṣil olur mərtəbə vü ‘ürfānlıq

11. ‘Elm ü ‘ürfān görəñ āyā yekə ‘əmmāmədür
Enni qurşāq u uzun saqqal uzun cāmədür

12. Hər nə olsə bu libās ilə müləbbəs olsə
Onə ‘ālim deyülür hər cürə nā-kəs olsə

13. Cühəlā məḥż libāsə söləyürlər ‘ālim
Odı kim ẕülmət-i ġəflətdə qalublar dā`im

14. Bu miṡālı söləyüb ṣāḥib-i ‘elm ü ‘ürfān
Sə‘dī ol kim onə ḥikmətdə yetüşməz Loqmān

15. Buyurub şəḫṣ libās ilə hünərmənd olmaz
Rəngi ağ olmaq ilə duz gəlübən qənd olmaz

16. در كژا غنده بايد بود
بر مخنّث سلاح جنگ چه شود[1]

17. حاجت بكلاه بركى داشتنت نيست
درويش صفت باش كلاه ترترى دار[2]

18. Bu zəmān əhlidi kim anlamayub nīk [ü] bədi
Deyər ‘ālim onə kim başınə bir ağ dolədi

19. Bī-nəvā görəcəyin ‘əmmāməni başdan gedəcək
Nə desə ṣāḥib-i ‘əmmāmə bu təṣdīq edəcək

20. Fikr qılmır danışan bu sözi ‘əmmāmə dögül
Yā uzun saqqal ilə yā ki uzun cāmə dögül

21. Diqqət etmir ki bu söz oḫşarı var Qur`ānə
Yā ḥədīṡə yā bu söz oḫşarı var hər yanə

22. Olə də bir sözi təşḫīṣ-i təmīz etməzlər
Ḥəq sözün cānınə diqqət edübən getməzlər

23. Budı bizdəki neçə təfriqələr peydādur
Nəbīdür ümməti var söləmə kim mollādur

24. Gör bölüblər neçə yüz firqələrə bir dīni
Mużməḥil żāy‘ edüblər bu gözəl āyəni

25. Atuban dīnün üṣūlın eləyüb fər‘ī uṣūl
Bī-dəlīl eyliyəsən hər nə desə anı qəbūl

---

[1] Savaş elbisesi içindeysen adam/er olman lazım. Adam olmayan (sapık) insana savaşta silah vermenin ne faydası?!
[2] Bereki (derviş ve şeyhlerin giyindiği şapka) kulah takmana gerek yok, başındaki Tatar şapkası dahi olsa derviş huyuna sahip olman yeterlidir.

26. Sən ki ādəmsən ḥəqiqiyyət-i əqvāl ilə[1]
Māżī müstəqbələ baẖ diqqət-i əḥvāl ilə

27. Bir ḥədīs̱ etsə rəvāyət sənə bir fikr elə
Gör yaraşur mı desün ḥəqq-i peyəm-bər belə

28. Ḥəqq saña ʻəql verübdür budur əqdi sənün
Ki bununlə verəsən fərqini hər nīk ü bədün

29. Fikr qıl ʻəqlivi yıq başuña ey bī-çārə
Sən özün günəhinə baẖ ki yazılub dīvārə

30. Līk Ṣəd-ḥeyf ki bu ʻəṣrdə məẖlūq təmām
Dutub ol köhnə sözi kim belə sölübdi babam

31. O sözün də genə bir yaẖşısını əẖẕ etmüb
Hər nə pöhrəsi (?) vardur oları əzbər edüb[2]

32. Bilmürəm kim nə edək tā bu cünūn-ı cəhli
Gedübən biz də olaq ʻelm ilə ʻürfān əhli

33. Nə qədər fikr elədim diqqət ilə bu kārə
Məktəb ü dərsdən özgə bunə yoẖdur çārə

34. Dərs ü məktəbdi təṣəvvür elə bu dərdə dəvā
Oẖuyub ʻelm ilə tapmış nəẓər et telġrama

35. Nəyi artuqdı vücūdındə Firəngün səndən
Əl ayaġ qaş u göz ilə hamı şeydə tənsən

36. Dərs-i ʻelm ilə o ādəmdi mən oldım ẖeyvān
İstəsə hər cürə noẖtə (?) urə ḥəqdür āsān

37. ʻElmsiz ādəmə Qur`āndə Ḫudā-yı ʻəllām
Ḥeyivāndan də deyüb əksük اضلّو الاانام

38. Pəs gözim nūrı gəlüb məktəbə ʻelm et ḥāsil
Oləsən məclis-i ʻürfān ʻəzīzim vāṣil

39. Tā desünlər ki müsəlmāndə də var ʻəllāmə
Deməsünlər ki müsəlmāndı qurı ʻəmmāmə

40. Nə olubdur sizə bi`llāh ki təʻəṣṣüb dīndür
Qulaq asmaz bu sözə kim ki Ḥəqə kəc-bīndür

41. Sizə hər gündə deyür məktəb [ü] məktəb İrşād
Mollā Nəṣrə`d-dīn edir ḥikmət ilə yüz fəryād

42. Siz də hər buqʻədə bir məktəb bünyād eyləyün
Żū`īni şād edüb İslāmdə bir ād eyləyün

43. Var yüz söz ürəgimdə edə bilməm iẓhār
Olu yā Rəb o zəmān kim söləyəm hər nə ki var

10[3]
müfteʻilün / müfteʻilün / fāʻilün

---

[1] Vezin bozuk.
[2] Vezin bozuk.
[3] 30b

Be-‘Əlibaba Bəg Əkniyət (?) Neveşte Şode

1. Sāqī dayanmə ki gəlüb növ-bəhār
Cənnət-i mev‘ūdı qılub āşkār

2. Cümlə geyüb ḫəl‘ət-i istəbrəqin
Cümlə tapub ḫüld-i bərīn rövnəqin

3. Bülbül-i şūrīdə olub nəğmə-sāz
Vüṣlət-i güldən oḫuyur şāh-nāz

4. Ṣulṣul ü dürrāc tezerv [ü] həzār
Ləḥn-i mü`əllifdə (?) oḫurlar ḥiṣār

5. Sāqī gətür bəzmə mey-i Dərġəmi
Tā ki silə köñüldən rəng-i ġəmi[1]

6. Ṣəbr vəqiti dögül[2] eylə şitāb
Dur ayağə al ələ cām-ı şərāb

7. Tā ki düşə başımə şūr u nəvā
Şərḥ elim hər nə ki var mā-cərā

8. Nədür səbəb çərḫ olub kəc-mədār
Mə‘rifət əhlin eləyür ḫᵛār u zār

9. Hər zəmānda olubsə bir əhl-i dil
Çərḫ eyləyübdür onı zār u ẕəlīl

10. Hardə olə ‘ārif-i zü`l-ehtidā
Çərḫ-i fələk fəqrə qılur mübtəlā

11. Mə‘rifət əhlində əgər olsə zər
Həm-cinsində qoyar mı ḫavf u ḫəṭər

12. Vəzīr idi Nəvā`ī-i nüktə-dān
Gör necə Ḫəyyāmə olub pāsbān

13. İldə nə olur idi ḫərc-i təmām
Bi`l-mużā‘af verürdi ol nīk [ü] nām[3]

14. Tār-zən-i ḫādim ü sāqī nə var
Ḥāżır idi bəzminə leyl ü nahār

15. Hər həftədə sorardı əḥvālını
Ḫᵛāhişinə ṣərf edərdi mālını

16. Pəs olə gər əhl-i ma‘ārifdə zər
Həm-cinsinə nə yerdə olsə verər

17. Żū`ī nə lāzım belə ṭūl-i kəlām
Məṭləbivi ẓāhir elə və`s-səlām

18. Ẓāhir elə məṭləbüvi müḫtəşər
Kim eləsün çārə o kān-ı hünər

---

[1] Vezin bozuk.
[2] dögül: dögüldür
[3] Vezin bozuk.

19. Hər lisānə ʻālim-i kāmildurur
Hər nə hünər ẕātınə şāmildurur

20. Fārsī vü Rūsī Firəng ʻƏrəb
Hər bir zəbān şan dilidir cəvvāb (?)[1]

21. Çünki şərīf ismidi ʻƏlībaba
Ol səbəbdən tapubdı ʻizz ü ʻəlā[2]

22. ʻƏlībaba bəg ki Ḫuda ṭıynətin
Ẕehn-i ẕəkāvətlə qılub fıṭrətin

23. Şəmāḫınun qədīm bəg-zādəsi[3]
ʻElm ü hünər ṭəbʻ u Ḫudā-dādəsi

24. Ey şəh-i iqlīm fünūn-ı ədəb
Ẕātıña mużmər ḥəsəb u həm nəsəb

25. Bir il olur mənim kimi mużṭəri
Cān u dildən iḫlāṣ edən çākəri[4]

26. Salmamısan yādə qalub bī-nəvā
Hər cəhətdən dərd ü ġəmə mübtəlā

27. Hīç ṭərīq içrə dögül möʻtəbər
Soruşmuyə ḫādimini məḫdūmlar[5]

28. Vəʻdəsinə yā ki vəfā etməyə
Ġəm gündə imdādınə yetməyə[6]

29. Hər nəḥv olə Żūʻī saña bəndədür
Duʻā-gūdur ḫidmətə pāyəndədür

11[7]
fāʻilātün / mefāʻilün / feʻilün

Dər-Ḥəqq-i Millət-i İslām

1. Sāqiyā ver şərāb-ı ʻürfāndan[8]
Gəlmişəm təngə əhl-i əzmāndan[9]

2. Tökgilən ṭāsə bādə tā ḫəṭ-i cövr
Görməyüm tā zəmānədən bir cövr

3. Ḫəṭ-i bəndli (?) yā ki cövr ilə
Ġərəż ortadə ḫeyli dövr ilə

4. Tök ayağə şərāb-ı sər-ḫˇoşı
Tapə anunlə məğz-i sər cūşı

---

[1] Vezin bozuk.
[2] Vezin bozuk.
[3] Vezin bozuk.
[4] Beytin vezni bozuk.
[5] Vezin bozuk.
[6] Vezin bozuk.
[7] 37b
[8] Sāqiyā ver şərāb-i ʻürfāndan: Sāqiyā ver şərāb mədrəsədən (d.)
[9] əzmāndan: mədrəsədən (d.)

5. Tə`sīr-i məst olub bu pīr-i kühən
Ḫəlqə mə‘lūm edim nə varsə süḫən

6. Məst olub tā ki hər kəlāmı deyüm
Qalmasun hīç söz təmāmı deyüm

7. Hər kəsün olsə dövləti varı
Ol kəsün çoḫdı ‘izzəti ‘ādı

8. Anlayubdur çü ‘əqldür kāmil
Pūl ilən hər bir iş olur ḥāṣil

9. Çün bilübdür bunı ki sīm ilə zər
Məḥv edər hər nə olsə ‘eyb ü kədər

10. Nə qədər ‘eybi olsə pūl örtər
Çirk ü pāsın təmizləyüb örtər

11. Çün bilübdür bu zəhr-i mār dövlət
Şeyṭānə ḥāṣil eyləyür cənnət

12. Tikdirir məscid ilə yüz eḥsān
Alı bir gündə rövże-i riżvān

13. Çünki dövlət o şey`di kim ondan
Nə çətin iş olə olur āsān

14. Yā cəhənnəm yā cənnətü`l-mə`vā
Pūl bir dəmdə eyləyür peydā

15. ‘Elm ü ‘ürfān olubdı bī-‘izzət
İmdi pūl ṣāḥibinədür ḥörmət

16. Olsə Buqrāṭ ‘elmdən bī-pūl
Hīç kim eyləməz sözün də qəbūl

17. Olsə ḥikmətdə bir kişi Loqmān
‘Elm ilə mürdəyə əgər verə cān

18. Pūlsız olsə kimsə meyl etməz
Bir ġuruşə o ḥikməti getməz

19. ‘Elm az pūl çoḫ olan ādəm
Ḫəlq içində olur imām- ə‘ẓəm

20. Olmasa pūlı gər Fəlāṭūndur
Ḫəlq sölər oña ki məcnūndur

21. Bilmürəm neçə ‘əṣrdür bu zəmān
Ḫəlq pūlə deyür Ḫudā-yı cəhān

22. Yoḫdı bir kimsə əṣldən[1] āgāh
Pūlə derlər bugünki gün Allāh

23. Etməmiş hīç uṣūl-i dīni ḥəll
Başlayublar furū‘d-dīndə cədəl

---

[1] Əṣldən: Ḥəqqdən (d.)

24. Biri der ə‘ẓəmīdi məẕhəb-i Ḥaq
Biri der Mālikīdurur müṭləq

25. Biri der ḫeyr Bəhbəhānīdür
Biri der mīr-İṣfəhānīdir

26. Var imiş yüz bu növ‘ ādəmlər
Ki özindən səvānı bāṭil elər

27. Cümlənün qəvli belədür bu məḥəl
Mundan özgə sözinə etsön ‘əməl

28. Ondə bāṭildi cümlə ə‘mālun
Cümlə ṣavm ṣalavāt u əf‘ālun

29. Bī-dəlīl etməsün sözim bāvər
Hamı ə‘māl-i ḫeyrün oldı hədər

30. Deməyüb bu sözi rəsūl-i əmīn
Sözimi bī-dəlīl eylə yəqīn

31. Sən dəḫi bil ‘ulūmı diqqət ilə
Bizə təfsīr qıl ḥəqīqət ilə

32. Sən də bir ‘ālim ol şərī‘ətdə
Yoḫsə ortaq ol risālətdə

33. Gər mənə bāvər etməsön əṣlən
‘Əməlündür həbā` mənṣūrən

34. Belə əṭvārı belə kirdārı
Bu ṣifət nā-qəbūl güftārı

35. Hīç millət qəbūl etməzlər
Belə rāh-ı ḫəṭāyə getməzlər

36. Getsə bircə ‘əvām-ı [1]كا الانام
Ki dutub gözlərini zində ẓəlām

37. Ey mənim məzhəb[2] içrə qardaşım
Ṣūrət-i ādəmiyyə yoldaşım

38. Hər nə söz kim eşitmisən ey cān
Əṣl ü günāhın əvvəl eylə bəyān

39. Baḫ o söz gör ki kimlərə yaraşur
Tā pərī yā peyəm-bərə yaraşur

40. Nə söz olsə gərək əzəldə qanam
Ṣədrdə çoḫ diqqət eyləyüb inanam

41. Olsa gər ‘eyb istəyəndə dəlīl
Pəs nöçün Ḥəqdən istəyübdi Ḫəlīl

42. Ayəni كيف تجرى الموتى
Yə‘nī göstər məña Ḫudāvəndā

---

[1] Araf suresi, 179. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=7&ayet=179
[2] məzhəb: dünya (d.)

43. Çürüyüb belə müżməhil mövtā
Nə qılursan ki tā olur əḥyā

44. Elə əşḫāṣ istəyəndə dəlīl
Onə göstərdi dəḫi Rəbb-i cəlīl

45. Pəndinə bī-dəlīl eylə qəbūl
Ḥökm edər pənd qəbūl elə tez ol

46. Dağılubdur əsās-ı dīn-i nəbī
Bənd[1] olubsız dağılmaqun səbəbi

47. Māl-i dünyādən ötri hər mollā
Raḫnələr dīndə eyləyür peydā

48. Hərə bir dīn gətirmiş iẓhārə
Bir olan dīn olubdı ṣəd pārə[2]

49. Bār`ilāhī özün ‘əlāc elə
Qoymə İslāmı tərk olə belə

50. Bu gözəl məzhəb olmayə fānī
Dutmayə cəhl ü fitnə dünyānı

51. Żū`iyā açma çoḫ da əsrārı
Mollālar küfr oḫur bu güftārı

52. Nə gərəkdür ḥədīs̱[3] ü āyə
Māl [u] dövlət gərəkdi mollāyə

12[4]
mefā‘īlün / mefā‘īlün / fe‘ūlün

Məs̱nəvī Ki Be-Vələd-i Ḫod Neveştə

1. Əlā ey ḫāṭir-i zārım sürūrı
Əlā ey dīdə`-i ġəm-dīdə nūrı

2. Əlā ey növ-gül-i bāğ-ı vücūdım
Əlā ey dəhr-ārā būd nə-būdım

3. Əlā ey köñlümün ārāmgāhı
Şikəstə Żū`īnün püşt [ü] pənāhı

4. Səlām olsun saña ey nūr-ı dīdə
Gül-i ḫ̌oş-bū olan bāğ-ı ümīdə[5]

5. Səlām olsun saña ey cān nihānı
Vücūdun köñlümündür mülk [ü] mālı

6. Dil-i ġəmgīnimi sənsən qılan şād
Sənünlədür vücūdım şəhri ābād

7. Səni ḥifẓ eyləsün cümlə bəlādan

---

[1] Bənd: pənd
[2] Bir olan dīn olubdı ṣəd pārə: Oldı insānlıq min pārə (d.)
[3] ma‘ārif: ḥədīs̱ (d.)
[4] 73b
[5] bāğ-ı ümīdə: bāğ u ümīdə

Budur dā`im təmənnāmız Ḫudādan

8. Əgərçi ḫˇoşdu hālım ġürbət içrə
Vücūdımdur səlāmət ṣəḥḥət içrə

9. Vəlī sənsiz köñül ārāmı yoḫdur
Cəmālun görməmiş dil-kāmı yoḫdur

10. Məgər cānsız bədəndə tāb olur mu
Ḫəyālāt eyləyəndə ḫᐯāb olur mu

11. İlāhī bir səbəb qılsun kərəmdən
Görüb vəṣlün olum āzād ġəmdən

12. Ḥużūrunlə həmīşə şər olə ḥəl
Bəlā vü dərddən āzād olə dil

13[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

Be-Yeke Be-Dūstān Neveştə

1. Səlām olə saña ey bəḥr-i əḥsən-i əḫlāq
Səlām olə saña ey bərgüzīdə-i Ḫəllāq

2. Ḥəqīqət 'āləmi içrə bərādər-i cānı
Ṣədāqət 'āləmi içrə rəfīq-i rūḥānī

3. Səlām olə saña ey fəżl-i mə'rifət kānı
Səlām olə saña ey Żū`ī-i ḫərin cānı

4. Ḥasəblə 'āləm-i ḫilqətdə çünki ə'lāsan
Odur səbəb ki 'Əlī isminə müsəmmāsan

5. Kirām-ı ḫülqi ki vermiş saña bu növ' Ḫudā
Ġulāmdur sənə hər yerdə var isə 'ürəfā

14[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

Dər-Mədḥ-i Cənāb-ı Seyyid Qāżī Neveştə Şodeəst

1. Səlām olə saña ey tācdār-ı əhl-i vəfā
Səlām olə saña ey bərgüzīdə-i 'ürəfā

2. Səlām olə saña ey fəżl-i däniş-i rəh-bər
Səlām olə saña ey müqtədir[3]-i əhl-i hünər

3. Səlām olə saña ey fəżl-i mə'rifət kānı
Səlām olə saña ey Żū`ī-i ḫərin cānı

4. Şikəstə-ḫāṭirimin ẕövqi Seyyid-i qāżī
Bu dərd-i ġüṣṣə-i dil şövqi Seyyid-i qāżī

5. Olan müṣāḥibətində həmīşə ẕövq-i ṣəfā
Salan təkəllümi tār təki köñlüm içrə żiyā

---

[1] 75a
[2] 86b
[3] müqtədir: müqtədār

6. Dühāt içində nə müddətdi qalmışam məğmūm
Ləzīz ṣöḩbət-i cān-bəḫşdən olub məhrūm

7. Gecə günüz ġəm ü əndūh-ı bī-şümār içrə
Neçə sipənd yanar şiddət ilə nār içrə

8. Təvəqqe'm budı əḥvālıvı bəyān edəsən
Ḥəqīr Ẓū`īni bir sözlə şādmān edəsən

9. Həmīşə ḫāṭirivi Ḫāliq eyləsün məmnūn
Cəlāl u dövləti 'ömrüvi həm dəḫi əfzūn

10. Bu şəfqət ilə mən-i zārı sər-firāz edəsən
Təmām dost dəḫi həm saña edə [bir] əḥsən

11. Qəsəm deməkliqə mollāsını edüb tə'yīn
Şikəstə ḫāṭirimə nəṣb ilə verüb tərīn

15[1]

fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Sāqiyā dövrə gətür cām-ı mey-i gül-nārı
Gəti bir ḥālmə şərāb ilə dil-i bīmārı

2. Tāzə ziynət verüb övżā'-ı gülüstānə bəhār
Fərş-i sündüs döşüyüb ṣəḥn-i dil-i cānə bəhār

3. Bülbül [ü] qumrī açub şövq ilə hər yan pər ü bāl
Göstərübdür gül-i həmrā nə nəzākətlə cəmāl

4. O behişti ki Ḫudāvənd qılub ẕikr ü bəyān
Eləyüb imdi bizə sāḥət-i dünyādə 'əyān

5. Bu 'anādil bu bəlābil bu gülüstān bu çəmən
'Eyni cənnətdi nəşāṭ eylə əgər ādəmsən

6. Bu nə inṣāfdı kim bir belə əyyām-ı bəhār
Keçə bī-bādə vü bī-sādə vü bī-bərbəṭ ü tār

7. İmdi ki ḥāṣil olubdur saña bu ḫüld-i bərīn
Qoymə ey nā-ḫələf əldən çıḫə bu mā`-i ma'īn

8. Mümkün olduqcə fərāhim elə əsbāb-ı sürūr
Mey ayağın ələ al tā gətürə başıña şūr

9. Biləsən ḥālət-i İskəndər ü Cəmşīd ü Cəmi
Dövlət-i fānī içün çəkməyəsən dərd ü ġəmi

10. Hanı Bəhrām ü Sifəndār u Nərīmān ilə Sām
Əsüb onlar ṭərəfə gör nə ṣifət ṣarṣar-ı sām

11. Hər nə olsun gedəcəksən bu fənā dünyādən
Bārī bir 'işrət elə çəkmə ġəm-i bī-cādən

12. Oləsən Rüstəm-i dəstān vəyā Rūyīntən
Zāl-i gərdūndan ölüm zəḫmini āḫır görəsən

---

[1] 127b

13. İmdi ki oldu [ʻəyān] qāʻidə-i dəhr sənə
    Fürṣəti fövt eləmə seyr elə ṭərəf çəmənə

14. Qoymə bī-hūdə keçə ʻömr-i ʻəzīz ey nā-dān
    H̱āṣə bu vəqt-i gül ü mövsüm-i bāğ u bustān



[MUHAMMESLER]

1[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü /fā'ilün

1. Yā Rəb olur mu bir də dönüb növ-cavān olam
Eyş [ü] nəşāṭ-ı ləẕẕət ilə kām-rān olam

Hīç kimsə görməsün belə sin-i kuhūləti
Çün cismdən gedübdi o sükkər şəbābəti
Qalmub ağızdə gözdə dəḫi dizdə tāqəti
Bī-ẕövq cism ü cān diri qalmaq nə ləẕẕəti
Yaḫşı odur ki topraq içində nihān olam

2. Ḫˇoş ol zəmān ki qış baña bir növ-bəhār idi
Manqal kənārı yār ilə bir lāləzār idi
Ruḫsārəsində cənnət-i ḥūr āşkār idi
Ol ḥālətün gədālıqı bir şəhriyār idi
Bu ḥāl ilə nə ẕövqi əgər ḥökm-rān olam

3. Pīrānəliqdə çün kişinün yoḫ o ḥāləti
Çoḫ məclisə oturmaqə olmaz ləyāqəti
Hər bir qədər əgər olə də māl ü dövləti
Ağsaqqalun dutar mı cavānlarlə ṣöḥbəti
Dünyādə indi istəmürəm bir zəmān olam

4. Altmış yaşındə isə [o] bir kimsə gər vəfāt
Tapdı o şəḫṣ hər iki dünyādə bir nicāt
Hər kəs ki etdi yetmişə həştādəcən ḥəyāt
Bī-rūh cismdir o müqəvvādı bī-səbāt
Nə behcəti o 'ömr ki 'āləmdə ḫān olam

5. Getmiş qədīmdə olan 'əhd ü vəfā dəḫi
İnṣāf ilə ṣədāqət cūd [u] səḫā dəḫi
Bir gün ḥəyāt istəmürəm Zū`iyā dəḫi
Çün yoḫ bədəndə ẕərrəcə ẕövq ü ṣəfā dəḫi
Bu ḥāl ilə nə fā`idə şāh-ı cəhān olam

2[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü /fā'ilün

1. Ḫˇoş ol zəmān ki 'işrət ü 'eyşim təmām idi
Baş[3] şūr-ı 'eşq gözdə o māh əldə cām idi

Derdim müdām Ḫosrov [u] Şīrīn ḥekāyəti
Bir ẕərrə qədri bilməz idim dərd ü möḥnəti
Nə var yoḫ ġəmi nə 'əyālun ḫəcāləti
Nə cənnət ārzūsı nə dūzəḫ məhābəti
Fikrim həmīşə ol büt-i ṭūbā məqām idi

2. Bilməzdim hīç ġüṣṣə vü dərd ü kədər nədür
Yā fəqr ü fāqə necədi yā sīm u zər nədür
Yā rāḥət-i Ḫiżir nədü rənc-i səfər nədür
Məḫlūq içün cəhāndə qəżā vü qədər nədür
Gūyā ki məskənim baña dārü`s-səlām idi

---
[1] 35a
[2] 36b
[3] Baş: Başdə

3. Ey çərḫ bilmədim bu işün var imiş sənün
Sifründə şəhd lā`iqinə ḫār imiş sənün
Getdükcə ʻömr-i ḫāṣiyətün dād imiş sənün
İqbālıvun əvāḫiri idbār imiş sənün
Ḫ˘oş ol zəmān ki ʻişrət ü eyşim təmām idi
Ḥeyf ol qərīnə kim baña dövrān be-kām idi

4. Ṣəd-ḥeyf həft uduzdım [o] həftād sālımı
Bir fikr qılsa idim əgər mən [ki] mālımı
Verməzdim ʻelmə māżī vü müstəqbəl ḥālımı
Mən də zər ilə doldurur idim çuvālımı
İmdi mənim də yaḫşı günim müstədām idi

5. Vafirqətā bu əṣrdə yoḫ bir rəfīq olan
Üftādələr əlin dutuban bir şəfīq olan
Ḫāṣiyyəti ḥəlīm kəlāmı rəfīq olan
Yoḫ Żū`ī tək baḥār-ı bəlāyə ġərīq olan
Əfsūs o dəm ki çərḫ baña ḥamān qulām idi

3[1]

mef ʻūlü / fā ʻilātü / mefā ʻīlü / fā ʻilün

1. Ey sərvər-i bülənd məqām ki ṣidiq ilə
Dərgāhıvə dəḫīl ü ḥəqīrānə gəlmişəm

Bir mūr-ı bī-nəvā təki sər-gəştə dövr edüb
Āḫırdə bārgāh-ı Süleymānə gəlmişəm

2. Məğmūm dil-şikəstə ḥəzīn bī-nəvā ikən
Həm zār-ı dərd ü həm dəm-i cövr-i cəfā ikən
Dövrān ʻədū vü yār baña bī-vəfā ikən
Bülbül ṣifət ḫəzān-ı ġəmə mübtəlā ikən
Ṣəd şükr ʻāqibət ki gülüstānə gəlmişəm

3. Gərçi əzəldə żağəm-i dövrān-ı şīr idim
Āḫırdə çərḫ əlində çe rūbāh-ı pīr idim
Fövc-i bəlā vü dərd ġəmə dəst-gīr idim
Yəʻqūbvəş ki beyt-i ḥəzīndə əsīr idim
Āḫır ḥużūr-ı Yūsif-i Kənʻānə gəlmişəm

4. Əz-bəs ki dərd ü möḥnət-i dünyā-yı pür-fitən
Cəmʻ etmiş idi üstümə hər yerdə [var] miḥən
Çeşmimdə ḫārə dönmüş idi gülşən-i çəmən
Bī-məʻrīfət cəmāʻət əlində bī-tən-i mən
Ṣan kāfir idim imdicə imānə gəlmişəm

5. Yār-ı diyārdan keçüb āvārə olmuşam
Çərḫün əlində ʻāciz ü bī-çārə olmuşam
Āḫır nəfəsdə baḫ nə güni qarə olmuşam
Yoḫ bir mədāḫilim belə bī-kārə olmuşam
Əl-qiṣṣə çərḫ əlindən mən cānə gəlmişəm

6. Bir yerdəəm təfāvüti yoḫ ṭūṭī vü ġurāb
Bilməz nədür cəhāndə günāh ilə yā s̱avāb
Ḥikmət sözin bürūz eləsən yoḫ onə cəvāb
Bir ṣərf anlamaz deyəsən gündə yüz kitāb
İmdi qaçub bu mənbəʻ-i ʻürfānə gəlmişəm

[1] 72a

7. Ölməkdən özgə yoẖdı bu dərdün ṭəbābəti
Pīrānəsər tapandə kişi çün fuqārəti
Bī-ẖeyr ü bī-nəvā dəẖi durmaqə ṭāqəti
Belə ḥəyātə var ölümün çoẖ şərāqəti (?)
Pəs nişə mən bu ʻāləm ü imkānə gəlmişəm

8. Dünyānı fikr edəndə gedir məgər ẕü`l-cəlāl
Tər eyləsön ḥarāmı tapulmır dəẖi ḥəlāl
Dünyā dutanda arturu rəzīlə həm vəbāl
Ḥəqqi ẖəyālə salmaqə qalmır dəẖi məcāl
Yoẖ fikr edən ki nişə bu dövrānə gəlmişəm

9. Tər olmamışdı ẖüşk-ləbim bir şərāb ilə
Ləb təşnə vəqtlər keçürürdük şərāb ilə
Bī-cinslərlə həm-dəm ü ṭūṭī ġurāb ilə
Dūzəẖ içində qalmış idim yüz ʻəz[ā]b ilə
Ḥālā behiştə rövże-i riżvānə gəlmişəm

10. Bir əhl-i ʻelm yoẖ sūzə-rūḥə ṣəfā verə
Nə əhl-i şeʻr söhbəti dəhən dəgə verə
Nə ʻārifi ki sāğərə bəẕl ü ʻəṭā verə
Żūʾī eyləmə ...li saña verə
Āẖır nəfəsdə mənbəʻ-i ʻürfānə gəlmişəm

4[1]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Qurban olum ol nərgis-i fəttānə ʻƏleykān
Ḫəm ẖəm tökülən zülf-i pərīşānə ʻƏleykān

Ey ʻāriżi məh zülfi siyəh qāməti ʻərʻər
Təlẖ oldı ləbün rəşki ilə bādə-i əḥmər
Belə ki səni ẖəlq eləyüb Ḫāliq-i dāvər
Gər görsə yüzün min yüz zāhid-müżtər
Mən kāfirəm ār edə ġılmānə ʻƏleykān

2. Ey dil-bər-i məh-rūy u büt-i ẖˇoş-ẖəṭṭ ü ẖālım
Şimşād-qədd ü lālə-ẖad u māh-cəmālım
Çoẖ etmə mən-i zārə sitəm ṭürfə-ġəzālım
Qoyma keçə hicrində ġəm ü dərd ilə ḥālım
Öldür məni məḥsūb elə qurbānə ʻƏleykān

3. Zülfündədi məd-ġəm gözəlim möʻcüz-i Mūsā
Mużmərdi ləbündə dəẖi eʻcāz-ı Məsīḥā
Ḫəṭṭündən olub ʻāləm ara Ḫıżr hüveydā
İncīlə qəsəm etdi məni āẖırı rüsvā
Zülfün saluban rəẖnələr īmānə ʻƏleykān

4. Yüz nāfə-i Çīn gīsū-yı pür-çīniñə ṣədqə
Kīn eyləmə ey şūẖ olum kīniñə sədqə
Min müşk-i Ḫıṭā kākül-i müşkīniñə sədqə
Cānım dəẖi ey gül ləb-i şīrīniñə sədqə
Bīmār tənim nərgis-i məstānə ʻƏleykān

5. Bu şəhrdə var gərçi həzārān büt-i zībā
Dil-cūy-ı pərī-rūy mələk-ṭəlʻət ü rəʻnā
Gər kim enə firdövs-i bərīndən yerə ḥavrā
Mānənd olə bilməz saña ey şūẖ-ı dil-ārā

---
[1] 170b

Heyhāt sənün tək gələ dövrānə ʻƏleykān

6. Ruẖsārıvə ol gün ki gözim qıldı nəẓārə
Ləʻlün həvəsi saldı dil ü cānə şərārə
Vəṣlünlə elə gəl mən-i dil-ẖəstəyə çārə
Etmək diləsön gər günimi cövrlə qarə
Bir şānə çək ol zülf-i pərīşānə ʻƏleykān

7. Desəm nə rəvā gözlərün nərgis-i bīmār
Zülfñə nə lā`iq söləsəm nāfə-i Tātār
Żū`ī kimi oldum ġəm-i eşqündə giriftār
Zülfün həvəsi eylədi təsbīḥimi zünnār
Döndürdi məni āẖırı şıʻānə ʻƏleykān

5[1]

feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

Müẖəmməs Fī-Təʻrīf-i Məktəb

1. Ey ʻəzīzān-ı cəhān məʻdən-i cāndur məktəb
Bədən-i mürdə içün rūḥ-ı rəvāndur məktəb
Səbəb-i mərtəbə vü şövkət ü şāndur məktəb
Yāẖşı diqqət eləsön bāğ-ı cināndur məktəb
Əlḥəq insān olanə niṭq ü bəyāndur məktəb

2. Hər kəsün olmasə gər ʻelmi yəqīn əʻmādur
Çünki هل يستوى[2] Qur`āndə bunə īmāndur
Ṣūrəti olsə də insān özi līk ədnādur
Ölüdür bāṭini ẓāhirdə əgər əḥyādur
Bədən-i mürdə içün rūḥ-ı rəvāndur məktəb

3. Olsə şəh-zādə kişi bilməsə gər ʻelm ü bəyān
Ḫəlq sölər ki filānkəsdi nə kevdən nā-dān
Dövləti ḥörməti ʻelm ilə tapubdur insān
Çoẖ gədā-zādə gəlüb ʻelm ilə olmuş sulṭān
Səbəb-i mərtəbə vü şövkət ü şāndur məktəb

4. Kişi beş dil bilə gər ondə təmām ādəmdür
Oẖuyub yazmasə hər şey`dən o kimsə kəmdür
ʻElm ṣāḥiblərinün ẖāṭiri cām-ı Cəmdür
ʻĀlimün ʻizzətinə baẖ ki nə ẖ̌oş ʻāləmdür
Yāẖşı diqqət eləsön bāğ-ı cināndur məktəb

5. Dil bilən kimsə ilə bilməyənə eylə nəẓər
Ṣūrəti olsə də ādəm ḥeyivāndan bədtər
Çünki bilməz nə təvārīẖ nə āyāt u ẖəbər
Kişiyə dərsdi Żū`ī bu cəhān içrə hünər
Əl-ḥəq insān olanə niṭq ü bəyāndur məktəb

---

[1] 171a
[2] Zümer suresi, 9. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=39&ayet=9

[TAHMİSLER]

1[1]

mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Nə qaldı dəhrdə kim çəkmədiyim dərd ü bəlālardan
Yetüşdim cānə āẖır möḥnət ü cövr ü cəfālardan
Nə ḥāṣil eyləmək ġəflət mənim tək mübtəlālardan
Kərəm qıl kəsmə sāqī iltifātun bī-nəvālardan
Əlündən gəldügi ẖeyri dirīğ etmə gədālardan

2. Nə bəzm-i 'işrət içrə dil-bər-i ḥūrī-liqāmız yoẖ
Nə mülk-i ġürbət içrə bir ənīs-i dil-güşāmız yoẖ
Ṣəbā səndən səvā bir kimsəyə bi`llāh ricāmız yoẖ
Əsīr-i ġürbətüz biz səndən özgə āşnāmız yoẖ
Ayağun kəsmə başunçün bizim möḥnət-sərālardan

3. Kimün yā Rəb dönübdür mən kimi 'āləmdə iqbālı
Olubdur ārzū cāmı şərāb-ı vəṣldən ẖālī
Pəyām-ı yārə sən Tarı dəẖi az eylə ihmālı
Ṣəbā kūyundə dildārun nədür üftādələr ḥālı
Bizim yerdən gəlürsən bir ẖəbər ver āşnālardan

4. Mürūr-ı dəhr ilə sındırmasə tā çərẖ mīnāsın
Təṣəvvür eyləmə kim tərk edim sāğər təmənnāsın
Gözimdən salmışam bi`llāh bāğ-ı ẖüld-i ḥavrāsın
Demə zāhid ki tərk et sīm-bər-bütlər təmāşāsın
Bəni kim qurtarur Təñri sataşdurmuş bəlālardan

5. Yəqīn budur āẖır dūr olub mehr ü vəfā zā`il
Bu həm bir ẓülmdür kim yār olur 'uşşāqdan ġāfil
Nədən sölə görək ey bī-nəvā ümmīd olur ḥāṣil
Fələk dūr mehri zā`il yār ġāfil 'ömr müstə'cil
Nədür tədbīr bilmən cānə yetdim bī-vəfālardan

6. Köñül mülkündə bundan sora ondan ġeyri şāh etmən
Dutə gər ḥūr u ġılmān 'āləmi bi`llāh nigāh etmən
Cəhānı çeşmimə Żū`ī ṣifət hər gün siyāh etmən
Vücūdım ney kimi sūrāẖ sūrāẖ olsə āh etmən
Məḥəbbətdən dəm urduq içməmək olmaz bəlālardan

2[2]

mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Ənīs ol büt-i Növşād gördügün köñlüm
Qərīn māh-ı pərī-zād gördügün köñlüm
Həmīşə vüṣlətə mu'tād gördügün köñlüm
Tutuşdı ġəm odınə şād gördügün köñlüm
Müqəyyəd oldı ol āzād gördügün köñlüm

2. Gözün fədāsı gətür sāqī cām-ı bādə-i nāb
Ki qoymayub tən ü cāndə ẖumār-ı hicrān tāb
Ze-bəs aẖıtdı gözimdən bəlālarun seyl-āb
Diyār-ı hicrdə seyl-i sitəmdən oldı ẖarāb
Fəżā-yı vəṣldə ābād gördügün köñlüm

3. Nə yaẖşı günlər idi ol nə yaẖşı müddət idi

---

[1] 105a
[2] 106a

Ki şuğlimiz o pərī-rūy ilə məḥəbbət idi
Nə dildə bir ġəm-i hicrān nə küdūrət idi
Dögüldi belə dəmən də bir əhl-i ʻişrət idi
Bu qanlar içməgə muʻtād gördügün köñlüm

4. Köñül ki eylər idi lāf ʻāqil olduqunı
Yəqīn eyləmişəm imdi ğāfil olduqunı
Fənāyə verdi firāqunlə ḥāṣil olduqunı
Gətürdi ʻəcz görüb ʻeşq-i müşkil olduqunı
Qamu hünərlərə ustād gördügün köñlüm

5. Edübdi dām-ı bəlādə fələk məni pā-bəst
Olubdı şīşə-i dil səng-i möḥnət ilə şikəst
Dögül ʻəbəs ġəm-i hicründə olduqum sər-məst
Nə gördi bādədə bilmən ki oldı bādə-pərəst
Mürīd-i məşrəb-i zühhād gördügün köñlüm

6. Nə gündi kim eləməz çərḫ-i dūn məni məğmūm
Qılub o māh vüṣālından ʻāqibət məḥrūm
Ze-bəs ki ḫayl-ı bəlā qıldı Żū`ī üstə hücūm
Füżūli eylədi āhəng-i ʻeyş-ḫānə-i Rūm
Əsīr-i möḥnət-i Bağdād gördügün köñlüm

3[1]

fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Küfr-i zülfün ʻāşiqə ey şūḫ īmān istəməz
ʻĀriżun müştāqı ey gül bāğ-ı riżvān istəməz
Gözlərün bīmārı ey məh ṣəḥḥət-i cān istəməz
Təşnə-i cām-ı vüṣālun āb-ı ḥeyvān istəməz
Mā`il-i mūr-ı ḫəṭün mülk-i Süleymān istəməz

2. Nəqş edübdür ḥūrdən əʻlā səni ṣūrətgərün
Əḥsən-i təqvīm ilə olmuş mürəkkəb peykərün
Qədəmin[2] ṭūbādı kūyun ḫüld Kövs̱ər ləblərün
Eyləməz meyl-i behişt üftādə-i ḫāk-i dərün
Sākin-i künc-i ġəmün seyr-i gülüstān istəməz

3. Dəm-bə-dəm Fərhād Şīrīn-ləblərindən qan yeyüb
Qeys Leylā ṭürrəsi yādilə bəs qarə geyüb
Hansı dil-bərdür ki öz ʻuşşāqınə cövr etməyüb
Cövrdən āh etmə ey ʻāşiq yaḫar köñlüm deyüb
Hīç sulṭānım deyən mülkini vīrān istəməz

4. Mehr ilə dövr etmədi hərgīz bu çərḫ-i bī-ḥəyā
Żū`ī-i dil-ḫəstəyə göstərmədi ẕərrə vəfā
ʻĀdəti əhl-i kəmālə dāim etməkdür cəfā
Ey Füżūlī müttəṣil dövrān müḫālifdür baña
Ġalibā ərbāb-ı isteʻdādı dövrān istəməz

---

[1] 106b
[2] qədəmin: çün qədəmin

[TERCĪ-İ BEND]

1[1]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

Tərcī'-i Bənd Dər-Midḥat-ı 'Ālī-Cāh Böyük Ḫān Nəbirə-i Muṣṭafa Ḫān-ı Şīrvān 'Əleyhi`r-Rəḥmətə Və`l-Ğufrān

1. Ey kərəm kānı böyük ḫān mən-i sər-gərdānun
'Ərżinə gūş elə əlṭāflə bu nālānun

Çārə qıl məṭləbinə bu cigəri sūzānun
'Ərż edim ḫidmətivə tā rəvişin dünyānun

İmdi bildim ki hünər dəhrdə ancaq zər imiş
Mə'rifət əhli cəhān çeşminə ḫākistər imiş

Milyaner Tarıdı yüzminni də peyğən-bər imiş
Olmasə pūlı Fəlāṭūn isə derlər ḫər imiş

2. Əlli il kəsb-i 'ulūm etməgə qıldım iqdām
Şād olurdım ki 'əcəb yaḫşı hünərdür bu məqām

Demə məḫlūq yanındə qoyulub tāzə niẓām
Pūldan ġeyri nə iş var isə məcmū'-ı ḥarām

İmdi bildim ki hünər dəhrdə ancaq zər imiş
Mə'rifət əhli cəhān çeşminə ḫākistər imiş

Milyaner Tarıdı yüzminni də peyğən-bər imiş
Olmasə pūlı Fəlāṭūn isə derlər ḫər imiş

3. Gər hünər kəsbi içün əlli il dil-ḫūn oləsən
Arturub fəżl ü hünər 'elmdə ceyḥūn oləsən

Gər pirisajni[2] vəkillər böyügü şovn (?) oləsən
Kimsə qədr etməyəcək gərçi Fəlāṭūn oləsən

İmdi bildim ki hünər dəhrdə ancaq zər imiş
Mə'rifət əhli cəhān çeşminə ḫākistər imiş

Milyaner Tarıdı yüzminni də peyğən-bər imiş
Olmasə pūlı Fəlāṭūn isə derlər ḫər imiş

Vələhu Eyżən

4. Hər kəsün cüz`ī savādı olə həm tən-ḫᵛāhı
Mülk-i 'elmün sölənür kim odı şāhənşāhı

Olmasə pūlı əgər olsə də 'elmu`llāhı
Ḫəlq sölər ki qovun getsün elə kəm-rāhı

Vələhu Eyżən

5. Līk ṣəd-ḥeyf ki pis vəqtə ḫəbərdāram mən
Qocalub 'ömr gedüb żə'f tapub quvvət-i tən

---

[1] 21b; 60b
[2] Rusça kelime olup, jüri üyesi demek.

Əl ayaġ göz düşüb əldən dəẖi dişsizdi dəhən
Qorẖuram kim dəm-i āẖırdə tapulmayə kəfən

Vəlahu Eyżən

6. Çünki lāzımdı dedim gərçi dögüldür lā`iq
Kimdi hər ‘elmdə göstər baña olsun fā`iq

Tərk edüb mə‘rifəti pūlə olublar şā`iq
Nə gərək ‘elm ẖəlā`iq pūlə sölər Ḫāliq

Vəlahu Eyżən

7. Gər deyəm dərdimi dövlətlü olan bī-ẖəbərə
Bāb-ı ḥikmət açuban şərḥ eləyim min fiqrə

Yüz qəṣīdə deyübən vāqif edim nüktələrə
Bir qəpik qədri o əş‘ārı gətürməz nəẓərə

Vəlahu Eyżən

8. Səndən özgə kimə mən şərḥ eləsəm əḥvālı
Deyəcəkdür haradan gətdi bu qīl ü qālı

‘Ālim u ‘ārif ü şā‘ir qurı söz tims̱ālı
Vāy o şəẖṣə ki cibi pūldan olsun ẖālī

Vəlahu Eyżən

9. Sərvərā qoymə qalam bī-sər u sāmān nə zār
Kīsə bī-sikkə bərudūşim (?) bī-cübbə vü ẖᵛār

Ġəm ləkəd kūbi (?) cəfā tāpdaqı bu Zū`i-i zār
Ehtiyāc anləsalar nifrət edüb hamı qaçar

[MÜSEDDESLER]

1[1]
mefʿūlü / fāʿilātü / mefāʿīlü / fāʿilün

1. Ḫ̌oş ol zəmān ki yār baña həm-ayaġ idi
Ruḫsārı gözlərimə münəvvər çırāġ idi
Şīrīn-kəlāmı ḫāṭir-i fərmādə dāğ idi
Fəṣl-i bəhār məskənimiz ṭərf-i bāğ idi
Cövr-i rəqīb ṣöhbətimizdən iraġ idi
Günlər o günlər idi dimāğ ol dimāğ idi

2. Nə var idi köñüldə ġəm ü dərd-i rūzgār
Nə var u yoḫ küdūrəti olmazdı āşikār
Gəlməzdi hīç ḫāṭirə əndūh-ı hicr-i yār
Bilməzdi dil bu növʿ ilə dərd-i firāq var
Məndən bəlā vü möḥnət-i hicrān uzaġ idi
Günlər o günlər idi dimāğ ol dimāğ idi

3. Hər gün keçirdi ʿişrət ilə rūzgārımız
Dil şād-kām u əldə mey-i ḫ̌oş-güvārımız
Fəṣl-i ḫəzān olubdı bizim növ-bəhārımız
Bülbüllərün fəğānı idi çəng ü tārımız
Nə gūşımə kədər gətürən ṣavt-ı zāğ idi
Günlər o günlər idi dimāğ ol dimāğ idi

4. ʿÖmrün ṣəfā-yı mövsümi vəqt-i şəbābdur
Vəqt-i şəbāb əfżəl-i məst-i şərābdur
Dəmlər ki ol zəmān keçinüb yāḫşı ḫ̌ābdur
Ey cān bu günlərün nəyə sölə hesābdur
Yād ol zəmān ki qara gecəm gün tək ağ idi
Günlər o günlər idi dimāğ ol dimāğ idi

5. Yā Rəbb olur mu bir də görəm ol zəmānəni
ʿEyş ü nəşāṭ u ṣöḥbət-i çəng ü çəġānəni
Ḫālından əḫz edirdi köñül mürği dānəni
Ol gül üzündə ṭürrə-i ṭərrārə şānəni
Żūʾī bilür ki ḥāl o dəm nə səyāğ idi
Günlər o günlər idi dimāğ ol dimāğ idi

2[2]
Feʿilātün / feʿilātün / feʿilātün / feʿilün
Mefāʿilün / feʿilātün / mefāʿilün / feʿilün

1. Kül başım üzrə bu dəm ey şəh-i əbrār ölürəm
Qaldı köñlimdə nihān cümlə-i əsrār ölürəm

Dəm-i vədāʿdı gəl qoymə intiẓār məni
Vədāʿ-ı bāz-pəsīn qoymə əşkbār məni

2. Çəkmişəm hər nə ġəm ü möḥnəti[3] var ʿāləmdə
Qalmışam şām u səḥər şīvən ilə mātəmdə
Biz kimi var mı bəlākeş bu bənī ādəmdə
Yetüşübdür dəm-i riḥlət mən-i bīmār ölürəm
Hücūm-ı dərd ü bəlā keştī-i ḥəyātımdan
Bu bəḥr-i möḥnət ü ġəmdən qılur kənārə məni

[1] 81a
[2] 172b
[3] möḥnəti: möḥnət

3. Atamun firqəti gərçi məni əfkār elədi
Ẓülm-i ‘udvān mən-i möẖnətzədəni zār elədi
Fərək əḥvāl-i mən-i müżṭəri bīmār elədi
O cəfānı ki bana eylədi əğyār ölürəm
Atam rəsûl-i H̱udādən ṣora nifāq əhli
Nə növ‘ eylədilər gör ki tārmār məni

4. Fānī dünyādan Əgərçi belə nālān gedürəm
Bī-vəfā ümmət əlindən cigəri qan gedürəm
Çəkdigüm cövr ü cəfādan nə pərīşān gedürəm
Līk bir tāzə bəlā var görübən zār ölürəm
Babam firāqını düşmən cəfāsını çəkdim
Bir özgə ġüṣṣə var oldur qılan fikār məni

5. Nə müsībət var isə eylədi çərẖ-i ġəddār
Ṣəbr qıldım nə bəlā oldı əgər cümlə dūçār
Bu Ḥüseynə eləyən ẓülmi o qövm-i əşrār
Bir onə eyləməyüb tāb mən-i zār ölürəm
Yetüşdi hər nə bəlā vü müşībət etdim ṣəbr
Vəlīk qıldı Ḥüseyn dərdi dāğdār məni

6. Ənbiyā firqəsinə hər nə gəlüb dərd ü bəlā
Bu müşəẖẖəsdi Ḥüseynə dögi kimsə həmtā
Bu bəlā vāqi‘əsin s̱ābit edir Kərb-i bəlā
O səbəbdən çəkübən āh-ı şərərbār ölürəm
Həmīşə eyləgilən Żū`ī ẕikr-i āl-i ‘əbā
Cəzādə qoyməyəlar tā ki şərm-sār məni

[MURABBA]

1[1]

fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Müjdə olsun kim gəlüb dünyāyə Nov-rūz bayramı
Fərş-i istəbrəq salub şəḥrāyə Nov-rūz bayramı
Şūr-ı bəhcət bülbül-i şeydāyə Nov-rūz bayramı
Oẖşayur çün cənnətü`l-məvāyə Nov-rūz bayramı

2. Səbzlər güllər çəmənlər geyünübdür tāzədən
Zīb-i zīnətlər verüb ruẖsārə rəng-i ġönçədən
Çıẖmış idi möẖnət-i fəṣl-i şitā əndāzədən
Şükrlər kim saldı başə sāyə Nov-rūz bayramı

3. Səbzlər şəḥrādə gör kim necə sündüs-pūş olub
Hər ṭərəfdə ʻāşiq ü məʻşūq həm-āğūş olub
Gülsitānlar içrə hər yan bāng-ı nūş-ā-nūş olub
ʻEyş edən ʻuşşāq içün bir ġāyə Nov-rūz bayramı

4. Cūş edüb yerdən çıẖub nəsrīn sūsən nəstərən
Seyr-i gülizār elər yüz nāzənīn-i gül-bədən
Şükr qıl Allāhə kim çıẖduq bəhārə saq əsən
Çünki cənnətdür qədəḥ-peymāyə Nov-rūz bayramı

5. Żū`iyā aç gözlərün bir ṣəfḥə-i gülzārə baẖ
Āyə-i جنّات تجرى تحتها الانهاره[2] baẖ
Ḥikmətu`llāhə nəẓər qıl məẓhər-i əsrārə baẖ
Ḫəlʻət-i gül-gūn geyüb əʻżāyə Nov-rūz bayramı

---

[1] 136a

[2] Muhammed suresi, 12. ayet. Erişim: 6 Nisan 2019. http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=47&ayet=12

[GAZELLER]

Ḫarfü`l-Elif

1[1]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

(Der-Kenār)

Fī-Lüġatü`n-Nebī

1. Ey risālət mülkünə sulṭān ẕu`l-'izz u 'əlā
Ənbiyā-yı övliyāyə müqtədā vü pīşvā

2. Sənsən ol sərvər ki ẕāt-ı pākun olmuşdur əzəl
'İllət-i gā`iyyə mövcūdāt u ḫəlq-i mā-sivā

3. Ḥəq qəsəmlə sūrə-i یاسینdə iżhār eyləyüb
Şānuvı ey məḥrəm-i əsrār-ı sirr-i yā vü sā

4. Żū`ī-i bī-çārə kim cāndan ġulāmındur sənün
Sər-bülənd eylə şəfā'ətlə onı rūz-ı cəzā

2[2]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

(Der-Kenār)

1. Ey risālət mülkünə rūz-ı əzəlden pādşā
Rīzə-ḫᵛār-ı ḫᵛān 'elmündür şəfī'-i ənbiyā

2. Çün vücūdun 'illət-i gā`iyyə-mövcūdātdur
Cövhər-i ẕātu içün olmuşdur 'ərż-i ərż səmā

3. Ḥəqq səni ḫəlq eyləyübdür رحمتا للعالمين[3]
Şāfī'-i 'üṣyān əhl-i mə'ṣiyət rūz-ı cəzā

4. 'Āləmə mə'lūm olubdur qoydıqun ədəb-i dīn
Hīç bir mürsəl nəbīdə yoḫdı belə ihtidā

5. Qıl şəfā'ət Żū`ī-i miskīnə şāhım ḥəşrdə
Bir ġulām-ı rū-siyəhdür ṣidq-dildən çün saña

3[4]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Qəd iżā'ət şəms-i vəḥdət min ġəmāmü`l-iḫtifā
Kənz-i məḫfī nūr-ı 'ürfān ilə tapdı incilā

2. Feyż-i əḥbəbtə ليعرف[5] bā'iṡ-i īcād olub
Dəst-i qüdrət ḫilqət-i əşyāyə qıldı ibtidā

---

[1] 2b
[2] 1b
[3] Enbiya suresi, 107. ayet. Erişim: 7 Temmuz 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=21&ayet=107
[4] 1b
[5] Hadis-i şerif: "Ben gizli hazine idim; bilinmek/tanınmak istedim."

3. ما خلقت الجنّ و الانس ليعرف[1] āyətin
Gūş-ı cānə şübḥ ü şām eylər münādīlər nidā

4. ʻĀmilān-ı pādşāh-ı ḫittə-i ərż u səmā
Məʻrifətdən başqə qılmaz bir mətāʻə eʻtinā

5. Mümkināt īcād olub ʻārif-i be-ḥəq olmaqə
Məʻrifətdür bāʻiṣ-i īcād-ı küll-i mā-sivā

6. Bārgāh-ı ʻizzətə feyz-i təqərrüb tapdılar
Mā-sivādan nūr-ı ʻürfān ilə fövc-i ənbiyā

7. Baḫmə dünyā mālınə kəsb et ḥəyāt-ı cāvidān
Cəhl ü ʻürfāndur ḥəyāt-ı mövtün əṣli Żū`iyā

4[2]
mefʻûlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Hər bəzmdə ki bādə-i ḥəmrādan olmasa
Nəql ü məzə o ləʻl-i şəkər-ḫādan olmasa

2. Āb-ı ḥəyāt olsə də tər qılmanam ləbim
Cāmımdə sāqiyā mey-i ṣəḥbādan olmasa

3. Zāhid nə ẕövq-yāb olı ḥūr-ı behiştdən
Bir şūḫə mən tək ʻāşiq-i şeydādan olmasa

4. Getməz ṭəvāf-ı Kəʻbəyə rindān-ı meykədə
Eḥrām-ı ḥəcci pənbə-i mīnādan olmasa

5. Zāhid qəbūl olur o itāʻət ḥużūrdə
Żimnində ẕərrə qədri təmənnādan olmasa

6. Ḥəqqün ʻibādəti o iṭāʻət olur ki ḥīç
Mənẓūr evində cənnət-i ḥavrādan olmasa

7. Zū`ī rıżā-yı Ḥəqqə olur ṣāf bəndəlik
Olmaz qəbūl ġeyrə təbərrādan olmasa

5[3]
mefʻûlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Ey cān bu qədri möḥnət-i hicrānə ağlama
Çəkmə bu ġüṣṣə vü ġəmi bī-cānə ağlama

2. Ṣəbr eylə hər nə cövr gələ rūzgārdən
Vəqtün cəhənnəm etmə yanə yanə ağlama

3. Təğyir-i iḫtiyārı çü yoḫdur qəżā içün
Təqdīrə rāżı ol ġəm-i dövrānə ağlama

4. Əlbəttə vəqtlən çatəcaq müjdə-i bəşīr
Yəʻqūbvār Yūsif-i Kənʻānə ağlama

5. Bir şey` bu giryəzārdən olmaz kəm ü ziyād
Bī-hūdə olmə gəl belə dīvānə ağlama

[1] Zariyat suresi, 56. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=51&ayet=56
[2] 1b; 173b
[3] 1b; 85b

6. Əlbəttə hər ẖəzān olanun bir bəhārı var
Ṣəbr eylə ey köñül ġəm-i dövrānə ağlama

7. Cövr-i zəmānə möḣnət-i ġürbət firāq-ı yār
Żū`ī deməkcəfādı bu tuğyānə ağlama

6[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Yalquz bəhārdan nə çıẖar sāğər olmasa
Sāğər içində bādə-i cān-pərvər olmasa

2. Bunlar təmāmı olsə də bī-żövq olur əgər
Cīb ü bəğəldə sikkə-i sīm ü zər olmasa

3. Şūr-ı cünūn-ı 'eşq haçan başdə cūş edər
Cām-ı şərābdan ləb-i `āşiqə tər olmasa

4. Ṣəfrā-yı ġüṣṣəni sər ü sīmāsı göstərür
Cāmındə 'ārifün ki mey-i əḥmər olmasa

5. Zū`īdən eyləmə ṭələb əş'ār-ı dil-nişīn
Ḥəllāl-i müşkilāt olan zərgər olmasa

7[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Köñül gər istər isön istirāḥət-i dünyā
Şərāb-ı nābdədür cümlə rāḥət-i dünyā

2. Nə qədri çoẖ olə çoẖdur yəqīn bil āzārı
Riyāsət ü 'əməl ü ḥökm ü dövlət ü dünyā

3. Yā şūr-ı 'eşq ilə dīvānə ol ələm çəkmə
Yā məst-i bādə olub bilmə möhnət-i dünyā

4. Təmām 'əqldədür hər nə var möhnət ü ġəm
Nə qədr çoẖ olə çoẖ olı ẕillət-i dünyā

5. Hanı Sikəndər ü Cəm hanı dövlət-i Qārūn
Təṣəvvür eylə nədür baẖ bu şövkət-i dünyā

6. H̱ˇoşā o kimsələrə adı yaẖşılıqlə qalub
Görüb ḥəyat u məmātındə ləẕẕət-i dünyā

7. Yezīd tək adı məl'ūn özi cəhənnəmdə
Nə fā`idə elə olsə ḥökūmət-i dünyā

8. H̱ˇoşā o şəẖṣə ki Nūşirəvān-ı 'ādil tək
Həmīşə rəḥmət oẖuyə təmāmət-i dünyā

9. Gözətlə āẖirətün Żū`ī etməsün məğbūn
Səni bu bādə vü sādə bu ne'mət-i dünyā

8[3]

---

[1] 2a; 119b
[2] 2a; 119a
[3] 2b; 127a

mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Nə şey`də var cəhāndə ʻişrət ey dil cāmdan başqa
Təmām əşyādə var ġəm bir mey-i gül-fāmdan başqa

2. Sənünçün dānədür dünyādəki ləẕẕətlər ey ġāfil
Dürüst etsön nəẓər żımnində yoḫdur dāmdan başqa

3. Cəhāndə sīm ü zər cəmʻ eyləyüb ʻömrün tələf qılmə
Nə ẕövqi sīmün ey dil yār-ı sīm-əndāmdan başqa

4. Ḫˇoş ol kəs ḥālınə kim ḫeyrdə ḫərc eyləyüb getdi
Cəhāndə qoymadı Nūşīrəvān tək nāmdan başqa

5. Cəhānı hər ṭərəfdən diqqət ilə gəzdim aḫtardum
Tapulmaz Zū`ī bir kəs ʻām-ı kə`l-ʻāmdan başqa

9[1]

mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Köñül bu ʻəṣrdə ʻəhd ü vəfānı aḫtarma
Ṣədāqət ilə olan āşnānı aḫtarma

2. Özi yoḫ adı var ʻinqād-ı fəżl ü cūd u səḫā
ʻƏbəs yerə dolanub kīmyānı aḫtarma

3. Qəżādan olmısan ʻāləmdə sən özün mövcūd
Bu rəmzi bil dəḫi sirr-i qəżānı aḫtarma

4. Nə yazdı kātib-i təqdīr yoḫ onə təğyīr
Həvāyə düşmə belə mā-cərānı aḫtarma

5. Müṣəvvirün kəm ü keyfin bilür mi bir ṣūrət
Bu vāżeh əmrdi kār-ı nihānı aḫtarma

6. Çü kimsə bilmədi Ḫāliq irādəsin hərgiz
Sən imdi bī-hūdə çün ü çerānı aḫtarma

7. Ġərəż ki ṣəbr elə Żū`ī nə gəlsə dərd ü bəlā
Bu əmr-i Ḥəqqdi ḥökm-i Ḫudānı aḫtarma

10[2]

mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Ḫˇoşā o ʻāşiqə kim yārınun vəfāsı ola
Nə rəşk-əsīri nə hicrān-mübtəlāsı ola

2. Firāq-ı möḥnəti Ḫəm qılsə qāmətin nə ʻəcəb
Əlində ṭürrə-i dildārdan ʻəṣāsı ola

3. Mənim tək olmayə ṣəd pārə tīğ-i ḥəsrət ilə
Cirāhət-i dilinə yārdan dəvāsı ola

4. Demün ḫəṭāludur ol çīn-i zülfə çīnlüyün
Ki muncə üz verilür mi əgər ḫəṭāsı ola

5. Nə meydə żövq nə gülşəndə var ṣəfā Żū`iyā

---

[1] 2b; 136b
[2] 3a; 53a; 97a

O lālə-rūsız inānmam ki bir ṣəfāsı ola

11[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. L'əl-i ġəmində ṭürrə-i pərtābə ilticā
Etmək nə sūd elə mey-i ol nābə ilticā

2. Qaşun ẖəyālı zāhidi gər etməyüb cünūn
Dutmuş yüzin edər niyə meḥrābə ilticā

3. Lüṭf etməsün baña nə 'əcəb rəḥm eyləməz
Yüz gūsfənd əgər edə qəṣṣabə ilticā

4. Gördükdə ilticā edərəm kūyun itlərin
Əḥbāblər bəlī edər əḥbābə ilticā

5. Mihr-i ruẖun həvāsı ilə Żū`ī-i fikār
Gündüz günə qılur gecə meh-tābə ilticā

12[2]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Oldı pəjmürdə köñül tā düşdi ol rūdan cüdā
Adı māhir-fövt olur gər kim düşə sūdan cüdā

2. Ḫəm-qədīm bir çəng olub cān-riştəsi ol çəngə tār
Tā ki oldım mən żə'īf ol tār-ı gīsūdan cüdā

3. Çeşm-i pür-ẖūnum mənim ṭūfānə verdi 'āləmi
Bəs ki tökdi qanlu yaş ol sərv-i dil-cūdan cüdā

4. Lüṭf edüb bir tīr-i ġəmzə birlə al gəl cānımı
Pāyə dönmüş qāmətim ol ṭāq-ı əbrūndan cüdā

5. Bəs ki Żū`ī ẖū dutub köñlüm ġəm-i hicrān ilə
Olmayur bir ləḥẓə ġəmdən ayru qaygudan cüdā

13[3]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Yoẖdı cānı hər kimün köñlündə cānān olmasa
Çün cəmādə bənzəyir hər yerdə kim cān olmasa

2. Dutdı zülfün bāğ-ı ḥüsnün görmədim ruẖsārıvı
Ḫülddən Ādəm kənār olmazdı şeyṭān olmasa

3. Ḫ̌oşdı 'uşşāqə təmāşā-yı gül-i rūyun əgər
Yüz min ay u il keçüb fəṣl-i gülüstān olmasa

4. Mürdə cismin 'āşiqün qılmazdun əḥyā hər nəfəs
Mö'cüz-i 'Īsā əgər lə'lündə pünhān olmasa

5. Lə'lün 'eşqi olmasaydı məndə etməzdün cəfā
Çün küdūrət məḥv olur gər aradə qan olmasa

---

[1] 3a; 102b
[2] 3b; 103b
[3] 3b; 54b; 111a

6. Nālə qılmə hicrdən ey dil ki ne‘mətdür bu həm
Kim bilürdi vəṣl ẕövqin dərd-i hicrān olmasa

7. ‘Ārif ü ‘āşiqdən özgə Żū`iyā bir kimsənə
Eyləməzlərdi ‘ibādət ḥūr u ġılmān olmasa

14[1]
fā‘ilātün / fā‘ilātün / fā‘ilātün / fā‘ilün

1. Nə nəşāṭı məclisün gər ondə cānān olmasa
Sā`ir ə‘żānun nə sūdı təndə gər cān olmasa

2. Vüṣlətün ẕövqin ziyād eylər cəfā-yı hicr-i yār
Növ-bəhārun ẕövqi olmaz gər zimistān olmasa

3. Hər şey`ün öz żiddi ilə ḥāləti təşḫīṣ olur
Ləẕẕət-i vüṣlət olur mu dərd-i hicrān olmasa

4. Ṣūrəti insān olandan umma ey dil mə‘rifət
Mə‘rifət ḥāṣil olur mu ẕātı insān olmasa

5. Ṣəbr qıl Żū`ī pərīşān ḥālıvə şükr eylə kim
Hīç iş sāmān tapar mı tā pərīşān olmasa

Ḥarfü`l-Bā`

15[2]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

(Der-Kenār)

1. Hər dəm görim səni dönəsən qanə ey şərāb
Gətdün bu təlḫ-kāmı dəḫi cānə ey şərāb

2. Şə`nündə nāzil oldı sənün ḥörmət āyəsi
Səndəndi hər bəlā gələ insānə ey şərāb

3. Ümmü`l-ḫəbā`is oldı adun çünki salmış[3]
Bābildə ol mələkləri zindānə ey şərāb

4. Zünnār ilə salībi qəbūl etdi zühdi tərk
Sən eylədün bu işləri Ṣən‘ānə ey şərāb

5. İs̱mün ziyādə mənfə‘ətün yoḫdı olsə də
Məḫlūq tābe‘[4] āyə-i Qur`ānə ey şərāb

6. Hər qüvvə təndə nāqiṣ olur içələr səni
Bilməm nədəndi vəsf bu nöqṣānə ey şərāb

7. Hər bir məqāmə dəgə ayağun ḫarāb edir
Vāy ol kəsə ala ələ peymānə ey şərāb

8. Yüz min vücūdın eləmiş ḫānəsin ḫarāb
Āḫırdə qılmısan onı dīvānə ey şərāb

---

[1] 4a; 126b
[2] 3a
[3] Salmış: salmıs
[4] tābe‘: baḫ (d.)

9. İçdükcə ‘əql-i zā`īl olur Żū`ī anlamaz
Mundan nə ẕövq var sölə bu cānə ey şərāb

16[1]
fā‘ilātün / fā‘ilātün / fā‘ilātün / fā‘ilün

1. Tā ki mükşin zülfñə vermişsən eləmə pīç [ü] tāb
Almısan pəjmürdə köñlümdən mənim ārām u tāb

2. Rüstəm-i dil qəṣdinə çeşmün çəküb müjgān oẖın
Ṣanki tīr-əndāzlar cəm‘ eyləyüb Əfrāsiyāb

3. Ġəmzə peykānın dilər şövq-i ruẖundan cān u dil
Eylə kim gün tābişindən təşnələr istərlər āb

4. Zülf-i ruẖsārun mıdır gördükdə qıldım iştibāh
Yā ki mīzān bürcini məskən qılubdur āftāb

5. Pərtöv-i rūyun görüb nālān olur ‘āşiqlərün
Rəsmidür eylər fəğān itlər görəndə māh-tāb

6. Əşk-i çeşmim ḥörməti bī-cā dögül ey gül-‘iẕār
Bāğbān-ı dil gül-i rūyundan etmişdür gül-āb

7. Żū`iyā hər gün ‘əẕāb içrə əsīrəm neyləyüm
Görməmək yārı ‘əẕāb u ġeyr ilə görmək ‘əẕāb

17[2]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Ḥəlqə-i zülf-i siyəh ‘āriż-i gül-nārə düşüb
Lə‘ldür ṣanki dil-ihżārı içün nārə düşüb

2. Rūm-ı ruẖsāruvun əṭrāfın alub hindū-yı zülf
Āh ṣəd-āh ki nüṣrət genə küffārə düşüb

3. Yūsifim vəṣfün ‘uṭārid eləyübdür ki bugün
Zöhrə dəllālə olub müştərī bāzārə düşüb

4. Rūz u şəb birdi baña ġayd u səlāsil içərə
Mürğ-i dil tā hamısı zülf ü ruẖ-ı yārə düşüb

5. Yeyürəm ẖūn-ı cigər ḥəsrət-i lə‘lüñə məgər
Ki qəżādan baña rūzī dil-i ṣəd pārə düşüb

6. Żū`iyā qur‘a-ı qəssām əzəldən deyəsən
Dərd ü ġəm cövr ü cəfā cümlə mən-i zārə düşüb

18[3]
fā‘ilātün / fā‘ilātün / fā‘ilātün / fā‘ilün

1. Çeşm ü zülf ü ẖəṭṭ ü ẖāl u rūy-ı alun ey ḥəbīb
Aldı bəndən ‘əql ü hūş u ṣəbr ü ārām u şəkīb

2. Neyləsün ‘āşiq saña dil verməsün ey məh-liqā
Hər nigāhun cān-sitān hər nāz u ġəmzün dil-firīb

---

[1] 4a; 88b
[2] 4a; 89a
[3] 4b; 89a

3. Çeşmün etsə gər baña min cövr köñlüm inciməz
Rəsmdür bīmār edər əḥbābınə dāim ʻətīb

4. Görcəyin ruẖsāruvı ol çīn-i zülfündə dedim
Ey köñül vəhm elə kim māh ʻəqrəbə olmuş ġərīb

5. Gər səni gördükdə Żū`ī nālə eylər incimə
Rəsmdür fəryād edər gördükdə gülşən ʻəndəlīb

19[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Oldı sünbüllər ẖəcil zülf-i pərīşānun görüb
Ġönçələr qan utdılər ləʻl-i dür-əfşānun görüb

2. Nəẖl-i ṭūbā vəṣfin eylər ẖəlqə vāʻiẓ dəm-bə-dəm
Hīç utanmur bir məgər sərv-i ẖurāmānun görüb

3. Hər dəm ollam qanımə ġəlṭān tən-i məcrūḥ ilə
ʻƏrṣə-i ḥüsn içrə ey şāhım bu cövlānun görüb

4. Zəhr-i nāb eylər təṣəvvür nūş-dārū şərbətin
Kim ki ey əbrū-kəmānım zəẖm-i peykānun görüb

5. Təẖt-i ʻizzətdə olur Yūsif ṣifət āẖır ʻəzīz
Ey Züleyẖā ṣifətim kim bənd-i zindānun görüb

6. Rəşkdən ölləm qılandə sən baña bī-dādlər
Kim olur ʻāləm saña ʻāşiq bu eḥsānun görüb

7. Təẖt-i ʻizzətdən gəlür ẖ˘oş bənd-i zindānun baña
Hər kim ey Yūsifvəşim çāh-ı zənəẖdānun görüb

8. Şükrlər kim Żū`iyā ʻeşqindən ol məh-pārənün
Döndülər əhl-i cəhān çāk-ı girībānun görüb

20[2]
feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

(Der-Kenār)

1. Ḥəqq nədəndür bu qədər dərd ü ġəm insānə verüb
Hər nə var dərd ü bəlā məcməʻ-i ʻürfānə verüb

2. Ḫəlq söylər yaradub cənnəti Ḥəq ādəm içün
Bu ʻəbəs̱ sözdi Ḫudā cənnəti şeyṭānə verüb

3. Baẖıram dəhrdə hər yerdə ki var müfsid ü şər
Neʻmət ü dövlət-i dünyānı Ḫudā anə verüb

4. Dinc ü rāḥət olə hər kimsə müsəlmān odı kim
Dinc ü rāḥətliği çün ḥəqqi müsəlmānə verüb

5. ʻĀrif ü fāżil ü kāmilləri ẕillətdə qoyub
Ḥörmət ü rāḥətı hər cāhil ü nā-dānə verüb

---

[1] 4b; 89b
[2] 4a

6. Kəsdirüb ẓülm ilə Yəḥyā başını zindānda
Qüdrət ü şövkəti bir baẖ ki Herodna nə verüb

7. Ənbiyāya ʻürəfā silkinə inṣāf ilə baẖ
Ẕillət ü ġüṣṣədən özgə sölə āyā nə verüb

8. Küfrdür Żū`ī bu söz çoẖ də darıẖma nəżər et
Hər nə var isə H̱udā kāmil-i insānə verüb

21[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Şəhr-i Şirvānə genə bir sərv-qədd dil-bər gəlüb
Vəh nə dil-bər bir yüzi gül ləbləri şəkkər gəlüb

2. ʻƏzm-i Şirvān eyləyüb bir dil-bər-i şīrīn-süẖən
Dāğ-ı qəlb-i ẖəstə-i Fərhād içün şəkkər gəlüb

3. Ey ṣəbā get cānib-i Miṣrə Züleyẖāyə sölə
Kim Şəmāẖı miṣrinə bir Yūsif-i dīgər gəlüb

4. Görməgə cām-ı ləb ü āyīnə-i rüẖsārını
Qalẖızub baş qəbrdən Cəmşīd ü İskəndər gəlüb

5. Żū`iyā dövr-i məh-i ruẖsārına gīsūləri
Şanki gənc-i şāygān üstünə bir əjdər gəlüb

22[2]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Şirvānə tāzədən genə bir məh-liqā gəlüb
Vəh vəh nə məh-liqā dil-i zārə dəvā gəlüb

2. Salmış ʻiẕār-ı alınə zülf-i siyāhını
ʻĀşiq günini etməgə gūyā qara gəlüb

3. Lāzımdı kim Şəmāẖıyə el Tūr söləsün
Ondə ẓuhūrə müncə ki nūr-ı H̱udā gəlüb

4. ʻĀşiqlərün gözinə o şūẖ-ı sitəm-şiʻār
H̱āk-i rəh ilə çəkmək içün tūtiyā gəlüb

5. Rūyun ṭəvāfınə gələcək Kəʻbə vü Ṣəfā
Kūyun ziyārətinə məqām u Minā gəlüb

6. Sordum ləbi bəhāsını cāndur dedi baña
Ārī cəhāndə cānə bəhā dəẖī cān gəlüb

7. Məḥrəm gəl eylə lüṭf ilə kūyun Mināsınə
Kim cānın etməgə saña Żū`ī fədā gəlüb

23[3]
feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

1. Tā yüzün şaʻşaʻa-ı sāğər ü ṣəhbāyə düşüb
Rəşkdən ay ilə gün kūh ilə ṣəhrāyə düşüb

---

[1] 5a; 89b
[2] 5a; 90a
[3] 5b; 113b

2. Gūşə-i çeşmün ilə zülfün edər sər-kūşī
Görünür kim genə bir tāzəcə sevdāyə düşüb

3. Kəmər-i sīm belini qucmaq içün ḥəlqələnüb
Ṭama‘-ı ẖāmını gör kim nə təmənnāyə düşüb

4. Tāb-ı meydən ruẖ-ı alındə ərəq dānəsi san
‘İqd-i pərvīn qırılub gökdə ruẖ-ı ayə düşüb

5. Zülf-i müşkīn dögi ruẖsārınə həm-sāyə olan
Bāl-ı Cibrīldi ẖ^vurşīd üzinə sāyə düşüb

6. Dögi ẖ^vurşīd ü məh ey lālə-‘izārım gökdə
‘Əks-i rūyundı sənün çərẖ-i mü‘əllāyə düşüb

7. Mən də bülbül də gül ‘eşqində şərīküz līkən
Żū`iyə giryə fəğān bülbül-i şeydāyə düşüb

24[1]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Pīrānəsər köñül genə bir şūẖə bənd olub
Kim tār-ı zülf-i gərdəni cānə kəmənd olub

2. Tā çeşm-i zəẖm o ‘āriż-i köñlünə dəyməsün
Ruẖsārı ātəşinə dil ü cān sipənd olub

3. Yoẖdur təmām şəhrdə bir belə māh-rū
Bu vəchdəndi məskənim āẖırdə kənd olub

4. Tā ẖod-pəsənd idi yoẖ idi müştərī o məh
Ḫəṭṭi gəlübdi imdicə ‘āşiq-pəsənd olub

5. Yoẖ ‘eybi Ḫiżr-i ẖəṭ dutə lə‘lün kənārını
Ṭūṭī ġıẓāsı rəsmdür ‘āləmdə qənd olub

6. Beytü`l-ḥəcər ṭəvāfın edər gərçi ḥācīlər
Dil ẖālidün ziyārətinə müstəmənd olub

7. Zəhr-i ġəmünlə Żū`ī-i ciyər-ẖūndı ġönçə tək
Tā ‘āşiq o lə‘l-i ləb-i nūş-ẖənd[ə bənd] olub

25[2]
mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

1. Qaşun ẖəyālı ilə qāmətim kəmānə dönüb
Tərənnümüm dəẖi fəryād ilə fəğānə dönüb

2. Ze-bəs ki lə‘l-i ləbün fikrin eylərəm ey gül
Əlimdə cām-ı meyim ḥəsrət ilə qanə dönüb

3. Vüṣālun ilə keçən günləri ẖəyālə salub
Fələk əlindən işim imdi əl-əmānə dönüb

4. Günüm gecə gözimə ẖār gülsitān sənsiz
Bəhārım ey gül-i növ-ẖīz kədər-ẖəzānə dönüb

---
[1] 5b; 79a
[2] 5b; 78a

5. Hanı o mehr-i məḥəbbət ki var idi səndə
Sitəmgər olmısən imdi məgər zəmānə dönüb

6. Əsās-ı mülk-i vücūdım zəlāzil-i ġəmdən
Ḫarāb olub dağılub şəhr-i Şīrvānə dönüb

7. Ze-bəs ki fikr-i ruḫundur köñüldə Żū`ī tək
Köñül sərāçəsi ey māh gülsitānə dönüb

26[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Şükr eylə ey köñül ki ḫəbər yārdən gəlüb
Hicrān-keşīdə 'āşiqə dildārdən gəlüb

2. Bülbül şifət tərānə çəküb şūrə gəl köñül
Gül müjdəsi yəqīn saña gülzārdən gəlüb

3. Ṭūr-ı məḥəbbət içrə gəlim [ol] bəlā-keşə
Bir cüz`də şan nihān pür-ənvārdən gəlüb

4. Ẓāhirdə nāmədür vəlī bāṭin məşāmımə
Şan ṭəblə ṭəblə müşkdi Tātārdən gəlüb

5. Zəhr-i firāq ilə dəhən təlḫ 'āşiqə
Şəhd-i vüṣāl lə'l-i şəkərbārdən gəlüb

6. Dūzəḫ cəfāsını çəkənə şanki bir ḫəbər
جنّات تجری تحتها الانهاردن gəlüb

7. Bir sirr var bu nāmə-i əlṭāf-ı fəżldə
Żū`ī bilür ki məḥrəm-i əsrārdən gəlüb

27[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Şükr eylə ey köñül ki ḫəbər yārdən gəlüb
Hicrān-keşīdə 'bülbülə gülzārdən gəlüb

2. Dūzəḫ cəfāsını çəkənə şanki bir ḫəbər
جنّات تجری تحتها الأنهاردن gəlüb

3. Zəhr-i firāqdan dəhən-i təlḫ 'āşiqə
Şəhd-i lu'āb lə'l-i şəkərbārdən gəlüb

4. Ṭūr-ı məḥəbbət içrə gəlim [ol] müsāfirə
San bir qabəs o nəḫl-i pür ənvārdan gəlüb

5. Bülbül şifət tərānə çəkib şūrə gəl köñül
Gül müjdəsi yəqīn saña gülzārdan gəlüb

6. Bir sirr var bu nāmə-i əlṭāf ü fəżldə
'Ārif bilür ki məḥrəm-i əsrārdən gəlüb

7. Ẓāhirdə nāmədür vəlī bāṭin Żū`iyə
Bir nāfə-i müşk-i nābdı Tātārdan gəlüb

---

[1] 6a
[2] 171b; 173b

28[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Əvvəlki ḥüsn cəzbəsi cānānədən gedüb
'Eyş ü nəşāṭ gūşə-i mey-ḫānədən gedüb

2. Nə güldə var sürūr nə gülşəndə rəng bū
Ẕövq ü sürūr sāğər ü peymānədən gedüb

3. Qalmub cəhāndə ẕərrə qədər ẕövq ilə ṣəfā
Yā Rəbb təmām ləẕẕət-i dünyā nədən gedüb

4. Bülbüldə var nə nəğmə-sərālıq nə güldə rəng
Eşq ātəşinə yanmaqı pərvānədən gedüb

5. Cūd u səḫā vü mə'rifət āṡārı dəhrdən
Nə vəchdəndi bilmürəm āyā nədən gedüb

6. Getmiş niẓām-ı 'əql də həm ṣāḥib-'əqldən
Dīvānəliq şü'ārı də dīvānədən gedüb

7. Pozğundı Żū`i vəż'-i zəmānə qədīmdən
Gūyā ki ḫānə ṣāhibi bu ḫānədən gedüb

29[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Nədəndi yā Rəb olub çərḫ-i kəc-mədār ḫarāb
Düşüb ṣəfādan olub bāğ u lāləzār ḫarāb

2. Nə bāğlardə ṣəfā var nə meydə 'eyş ü nəşāṭ
Dönüb zəmānə olub dövr-i rūzgār ḫarāb

3. Keçən zəmāndə əgər var idi bəhārdə ẕövq
Olubdı mövsim-i qışdan bətər bəhār ḫarāb

4. Nə qədr gūşə-i gülşəndə nəğmə-sāz edəsən
Gəlür qulağə müḫālif nəvā-yı tār ḫarāb

5. Segāh-ı 'işrətivi pəncgāh elə şəb ü rūz
Ḥiṣār çəksön olur cümlə tārmār ḫarāb

6. Qalub nə güldə nə gülşəndə bir nəşāṭ-əṡəri
Olub təmām cəhān içrə hər nə var ḫarāb

7. Ya bu zəmānədə mə'dūm olubdı ẕövq-i ṣəfā
Ya Żū`ī səndə olub ẕövq-i 'eşq-i yār ḫarāb

30[3]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Ḥeyf olə kim dəhrdə bir ẕāt-ı əkrəm qalmayub
Qalmayandə eylə ādəm şanki 'āləm qalmayub

2. Hər cəhətdən 'āləm olmuş cənnətü`l-mə`vā vəlī

---

[1] 6a; 118a
[2] 6b; 117b
[3] 6b; 118a

Neylərəm mən cənnəti çün onda ādəm qalmayub

3. Çeşme-i ʻürfān olubdur ẖüşk-i ẖāk-ı cəhl ilə
Məʻrifət dəryāsı içrə qəṭrə-i nəm qalmayub

4. Āynə-i dünyānı dutmuş yoẖdur İskəndər ṣifət
Cām çoẖdur līk bəzm-i ʻeyş içün Cəm qalmayub

5. Zəẖm-i dil behbūdını Żū`ī fələkdən ummə kim
ʻĀləmün dārü`ş-şəfāsı içrə mərhəm qalmayub

31[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Oldı sünbüllər ẖəcil zülf-i pərīşānun görüb
Ġönçələr qan utdılər ləʻl-i dür-əfşānun görüb

2. Nəẖl-i ṭūbā vəṣfin eylər ẖəlqə vāʻiẓ dəm-bə-dəm
Hīç utanmur bir məgər sərv-i ẖurāmānun görüb

3. Hər dəm ollam qanımə ġəlṭān tən-i məcrūḥ ilə
ʻƏrṣə-i ḥüsn içrə ey şāhım bu cövlānun görüb

4. Zəhr-i nāb eylər təṣəvvür nūş-dārū şərbətin
Kim ki ey əbrū-kəmānım zəẖm-i peykānun görüb

5. Oldı bu ʻāləmdə Żū`ī həm-çū məcnūn ʻeşq ilə
Çün sənün ey māh-rū ʻāləmdə ẖeyrānun görüb

32[2]
feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

1. Çərẖ-i kəc-rov ki bizimlə belə rəftārı olub
Bundan əqdəm iki ildi nə ṣifət kārı olub

2. Ḫārlə həm-dəm eləmişdür gül ü gülzārı məgər
Gül-i pəjmürdə qılub pərvəriş-i ẖārı olub

3. Əhl-i ʻürfānı qoyub dəhrdə dā`im ʻüryān
Cühəlā firqəsinə ẖəlʻət-i zər Tarı olub

4. Bir mən-i zār dögüldür bilə cövr ü ẓülmi
Əhl-i ḥikmət nə qədər var isə āzārı olub

5. Bizə qismət eləyüb şām u səḥər ẖūn-ı cigər
Cāhilün şərbət-i līmū mey-i gül-nārı olub

6. Səbəb-i fəqr ü ġınānı aradım ʻāləmdə
Olmadı ẓāhir edən kim nə səbəbkārı olub

7. Żū`iyā ṣəbr qıl āẖırdə verir Bārī Ḫudā
Bu cəhāndə nə ki əʻmāl ilə pərgārı olub

Ḥarfü`t-Tā`

33[3]

---

[1] 87b
[2] 137b
[3] 108a

fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Dur gözün qurbānı sāqī bir də mey-ḫānə dut
Ġəm ḫumārı pāy-māl etdi məni peymānə dut

2. Var yeri cəm'iyyətün zülfündə bər-həm olsə gər
Kim dedi ey dil sən ol mənzildə get kāşānə dut

3. 'Āriżündən nūr oğurlar mərdüm-i çeşmim onı
Ḫāk tək ol ḥəlqə-i zülf içrə sal zindānə dut

4. Bilmək istərsən köñül gər ḥikmət Əflāṭūn kimi
Çək ayağun bādəvəş ḫüm içrə sən də ḫānə dut

5. Mən özim billəm nəyəm sən Żū`īni ey şeyḫ-i şəhr
Ḫˇâh bir 'āqil ḫəyāl et ḫˇâh bir dīvānə dut

34[1]
mefā'īlün / mefā'īlün / fe'ūlün

1. Uçubdur mürğ-i rūḥım təndən ey dost
Olan sā'ət mən ayru səndən ey dost

2. Be-ġeyr-əz başıña dönmək dolanmaq
Nə gördün kəsdün ülfət məndən ey dost

3. Ġəmündür mūnisim ey gül ayırmə
Məni ondan onı həm məndən ey dost

4. Məni etmə cüdā kūyundən ey gül
Ayırmə bülbüli gülşəndən ey dost

Ḥarfü`l-Ḫā`

35[2]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Ey köñül 'āriż-i dildārdə gīsūlarə baḫ
Ṣəfḥə-i gülşən-i firdövsdə hindūlarə baḫ

2. 'Āşiq öldürməyə müjgānın edüb ḫəncər-i tīz
Qəṣd eyləyənə ol nərgis-i cādūlarə baḫ

3. Etdi ṣəyyād-gözi ṣayd dil-i 'uşşāqı
Ḥəbbəẕā şīr-şikār eyləyən āhūlarə baḫ

4. Zāhidā bircə götür gūşə-i meḥrābdən əl
Elə bu māhə nəẓər ol ḫəm-i əbrūlarə baḫ

5. Dəm-bə-dəm Żū`ī-i nālānun içərlər qanını
Bir bu bī-rəḥm ü büt ü kāfir ü bəd-ḫūlarə baḫ

36[3]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Ey ḫəstə köñül sāḥət-i Şīrvānə yolun yoḫ

---

[1] 100a
[2] 94b
[3] 115b

Ey bülbül-i bī-çārə gülüstānə yolun yoḫ

2. ‘İşrətlə keçən günlərivi yādə sal imdi
Ādəm ṣifət ol rövże-i riżvānə yolun yoḫ

3. Təsbīḥ ü ‘əṣā təḫt-i ḥənəkdən şey` açılmaz
‘Əmmāmə ilə məclis-i ‘ürfānə yolun yoḫ

4. ‘Əql ilə dögüldür ḥərəm-i vəṣlə yetüşmək
Tā olmayəsən ‘āşiq-i dīvānə yolun yoḫ

5. Ol şəm‘-i şəb-əfrūzə vüṣāl istəsön ey cān
Tā olmayasən ‘eşqdə pərvānə yolun yoḫ

6. Bīmār qaluban ġəm-i ‘innāb-ı ləbindən
Ey cān yıḫıl ol dərgəh-i Loqmānə yolun yoḫ

7. Zāhid ṣifət-i Żū`ī riyā əhlisən imdi
Nə məscidə nə məşrəb-i rindānə yolun yoḫ

37[1]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Neylüm bəhār olubdı köñüldə fərāğ yoḫ
Gül-gəşt-i gülsitān təmāşā-yı bāğ yoḫ

2. Tərtīb-i bəzmə kīsəmizün yoḫdı ṭāqəti
Nə başdə ‘eşq-i yār nə əldə ayaġ yoḫ

3. Ṣəḥrā vü bāğ versə də firdövsdən nişān
Göz açmağə nəẓārəyə məndə dimāğ yoḫ

4. Anlar bəhār u lālə vü gül ẕövqini o kəs
Kim ḫāṭirində ẕərrə qədər dərd-i dāğ yoḫ

5. Nə ẕövqi Żū`ī pərtöv-i şəms ü bəhārdan
Ol şəḫs içün ki yanmaqə neftin çırāġ yoḫ

38[2]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Gər var bəhār līk büt-i gül-‘iẕār yoḫ
Hicrān ġəmilə meyl-i gül-i lāləzār yoḫ

2. Zülf ü ruḫı ḫəyālı ilə eyləyim baña
Müddətdi kim təfāvüt-i leyl ü nəhār yoḫ

3. Bilməm nə növ‘lən keçəcək bu bəhārımız
Nə nəqdimiz nə meykədədə ‘etibār yoḫ

4. Təqdīr iləndi ‘izzət ü ẕillət zəmānədə
Təğyīrə hīç kimsənədə iḫtiyār yoḫ

5. Lāzım dögül bu var yoḫun fikrin eyləmək
Əlbəttə ‘āqibət olacaq cümlə var yoḫ

6. Sāqī gözün nidāsı o cān-cövhərin gətür

---

[1] 120a
[2] 123a

Lüṭf et vücūdum etdi ġəm-i rūzgār yoḫ

7. Bəlkə bu dərd-i möhnət ü ġəmdən kənār olaq
Hərçənd dərd ü möḥnətə ḥədd ü kənār yoḫ

8. Tənhā nə mən bəlā vü ġəm-i dərdəm əsīr
Hansı köñüldi lālə kimi dāğdār yoḫ

9. Żū`ī bu şeş-dər-i ġəm içün tasun atmadı
Bu ʻərṣədə sənün təki bir bəd qumār yoḫ

Ḥarfü`d-Dāl

39[1]

fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Bādə-h∨ārə eləyür gərçi məzəmmət zāhid
Çəkər āhır özi bu işdə nədāmət zāhid

2. Özi ġāfildi məgər āyə-i لا يغتب[2] dən
Kim edir gündə həzār ādəmə ġiybət zāhid

3. Fəẖr qılmə oẖı bir āyə-i مختال فخور[3]
Sūrə-i Hūdə baẖub eylə bir ʿibrət zāhid

4. Gər ʻədālətlə olur ḥəşr günündə dīvān
Sən də mən də çəkərük ondə əẕiyyət zāhid

5. Məndə vardur əgər ʻāşiq oluban mey içmək
Səndə var bir qulaġ as gör neçə ʻādət zāhid

6. Kibr ü ġiybət ġəżəb ü zərq ü riyā vü sālūs
Eləmək görmədügi əmrə şəhādət zāhid

7. Bādəyə ġiybət ü məğrūrluqı tay dutaq
Ġiybətün nəhyinə var çün neçə āyət zāhid

8. Bādənün nəhyinə bir فاجتنبوا[4] ləfzi gəlüb
İmdi çək eylədiyün feʿlə həcālət zāhid

9. Sən edən fısqlərün nəş`əsi yoẖ ləzzəti yoẖ
Meyde var ẕövq ü fərəḥ ʿişrət ü ləzzət zāhid

10. Ḥūr u cənnətdi sənün ṣavm u ṣəlātun də ġərəż
Fikr qıl nəfsüvədür gör bu ʿibādət zāhid

11. Bu ʻəməllər ki sənün var nə deyüm ṭūl u dirāz
Fərz olubdur saña şeyṭān kimi ləʻnət zāhid

12. Çünki hər şəẖsə deyürsən انا خيرٌ منه[5]
Bu sənün şə`niñə sıqmaz bu nə hācət zāhid

---

[1] 98b
[2] Hucurat suresi, 12. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=49&ayet=12
[3] Lokman suresi, 18. ayet; Nisa suresi, 36. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=31&ayet=18 ; http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=4&ayet=36
[4] Hacc suresi, 30. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=22&ayet=30
[5] Kalem suresi, 12. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=68&ayet=12

13. Bircə kəlmə degilən ki انا ربّ الاعلى[1]
Bu ʻəvām tāyfə eylərlər itāʻət zāhid

14. Ḥəşrədək gər söləyim hīç tükənməz vəṣfün
Dəẖi bundan belə göstərmə kərāmət zāhid

15. Żū`iyā انّى فغور[2] āyəsinə bağlə ümīd
Etməsün qoy saña məhşərdə şəfāʻət zāhid

Ḥarfü`r-Rā`

40[3]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Əgərçi ʻāləm içrə növ-bəhār dirəẖt-əfzādur
Behişt-i ʻədn əsāsı kūh ṣəḥrālardə bərpādur

2. Gülüstān içrə olmuş hər gül-i növẖīz bir Ḫosrov
ʻAnādil Bārbəd bu bəzmə bülbüllər Nəkīsādur

3. Səbā rūḥu`l-Qüdüsdür Məryəm-i İsādan çün kūha
Ki hər bir nəfḫəsində yüz Məsīhāvəş hüveydādur

4. Qurubdur Yūsif-i gül Mişr-i gülşən içrə bāzārın
Dutub cān nəqdin əldə şanki bülbüllər Züleyẖādur

5. Nə sūdı ādəmə belə bəhārvəş-i firdövsdən
Əgər kim kīsəsində sīm ilə zər nā-hüveydādur

6. Zimistānı bəhār eylər nəşāṭ-əsbābın āmādə
Kimün kim sīm ilə zər kīsəsində ləḥẓə[4] peydādur

7. Nə ḥāşil şeʻrdən Żū`ī nə nəfʻi ḥikmət-i ʻelmün
Bu sāʻət ṣāḥib-i zər hər hünər əhlindən əʻlādur

41[5]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Gətür sāqī qədəḥ tā bilməyüm ʻāləm nə ʻāləmdür
Ki ləẕẕət bilməməkdür māvərāsı möḥnət ü ġəmdür

2. Cəhānun cümlə dərdinə dəvādur bilməmək ancaq
Bu dārūyə dəẖi fikr elə bir [ki] cüz` ü əʻẓəmdür

3. Nə qədri cüst ü cū etdim cəhāndə tapmadım bir kəs
Ki zəẖm-i möḥnət ü dərdə onun hər ləfẓi mərhəmdür

4. Cəhānun dövlətin çoẖ istəyən əşẖāşlar bi`llāh
Fənādur çün bunun ṭālibləri dīvānə sərsəmdür

5. Bu ẖākī-rəh ki üstündə gəzərsən çoẖ fəẖārətlə
Təṣəvvür eylə hər bir məsti bir Kāvūs bir Cəmdür

---

[1] Aʻla suresi, 1. ayet. Erişim: 6 Nisan 2019, http://www.kuranmeali.com/AyetKarsilastirma.php?sure=87&ayet=1
[2] Hud suresi, 42. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=11&ayet=42
[3] 36a
[4] kīsəsində ləḥẓə: kīsəsində hər ləḥẓə
[5] 37a

6. Yüz il ‘ömrün olə hər keçdügin ẖ˘āyə (?) qiyās eylə
Sənünçün ‘ömr bir āẖır nəfəsdə çəkdigün dəmdür

7. Nə qədri diqqət etdim ẖilqətimdən qanmadım z̠ərrə
Bilür bu rəmzi Żū`ī ol ki sirr`ullāh-ı məḥrəmdür

42[1]
mef‘ūlü / mefā‘īlü / mefā‘īlü / fe‘ūlün

1. Nə güldə ṣəfā nə mey-i gül-gūndə əs̠ər var
Bilməm nədi bā‘is̠ hamı əşyādə kədər var

2. Ṣəd-ḥeyf cəhān bāğınə bəd vəqtdə gəldük
H̱˘oşgīdə olub nəẖl nə şāẖ u nə s̠əmər var

3. Əfsūs ki yoẖ bir nəfər ‘ārif ki dəm-ā-dəm
Cān-ṭūṭīsinə şəhd-i kəlāmındə şəkər var

4. ‘Ālim gərək olsun dəẖi mə‘qūldə kāmil
Tā ẖəlq desün bundə nə söz istəsələr var

5. Mövtālarun ‘āmilləridür indiki mollā
‘Āriflərə mollā olanı göstər əgər var

6. Çün bilmür özi məs`ələ sorduqdə deyürlər
Kāfir olı sən dinmə belə sözdə ẖərər var

7. ‘Əmmāməsinə baẖmagilən məs`ələ ṣorma
Mollā özi çoẖ ẖeyr edi yalnız nə qədər var

8. Yā Rəb nə olubdur səbəbi kim bu zəmāndə
İnsān arasındə hamı millətdə ẖəṭər var

9. ‘Ummāl-i təmām cismə gəlür yaẖşı yamandan
Bə‘żilərə firdövs-i bərīn bə‘żə saqar var

10. Żū`ī ḥəz̠ər et zād-ı rəhün eylə mühəyyā
Bir qəḥṭ ğalā buq‘əyə āẖır səfərün var

43[2]
mef‘ūlü / mefā‘īlü / mefā‘īlü / fe‘ūlün

1. Ey tərk eləyən bādə-i gül-nārı Səməndər
Əldən buraẖan ṭürrə-i ṭərrārı Səməndər

2. Zāhidliq işi şā‘irə ‘āləmdə nə lāzım
Hər şəẖṣün olur dəhrdə bir kārı Səməndər

3. Şā‘ir gərək ‘āşiq olə bir māh-cəmālə
Cān tāzəliyə lə‘l-i şəkərbārı Səməndər

4. Bir nāzlu məlāḥətlü nigārə verə köñlin
Tā dūzlı olə cümülə əş‘ārı Səməndər

5. Dil-cūy dil-āvīz u ġəzəl-gūy u ġəzəl-ẖān
‘İsā kimi i‘cāz edə güftārı Səməndər

[1] 55a; 139b (ilk 3 beyit)
[2] 78b

6. Qurbān saña şā'ir gərək içsün mey-i gül-gūn
Sevsün dəḫi bir dil-bər ü dildārı Səməndər

7. Çoḫdandı köñül istər idi feyz-i ḥużūrun
Qorḫutdı bu söz līk bu əfkārı Səməndər

8. الجنس الى الجنس يميل[1] deyülübdür
Lüṭf eyləyübən tap mən-i bīmārı Səməndər

9. Żū`ī saña müştāqdı ṣidq ilə köñüldən
Qurtar dəḫi bu ḥəsrət-i dīdārı Səməndər

44[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Hər bir kəsün ki sən kimi ey məh ḥəbībi var
Bəh bəh əzəl günündə sə'ādət nəṣībi var

2. Çeşmün nə vəchdəndi ki bīmārdur müdām
Həm-sāyəsində 'Īsā-yı ləb tək ṭəbībi var

3. Yağmalayubdı ṭürrələrün Çīn məmālikin
Hər çīni içrə müşk-i Ḫıṭādan kəsībi var

4. Meḥrāb qaşınə köñül aldanma əgmə baş
Baḫ görkəmində nərgis-i mərdüm-firībi var

5. Ẓāhirdü lānə muṣḥaf-ı ruḫsārə zülfi līk
Bāṭin o qarə ṭürrələrün yüz ṣəlībi var

6. Żū`ī sañadı Leyliyə Məcnūn ġəzəl-sərā
Hər gülşənün bir özgətəhər 'əndəlībi var

45[3]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Nə ġəm ey gül sənün tək bir nigār-ı gül-'izārım var
Süḫən-dān u ənīs u mūnis u ġəm-ḫ᷇ār yārım var

2. Gecə gündüz ġəm-i hicrānını çəksəm ḫ̌oşam zīrā
Məqām-ı vəṣldə ṣəd şükr kim būs u kənārım var

3. Nədür ey lālə-ruḫ yārım bu qədri bī-vəfālıq kim
Deməzsən kim mənim bir dərd çəkmiş dāğdārım var

4. Nədür muncə təğāfül səndə ey ṣəyyād-ı bī-pərvā
N`öçün yād etmisən dāmımdə āḫır bir şikārim var

5. Ayağun ṣədqəsi başım əlim dut sāqiyā mey ver
Məḥəbbət bādəsindən Żū`ī tək başdə ḫumārım var

46[4]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Nə yerdən ey pərī-rūyum köñüldə intiẓārun var

---

[1] Cins cinsi bulur/cins cinse çeker.
[2] 80a
[3] 83a
[4] 83a

Ki pozdun əhl-i bəzmün ḫāṭirin sölə nə kārun var

2. Əgər cāndur təmənnā ḫāk-ı pāyun ṣədqəsi başım
Nə yüzdəndür bəyān et ḫāṭiründə nə ġubārun var

3. Gərəkdür mən yudam qan eyləyəm yüz fikr-i ṭūlānī
Sənün kim ʿāriż-i gül-gūn u zülf-i tābdārun var

4. Mənim yoḫ ḥörmətim mey-ḫānələrdə deyr ü məsciddə
Sənün hər yerdə olsun ʿizzətün həm ʿetibārun var

5. Qalub hicrān zimistānındə Żū`ī nālə qoy etsün
Sən etmə nālə ey bülbül sənün hər il bəhārun var

47[1]
mefāʿīlün / mefāʿīlün / mefāʿīlün / mefāʿīlün

1. Nə sūd ondan bəhār oldı əlimdə sāğərim yoḫdur
Əgər gülşəndi bəzmim bir gül üzlü dil-bərim yoḫdur

2. Nə pīr-i meykədə yanında ẕərrə eʿtibārım var
Nə rəhn-i cāmə ḫirqəsicə nə sīm u zərim yoḫdur

3. Nə var künc-i qəfəsdə āb u dānəm əşkdən ġeyri
Nə şāḫ-ı vüṣlətə uçmaq içün bāl u pərim yoḫdur

4. Sikəndər tək bəlā ẓülmātı içrə qalmışam ḥeyrān
Vüṣāl-i çeşme-i ḥeyvānə Hiżrim rəh-bərim yoḫdur

5. Nə rind-i lāubālī tək ḫarābāt içrə ẕövqüm var
Nə zāhid tək ümīd-i ḫüld ü ḥūr u kövs̱ərim yoḫdur

6. Cəhān bāğındə bir ḫˇoşgīdə nəḫlə bənzərəm mən kim
Nə bir şāḫım nə sāyəm nə şükūfə nə bərim yoḫdur

7. Cəhālət əhlinün Yə`cūcunə Żū`ī giriftārəm
Bu dərdi çəkməgə səd ḥeyf kim İskəndərim yoḫdur

48[2]
fāʿilātün / fāʿilātün / fāʿilātün / fāʿilün

1. ʿĀrižün kim bādə tābından açubdur lālələr
Hər ṭərəf tər qəṭrəsi ol lālə üzrə jālələr

2. İçmisən min ʿāşiqün qanın şəhādət eyləyür
Ləblərindən qan kimi hər dəm çıḫan təbḫālələr

3. Ḫəṭṭ ü ḫālun rūy-ı alundə durubdur vəcḥi var
Tā ki dīn-i ʿāşiqə hər ləḥẓə rəḫnə ṣalələr

4. Yandurursan bī-muḥābā hər zəmān ʿāşiqləri
Vāy əgər kim bu ḥesābı səndən ay məh alələr

5. Ġeyriyə yār olmaqındur Żū`ī-i sər-gəştəyə
Çəkdürən fəryād-ı cān-sūz u fəğān u nālələr

---

[1] 82b
[2] 90a

49[1]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Gəlməsün zāğ u zəġan gülşənə kim gül yeridür
Gül olan yer dəẖi bu rəsmidi bülbül yeridür

2. Dil-i sūzənimi ġəm ləşkəri görcək dayanub
Dedi hər yerdə yanar od olə mənzil yeridür

3. Ḥəl-i dərd etməyə ḥāl əhli gərək 'ārif-i vəqt
Əmr-i müşkil keçər ol yerdə ki cāhil yeridür

4. Kim ki bī-nām u nişān olmasə 'ārif deməzəm
Çünki bī-nām u nişān 'ārif-i kāmil yeridür

5. Zāhidün mənzili qoy məscid ü meḥrāb olsun
Żū`iyā bir elə vīrānə nə 'āqil yeridür

50[2]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Nə yetsəm vəṣlə ārāmım nə hicrində qərārım var
Ḫudāvəndā nə bəd-ovqāt u müşkil rūzgārım var

2. Olub 'āşiq cəhāndə hərkəs öz mə'şūqəsin tapdı
Mənim kim hər zəmān firqətdə min min āh u zārım var

3. Nə ġəflətdür bu səndə ey təġāfül-pīşə ṣəyyādım
Deməzsən kim mənim dāmımdə āẖır bir şikārım var

4. Maña əğyār oldı ḥərf-i əğyār ilə yār āẖır
Görün əğyārə muncə yār olan bir gül-'izārım var

5. Demə nāṣiḥ ki 'eşq-i māh-rūlərdən çək əl Żū`ī
Ki ondan çəkməzəm əl tā əlimdə iẖtiyārım var

51[3]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Ey dil nəẓārə eylə kim ol dil-rübā keçər
'Uşşāqə nāz ilə eləyüb yüz cəfā keçər

2. Şirvān Kürün ki vādī ələmindən (?) arturub
Qılson nəẓārə hər yaña nūr-ı Ḫudā keçər

3. Zülfi həvāsı ilə basır qara gecələr
Ḫālı ẖəyālı ilə günüm həm qara keçər

4. Hər 'āşiqün keçür mi belə qara günləri
Yoẖsə qara gün 'eşqdə ancaq baña keçər

5. 'Āləm dolubdı nükhət-i müşk ilə Żū`iyā
Ol qara tellər üzrə məgər kim ṣəbā keçər

52[4]

[1] 90b
[2] 91a
[3] 91b
[4] 92a

fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Ey büt ol ruḫsārun üzrə müşk-bū gīsū mıdır
Yā ki gülzār içrə məskən eyləmiş hindū mıdır

2. Māh-ruḫsārıñ mıdır zülfün arası sərv-qədd
Yā ki reyḥān içrə bitmiş lālə-i ḫədd rū mıdır

3. Göstərür ṣun'-ı Ḫudāvəndi yüzün 'āşiqlərə
Ṣəfḥə-i ruḫsār pür-ənvār yā güzgü midir

4. Dişləründür mi dəhānundə sənün ey ḫəṭṭ-i Ḫiżr
Çeşme-i ḥeyvān ara yā şəddə-i lü`lü midir

5. Żū`iyā məcnūn edən sən bī-dili nāz ilə ol
Qəndəhārī-çeşm ü Hindī-zülf ü Rūmī-rū mıdır

53[1]
Mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Sitārə ṣanmə fələkdə şərār-ı āhımdur
Bu əmrə ātəş-i dil bir qəvī güvāhımdur

2. Yeridi tīğ ilə gər etsə pārə pārə məni
Onun məḥəbbəti əlbəttə kim günāhımdur

3. Bu qədri etmə bana cövr ey büt-i bī-mehr
Ki səndən özgə mənim sölə kim pənāhımdur

4. Sağınmə bī-kəsəm ey şūḫ yoḫdı bir kimsəm
Bəlā vü möḥnət ü əndūh u ġəm sipāhımdur

5. Nə qədri olsə günāhım onun ḥużūrində
Ġəm etmə Żū`ī ki əlṭāf-ı 'üzr-ḫ∨āhımdur

54[2]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. 'Āləm içrə hər kimün bir bī-vəfā cānānı var
Söləmün bir də onə dünyā vü dīn ü cānı var

2. Ey firāq ol yār göndərdi səni tök qanımı
Ḥaqqıdır kim məndə 'eşq-i ləblərindən qanı var

3. Gün səḥāb içrə qalandə ḫ˘oşdu gəl ey məh-liqā
Zülfüvi çək 'āriżindən ḥüsnüñə nöqṣānı var

4. Dostlar baḫmun namāz-ı bāṭilinə zāhidün
'Eşqini inkār edüb kāfir demün īmānı var

5. Żū`ī-i bīmār-ı 'eşq oldun ölimdir çārəsi
Hər gedən ġeyri ḫəyāl etmə ki bir dərmānı var

55[3]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

---

[1] 98a
[2] 98a
[3] 98a

1. Qaşun hilāl ʻizārun məh-i təmāmımdur
Duʻā-yı zülf ü ruẖun vird-i ṣübḥ ü şāmımdur

2. Elə ẖəyāl edərəm şāh-ı ḥökm-rānam gər
Desə filānı mənim bir kəmīn qulāmımdur

3. Şikəstə köñlümi cövrüylə eyləyür vīrān
Demir ki bir bu ẖarābə mənim məqāmımdur

4. O məh bənimlə olan gecə bəzmdə deyürəm
Ki āftāb meyimdür hilāl cāmımdur

5. O māh-pārə bütün məqdəmində cān vermək
Cəhāndə Żū`ī mənim bircə bu mərāmımdur

56[1]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Ləbün ẕikri baña şəhd ü şəkərdən dəẖi şīrīndür
Ruẖ u zülfün ẖəyālı həm fərāġ-ı bāğ u nəsrīndür

2. Yüzündə tərdurur yā lālə üzrə jālədür yā kim
Məh-i ənvər kənārında düzülmiş ʻiqd-ı pərvīndür

3. Əsīr-i āhū-yı çeşmün sənün yüz āhū-yı Tātār
Fədā-yı çīn-i zülfün ṣəd həzārān nāfe-i Çīndür

4. Məni öldürdi ey məh nāz u ġəmzün təlẖ-güftārun
ʻƏcəb bī-mehrsən ey bī-mürüvvət bu nə āyīndür

5. Dərūndə ağlamaqdan qanə ġərq oldım nigārā ẖər
Deməzsən kim məgər bu Żū`ī-i məhcūr u miskīndür

57[2]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Düşübdür ərğüvānī rūyuvə ol qarə gīsūlər
Dutubdur cənnətü`l-mə`vādə mə`vā ṣanki hindūlər

2. Muṣəvvər eyləyübdir mərdüm-i çeşmim qədün sərvin
Dögül bī-hūdə cārī eyləmək hər ləḥẓə bu cūlər

3. Məni öldürdilər dərd ü ġəm-i ʻeşq ilə āẖırdə
Səmən-sīmā vü sünbül-mūy u sūsən-ləb [ü] gül-rūlər

4. Məni bəd-gūlər etdi kūy-ı dildārımdan āvārə
Görim olsun İlāhī mən kimi āvārə bəd-gūlər

5. Qılublar Żū`īni min ʻişvə vü nāz ilə sər-gərdān
Bu kāfir-dīn ü cövr-āyīn ü məh-ruẖsār u bəd-ẖūlər

58[3]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Ġönçəsi dövrində kim zülf-i pərīşān titrəşür
Eylə kim cādū görüb möhr-i Süleymān titrəşür

---
[1] 98b
[2] 100a
[3] 101b

2. Titrəşür köñlüm ḫəyāl-i ʻāriżindən eylə kim
Ātəş-i sūzəndə üzrə qəṭrə-i qan titrəşür

3. Firqətündə āh-ı cān-sūz u fəğānımdan mənim
Gecələr ey məh-liqā gərdūn-ı gərdān titrəşür

4. Şīrvān içrə bu gün Ḫāqānī-i s̱ānī mənəm
Seḥr-i şeʻrimdən təmām Īrān u Tūrān titrəşür

5. Żū`iyā görcək mənim bu ābdār əşʻārımı
Bīḫūd u Seyyid [ü] Bəhār bəḥr-i ʻürfān titrəşür

59[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Ḫəstə cānım sənsiz ey məh möḥnət-i hicrān alur
Bu müşəḫḫəṣdir əcəl əlbəttə āḫır cān alur

2. Āşikārə qanımı hər dəm tökər ġəmzün oḫı
Bir təbəssüm ilə ləʻlün cānımı pünhān alur

3. Köñlümi ṣayd eylədi bir göz açıncə gözlərün
Eylə kim bir ṣayd-lāğərini iki tərlān alur

4. Alcaqın köñlümi ʻeşqün qıldı bī-dād u sitəm
Rəsmidür təḥdīd edər bir mülki kim sulṭān alur

5. Bir nəfəsdə ləʻlün ey məh aldı Żū`ī cānını
Nīşə bəs derlər ki ʻəqli bādə-i reyḥān alur

60[2]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Şərābı ṣanmə ki vāʻiẓ belə məẕəmmət edər
Şərābə çatmaz əli ləfẓinə qənāʻət edər

2. Baḫandə nāz ilə çeşmün qılur ʻəcəb ġārət
Gələn zəmāndə qiyāmə-qədün qiyāmət edər

3. Kənār[3]-ı Zəmzəm-i ləʻl-i ləbündə ḫāl-i siyəh
Durubdı Kəʻbə-i ruḫsārıvı ziyārət edər

4. Gözim yaşın görübən ṭəʻnə-daşın atsa n`olə
Köñül sarāyını bu ṭərḥlə ʻimārət edər

5. Ġulām-ı ḫāk-ı dərün oldı Żū`ī-i müżṭər
Bu eʻtibār ilə ʻāləmlərə fəḫārət edər

61[4]
Mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Yüz ay olur müṣəvvər-i nəqş-i dəhān çəkər
Yoḫdur aradə hīç nişān yoḫsə cān çəkər

---

[1] 104b
[2] 107a
[3] Kənār: Kənā
[4] 110b

2. Lə‘lündə mey-tərəşşüḥi qan qan deyür genə
Göstərmə görməsün dəḫi çeşmim də qan çəkər

3. Cəllād-ġəmzün ey pərī müjgān u qaşun
Ki tīr alur əlinə baña ki kəmān çəkər

4. Əlbəttə mən təki o də bir gül-əsīridür
Bī-cā dögül bu qədri ki bülbül fəğān çəkər

5. Ey dil yüzündə zülfünə çoḫ meyl eyləmə
Hər kəs bu gūnə eyləsə sevdā ziyān çəkər

6. Dil sirr-i ġönçə-i dəhənün bilmək istəyür
Yüz ġəm bu işdə ḫeyli zəmāndur nihān çəkər

7. Lə‘lün ġəmində Żū`ī-i ḫūnīn-cigər sənün
Hər dəm əlündən āh qılub əl-əmān çəkər

62[1]

fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Dəhənin dil-bərimün çeşme-i ḥeyvān dedilər
Kim inanur bu sözə güzgüdə böhtān dedilər

2. Ātəş-i ‘eşq-i ruḫ-ı yār ‘əlācın ḥükəmā
İstədim āb-ı dəm-i ḫəncər-i cānān dedilər

3. Dil ü cān görcəgin ol zülf-i siyāhın yüzdə
Bir birinə budı ol rəh-zən-i īmān dedilər

4. Dəhənin sordum əburūsı ilə çeşmindən
Baña bu nüktəni bir rəmz ilə pünhān dedilər

5. Żū`īni rəşk həlāk etdi yenə anlamayub
Dəhənin dil-bərimün çeşme-i ḥeyvān dedilər

63[2]

fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Ləẕẕət-i āb-ı bəqānı mey-i əḥmərdən sor
Yə‘nī ey təşnə-köñül get ləb-i dil-bərdən sor

2. Çeşm-i bīmārınun əḥvālını sorson ey dil
Gülsitānə güẕər et bu sözi ‘əbhərdən sor

3. Köñlümi qan eləyüb mehr-i ruḫı ey nāṣeḥ
Etməsön bāvər əgər lə‘l ü ləb-i tərdən sor

4. Ḫāṭirim cəm‘ dögül tā ṣaña dərdim söləyüm
Bu pərīşān yüzi ol zülf-i mü‘ənbərdən sor

5. Zāhid inkār-ı mey-i nāb qılursə nə bilür
Gəl onun ẕövqüni bu Żū`ī-i müżṭərdən sor

64[3]

mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

[1] 111b
[2] 111b
[3] 113b

1. Ḫᵛoşā o māhlə həm-bistər olduqum gecələr
Cəmālı şəm'inə ḫākistər olduqum gecələr

2. Gəhī cəmālınə gəh küfr-i zülfə səcdim idi
Gəhī müsəlmān gəh kāfir olduqum gecələr

3. Gecəm günüz tək olurdı şu'ā' rūyundan
O māh-rūy ilə həm-sāğər olduqum gecələr

4. Əlimdə şīşə-i mey ol pərī baña təsḫīr
Hanı o dəm bu ṣifət sāḥir olduqum gecələr

5. Dilimdə ẕikr-i ləbi əldə əf'ī zülfü
Şikəstə Żū`ī tək əfsūngər olduqum gecələr

65[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Hanı o şūḫlə məst-i şərāb olan günlər
Məhim piyālə meyim āftāb olan günlər

2. Nəẓārə-i gül-i ruḫsārınun həvāsı ilə
Nə dildə fikr nə çeşmimdə ḫᵛāb olan günlər

3. 'İmārət-i tənimi seyl-ābə vermişdi
Diyār-ı 'eşqdə yek-sər ḫarāb olan günlər

4. Gedübdi tāb [u] təvān cism-i nā-təvānımdan
Ḫᵛoşā o möḥnət-i hicrānə tāb olan günlər

5. Qədəḥlər edi baña şāmlar du'ā-yı qədəḥ
Kitābī şīşələr (?) əldə kitāb olan günlər

6. Gecə günüz keçinürdi nəşāṭ ilə ḥālım
Nə fikr-i rövżə nə bīm-i 'əzāb olan günlər

7. Olubdı bāng-ı mü`əẕẕin tərānəmiz imdi
Ḫᵛoşā sürūrım o çəng ü rübāb olan günlər

8. Ḫarāb olaydı cəhān kāş bu fələk-i bər-bād
Mənim bu mollālıqə intiḫāb olan günlər

9. Nə sūd Żū`ī bu məscid imāmı olmaqdan
Ḫᵛoşā o meykədə rindi ḥesāb olan günlər

66[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Ḫᵛoşā o sākin-i mey-ḫānə olduğum günlər
Əlimdə sāğər ü peymānə olduğum günlər

2. Təmām dā`irə-i 'əql möḥnət ü ġəmdür
Ḫᵛoşā o cāhil ü dīvānə olduğum günlər

3. Yanub tə'əşşuq ilə nārluqa (?) vəṣl içrə
Cəmālı şəm'inə pərvānə olduğum günlər

---

[1] 114b
[2] 116a

4. Əlimdə sāğər-i bādə başımdə nəş`ə`-i cām
Gözimdə ʻāriż-i cānānə olduğum günlər

5. Düşübdü Żū`ī biyābānə imdi məcnūn tək
Ḫˇoşā o məhvəşə həm-ḫᵛānə olduğum günlər

67[1]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Ḫˇoşā Şəmāḫıdə dildār ilə keçən günlər
Müdām māh-liqālarlə mey içən günlər

2. Görəndə bādəni ol şūḫ mey həvāsı ilə
Vücūdı bərg-i gül-i sūrī tək əsən günlər

3. Müşāḫibimdi Bəhār ilə Seyyid ü Bīḫūd
Rumūz-ı ʻeşqdə hər ləḥẓə bəḥs̱ edən günlər

4. Bu günki günlərimi fikr edəndə ẓāhirdür
Behişt imiş mənim ol ʻişrət eyləyən günlər

5. O günlərün biri yüz min ilə bərabər idi
Gedüb qayıtmayacaq ḥeyf ol keçən günlər

6. Nə kül töküm başıma Żū`ī yādə düşdükdə
O gül əlilə ayağımə mey tökən günlər

68[2]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Çün yoḫdı vəfā ʻömrdə dövlət nə içündür
Cəmʻ etmək içün dövləti zəḥmət nə içündür

2. Gər bağludı təqdīr-i qəżāyə hamu işlər
Bī-cā yerə bu səʻy bu ẕillət nə içündür

3. Gər səʻy ilədür dövlət ü şövkət bu cəhāndə
Çoḫ kimsədə bī-səʻy bu şövkət nə içündür

4. Ṭāʻətdədi gər vüsʻət-i əndāzə-i dünyā
Pəs əhl-i ʻibādətdə fuqārət nə içündür

5. Gər maʻṣiyət əhlində olur dövlət-i bī-ḥəd
Fısq əhli içün pəs belə ẕillət nə içündür

6. Bu məs`ələdə yüz min ʻārifdi məʻəṭṭəl
Bir kimsənə bilməz ki bu ḥālət nə içündür

7. Var idi keçən ʻəṣrdə ʻelm ilə səḫāvət
Derlər bu zəmān əhl-i səḫāvət nə içündür

8. Bu ʻəsrdə çün məʻrifəti ʻeyb sanurlar
Çün belədi iş fəhm ü fərāsət nə içündür

9. Ṣəd-ḥeyf ki pis vəqtdə gəldük bu cəhānə
Çün müştərī yoḫdur bu biżāʻət nə içündür

[1] 117a
[2] 118b

10. Ḫəlqün dəḫi yoḫ məṭləbi bir pūldan özgə
Nāmūs ḥəyā ‘ār ilə ġeyrət nə içündür

11. Bir ḥəbbə içün birbirini öldüri nā-ḥəq
Derlər nədi inṣāf-ı mürüvvət nə içündür

12. Cānın veri bir ḥəbbəni verməz bu ḫəlā`iq
Pəs bu ṣifət insān ilə ṣöhbət nə içündür

13. Gər cənnətə də imdiki ādəm gedəcəksə
Bi`llāh elə olsə mənə cənnət nə içündür

14. Aldanməgilən Żū`ī cəhānə nədi dünyā
Beş günlüq olan ‘işrət ü behcət nə içündür

69[1]
mef‘ūlü / mefā‘īlü / mefā‘īlü / fe‘ūlün

1. Hər kiməsnənün kim olə cāmı Cəmi neylər
‘Āləm hamusı cāmdədür ‘āləmi neylər

2. Hər ‘āşiqə kim lə‘l-i ləbün vəṣlidi ḥāṣil
Övrəng-i Süleymānı dəḫi ḫātəmi neylər

3. Sevdā-yı sər-i zülfüñə başın verən ‘āşiq
Cāndan keçüb ol dəhrdə bīş ü kəmi neylər

4. ‘Āşiq ki fənā bəzminə ‘eşq içrə yetişdi
Ol məs`ələdə şāfi‘ yā ə‘ẓəmi neylər

5. Dəf‘-i ġəm-i hicr içün içər Żū`ī bu zəhri
Şəhd-i ləb-i yār olsa mey-i Dərġəmi neylər

70[2]
mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

1. Cəhāndə gūşə-i mey-ḫānə tək nə cāy-ı ḫürrəm var
Nə cām-ı bādə-i gül-gūnə bənzər yār-ı həm-dəm var

2. Dutub āyīnə-rū dünyānı cām ‘āləmdə çoḫ çoḫdur
Vəlīkən yoḫdur İskəndər nə bir Cəmşīd nə Cəm var

3. Behişt olmuş cəhān līkən dutub şeyṭān ilə ‘āləm
‘Əbəs̱ sözdür ki söylərlərdi cənnət içrə ādəm var

4. Fəqīr ü əğniyā şāh u gədā olmaqə bā‘is̱ nə
Bilən yoḫdur bu əmri līk mundə sirr-i mübhəm var

5. Olub bu ‘əṣrdə bā... ilə hamı bir Rüstəm
Nə sūd ondan ki nə bir āl-i Bərmək var nə Ḥātəm var

6. Nə var ol məhvəşə āhımdan özgə qāṣidim hər şəb
Ḥərīm-i kūyunə bād-ı ṣəbādan ġeyri məḥrəm var

7. Ġəm oldur Żū`iyā kim olmayə mey-cāmınə qüdrət
Mey-i Dərġəm gər olsə fikr qılə dəhrdə ġəm var

---
[1] 121a
[2] 124a

71[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Bilməm nöçün bu 'əṣrdə rāḥət görünməyür
İslām içində hīç səlāmət görünməyür

2. Ədyān müḫtəlif hamı əhl-i savāddur
Yüzdən birində bizdə kitābət görünməyür

3. İslām də tə'əṣṣüb-i dīndən ḥesāb olur
Bu 'əṣrdə nə 'ār u nə ġeyrət görünməyür

4. 'Ənqā kimi nişānəsi yoḫ nāmı ẕikr olur
Bəẕl ü 'əṭā vü lüṭf ü ḥimāyət görünməyür

5. Ḫəlq-i cəhān səḫânı səfīh e'tibār edir
Bā'is̱ budur bir əhl-i səḫāvət görünməyür

6. Keçmiş zəmāndə var idi əsbāb-ı fəżl ü cūd
Bir kimsədə bu vəqt kərāmət görünməyür

7. Şöhrət tapubdı bid'ət Żū`ī zəmānədə
Pā-māl-i ḫəlq olubdı şərī'ət görünməyür

72[2]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Yandurur bəs ki məni hicr-i nigārım gecələr
Mənim olmuş deyəsən rūz-şümārım gecələr

2. Ḥüsn şərṭini yekūn[3] etmisən ey māh təmām
Çıqmə nöqṣān gətürür ḥüsnüvə yārım gecələr

3. Bəs ki zülf ü ruḫı fikrindədi köñlüm yoḫdur
Nə günüz ṣəbr ü s̱əbātım nə qərārım gecələr

4. Dāğ-bər-dāğ qoyur ḫāl-i ruḫı sīnəm ara
Düşcəgin ḫāṭirə ol lālə-'izārım gecələr

5. Dögi pərvānə kimi vəṣl müyəssər Żū`ī
Yansə də şəm' kimi cān-figārım gecələr

73[4]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. O kəs ki mülk-i ma'ārif onə müsəlləmdür
Ḥəqīqətən nəẓər et pādşāh-ı 'āləmdür

2. Nədür ḫəzā`inə yā təḫt ü tāc mülk ü ḥaşəm
Təṣəvvür eylə bular cümlə möḥnət ü ġəmdür

3. Kimün ki künc-i qənā'ətlə gənc-i mə'rifəti
Müyəssər oldı rumūz-ı dəqīqə məḥrəmdür

---

[1] 124b
[2] 126b
[3] yekūn: yūkūn
[4] 127b

4. Fəqīh-i mədrəsə yā şeyẖ-i ẖānqāh yüz il
‘İbādət etsə dili ẕikr-i Ḥəqqə əgmədür

5. Sərīr-i fəqr ü qənā‘ətdə pādşāh ol kim
O bārgəhdə Süleymān mūrdən kəmdür

6. Diyār-ı mə‘rifət ol mülkdür kim ol yerdə
Ḥəqīr Zāl idi Rüstəm fəqīr-i Ḥātəmdür

74[1]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Zāhidlərün ‘ibādəti ḥūr u qüṣūrdur
Ḥəqqā belə iṭā‘ət[i] ‘eyni qüṣūrdur

2. Ḫovf-ı cəhīm ü Kövs̱ər ü Təsnīm istəyür
Ḥəqqdən belə ‘ibādət əlbəttə dūrdur

3. Çoẖ baẖmə hāy [u] hūyunə ẓāhirdə zāhidün
Diqqətlə baẖ ki bāṭini əhl-i kəfūrdur

4. ‘Əmmāmə vü ‘əbā ilə minbərdə və‘ẓə baẖ
Gəl ẖəlvət içrə gör nə ‘əlāmət ẓuhūrdur

5. Vā‘iẓ gəlür mi məscidə gər pūl olmasə
Anlar bu rəmzi kimsə ki ṣāḥib-şü‘ūrdur

6. Bilməm nöçün bu ḥīləni məẖlūq bilməyür
Kūr də bilir ki balıqı ‘āləmdə şūrdur

7. Ṣəd-ḥeyf Żū`ī yoẖdı bu təzvīri anlayan
Ẓāhirdə var gözi vəlī bāṭində kūrdur

75[2]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. ‘Eşq-i zülfünlə köñül nālə-i şəb-gīrdədür
Gərdən-i cān deyəsən kim genə zəncīrdədür

2. Tīğ-i əbrūlərün eylər məni ġəmdən āzād
Ṣayd-ı pür-bəstə ‘əlācı dəm-i şəmşīrdədür

3. ‘Eyş ü ‘işrət azalur ‘ömr çoẖalduqcə bəlī
Ləẕẕət ol ṭıfl dəmində əmilən şīrdədür

4. Zāhidün kibr ü riyādur ‘əməli bir nəẓər et
Hansı āyətdədi bu söz necə təğyīrdədür

5. Qalusən mən kimi āvārə cəhān kārındə
Ey deyən kimsə ki işlər hamı tədbīrdədür

6. Fikr qılmə tapə tədbīr ilə ḥālun təğyīr
Dögi tədbīr ilə iş ẖāmə-i təqdīrdədür

7. Görmədim ẕərrə qədər məşrəb-i zāhiddə ṣəfā
Ẕövq ü behcət genə mey-ẖānədəki pīrdədür

---
[1] 133b
[2] 135a

76[1]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Yā Rəb nədi bā'iṡ belə dövrān dəgişübdür
Tə`ṡīr-i kəvākib məh-i tābān dəgişübdür

2. İnsān arasında var idi rəsm-i məḥəbbət
Mūẕī-ḥeyivānə dönüb insān dəgişübdür

3. 'Ənqāyə dönüb mə'rifət ərbābı cəhāndə
Yoḫ 'elm ü ədəb məşrəb-i 'ürfān dəgişübdür

4. Əvvəlki ṣədāqətlər olub indi ḫəyānət
Qalmub[2] dəḫi ḥəqq-i nəmək [ü] nān dəgişübdür

5. Almaqlıq edər āyə ittifāqīdə (?) təfsīr
Molla dəgişübdür demə Qur`ān dəgişübdür

6. Allāhə inanmaq idi īmān 'əməl etmək
Sīm ü zər olub Tarı də īmān dəgişübdür

7. Nə şər' ü şərī'ətdə qalub rövnəq-i İslām
Nə rəsm-i 'ədālət var [o] dīvān dəgişübdür

8. 'Āləmdə nə var isə tapub cümləsi təğyīr
Hər şeydə qədīmī sər ü sāmān dəgişübdür

9. Nə güldə ṣəfā var nə bülbüldə tərənnüm
Seyr-i gül ü gülzār u gülüstān dəgişübdür

10. Cānə fərəḥ idi mey ilə ṣūrət-i zībā
Ṣūrət pozulub rūḥ itüb cān dəgişübdür

11. Var idi mənim bircə nəfər ḫān-ı qədīmim
Bilməm nə olubdur o da əl-ān dəgişübdür

12. Çoḫ sormagilən tövsən-i əş'ārıvı Żū`ī
Lāl ol nəẓər et sāḥət-i meydān dəgişübdür

77[3]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Hər şəb ki bəzmim içrə o māh ilə cām olur
'Eyş ü nəşāṭ ləẕẕət-i dünyā təmām olur

2. Sənsiz behişt-i 'ədni baña versələr məqām
Təsnīm ü Səlsəbīl ilə Kövṡər ḥarām olur

3. Şīrīn olur ḫəyāl-i ləbünlə məzāq-ı cān[4]
Zülfün təfəkkürüylə mü'əṭṭər məşāmm olur

4. Zāhid şərābı çoḫ də ḥarām etmə küfrdür
Çün bu sözünlə meykədə beytü`l-ḥarām olur

5. Hicründə hər gecə baña yəvmü`l-ḥesābdur

---
[1] 138b
[2] qalmub: qalmayub
[3] 168a
[4] Şīrīn olur ḫəyāl-i ləbünlə məzāq-ı cān: Şīrīn olur ləbin təṣəvvüri ilə məzāq-ı cān (d.)

Hər gün qədün firāqı qiyāmət-qiyām olur

6. Īmānı yoḫdı bādəyə zāhid inanmasə
Hər dəmdə meydə mö'cüz-i [1] يُحى العظام olur

7. 'Ār etmə kūy-ı yārdə Żū`ī gədālıqı
'Āşiqdə kim görübdi ki nəng ilə nām olur

78[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Desəm gülün ki ruḫ-ı alıña şəbāhəti var
Ġələṭ süḫəndi gülün rūyıña nə nisbəti var

2. Hanı qədün kimi gülbündə istiqāmət ü nāz
Ləbün təki sölə bir ġönçənün ṭərāvəti var

3. Nə ḫālə yetdi ləbim nə əlim qara zülfə
Nə sūd bəḫtimizün qarəliqdə qisməti var

4. Əgərçi sūrə-i والضّحى [3]والشّمس oḫunur
Vəlīk bāṭini ruḫsārıña kināyəti var

5. Ayağə düşmək ilə qarə günüm ey Żū`ī
Cibillī ḫāṣiyətidir[4] baña sirāyəti var

79[5]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Bəhār oldı nə sūd ondan ki bir dildārımız yoḫdur
Mey-i gül-nārımız nə dirhəm ü dīnārımız yoḫdur

2. Mətā'-ı 'eyş ü 'işrət çoḫdı dünyānun dükānında
Bizim nə nəqdimiz var ondə nə bāzārımız yoḫdur

3. 'Əcəb bī-kārə vü āvārə vü bī-çārə olduq kim
Nə dünyā vü nə 'uqbā işlərindən kārımız yoḫdur

4. Nə var mey-ḫānələrdə e'tibārım cür'e-i cāmə
Nə dəhən bādəyə əcnāsdan bir varımız yoḫdur

5. Ḫudāvəndā nə bəd-sā'ətdə məḫlūq olmuşuq biz kim
Ḫəlā`iqlər yanində ẕərrəcə miqdārımız yoḫdur

6. Bu qədri dərd ü möhnətlə ölüb qurtarmadun Żū`ī
Şəmāḫı əhliyüq məşhūr sözdür 'ārımız yoḫdur

80[6]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Behişt şöhbət-i yār-ı şəfīq-i həm-dəmdür
Ḥəqīqət ādəm-i bī-mə'rifət cəhənnəmdür

---

[1] Yasin suresi, 78. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=36&ayet=78
[2] 170a
[3] Şems suresi, 1. ayet. Erişim: 6 Nisan 2019, http://www.kuranmeali.com/AyetKarsilastirma.php?sure=91&ayet=1
[4] ḫāṣiyətidir: ḫāṣiyəti nədür
[5] 172a
[6] 174a

2. Nə dəm ki mə'rifət əhlilə ḫˇoş keçər bi`llāh
Yüz il gər 'ömrün olə ḥāṣili həmān dəmdür

3. Əgərçi āb-ı ḥəyāt olsə içmə nā-dānlə
Ki 'āqibət əs̱əri cānə zəhrdür rəsmdür

4. Bir iki cām-ı ḥəkīmānə əhl-i ḥāl ilə
Əgərçi nūş edəsən zəḫm-i cānə mərhəmdür

5. Nə ẕövqi ḫāṭirə ḥāl əhli olmasə yārun
Əgərçi ḫəndə-i Yūsif hünərdə Rüstəmdür

6. Göz ü qaş u əl ayaġ pūlilə dögül insān
Əgər məlik olə bī-mə'rifət nə ādəmdür

7. Nə kūşiş eyləsə çatmaz murādə āḫırdə
O kəs ki rūz-ı əzəl ṭāli'i onun kəmdür

8. Birisi fəqr ü biri dövlət ilə olmaqlıq
Təmām əhl-i cəhānə bu sirr mübhəmdür

9. Ġəm etmə Żū`ī cəhān yā ḫəyāldur yā ḫ∨āb
O şey` ki ḫ∨āb u ḫəyāl oldı sölə nə ġəmdür

81[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. O çeşm-i məstüvə cānım o növ' ḥeyrāndur
Ki rūz [u] şəb ġəm-i 'eşqində dīdə giryāndur

2. Olubdı zülf-i pərīşānıvə köñül mā`il
O vəchdəndi işim dā`imā pərīşāndur

3. Əgərçi ṭürrələrün kāfir-i siyəh-dildür
Mənim tək 'āşiq içün līk dīn ü īmāndur

4. Ləbün təki hanı bir ġönçədə ṭərāvət ü lüṭf
Qədün tək hansı səhī-sərvlər ḫurāmāndur

5. 'İtāb u nāzun olur əhl-i 'eşq içün 'işrət
Ḫiṭāb-ı qəhrün 'uşşāqə tāzədən cāndur

6. Ləbündi çeşme-i Kövs̱ər o qāmətün ṭūbā
Vüṣālun ey büt-i məh-rūy bāğ-ı riżvāndur

7. Minā-yı kūyun ara ey Ḫəlīl-i Kə`bə-i ḥüsn
Qəbūl qıl kəsübən Żū`īni ki qurbāndur

82[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Hər ildə gərçi dəhrdə bir lāləzār olur
Tiflīs içində hər gecə yüz növ-bəhār olur

2. Zāhid deyən behişt ki 'uqbādə sölənür
Hər bir zəmāndə 'āşiq içün dər-kənār olur

[1] 177a
[2] 177a

3. Ḥūr u qüṣūr u cənnət-i riżvān təmāmdur
Hər bəzmdə ki cām-ı mey-i ḫᵛoş-güvār olur

4. Hər mübhəm iş ki anlamayur ḫəlq sirrini
Cām-ı cəhān-nümādə bizə āşkār olur

5. Zülf ü ruḫun firāqı ilə ey pərī-liqā
Fikr eylə Żū`iyə necə leyl ü nəhār olur

83[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Bu şūr-ı tāzə sərim üzrə nə həvādandur
Yəqīn ki tār-ı sər-i zülf ilə ṣəbādandur

2. Şikāyət eyləmirəm hīç kimsədən bi`llāh
Nə gəlsə dərd ü bəlā cümləsi Ḫudādandur

3. Bu bəḫti qarəliqə ġeyrdən səbəb sanmə
Əzəl günündə yazan kātib-i qəżādandur

4. Nə çārə ey dil-i dīvānə ṭāli'-i məḫluq
Biri bəhārə düşübdür biri şitādandur

5. Nə küll-i cəbr ilədür həm nə iḫtiyār ilə
Bu sirri anlamuram mən nə mācerādandur

6. Köñül çü yoḫdı bəqā 'ömrə çəkmə ġəm bī-cā
Demün ġənīmət bil cümləsi fənādandur[2]

7. Sitəm-ḥəqīqəti mə'şūqədən təğāfüldür
Cəfā gər eyləsə Żū`ī genə vəfādandur

84[3]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Bir 'əṣrdəəm mərd-i süḫən-dān qutarubdur
Ərbāb-ı səḫā mənbə'-i 'ürfān qutarubdur

2. Nā-būd olub mə'rifət-əhli bu zəmāndə
Həm 'əhdə vəfā 'əhd ilə peymān qutarubdur

3. Ẓülmāt dutub 'āləmi yoḫ Ḫiżr ilə İlyās
İskəndər ilə çeşme-i ḥeyvān qutarubdur

4. Bir ḥəbbəyə firdövs ü behişti satun almaz
Çün müştəri-i rövże-i riżvān qutarubdur

5. Yüz āyəni təfsīr edəsən gūşunə almaz
Yoḫ bāvər edən ḥörmət-i Qur`ān qutarubdur

6. Allāh peyəm-bər sözinə kim həvəs eylər
Bir ad[ı] qalub dīn ilə īmān qutarubdur

7. İslām deyən sözlərə kimsə qulaq asmaz
Qurānə qəsəm doğrı müsəlmān qutarubdur

---

[1] 178a
[2] Vezin bozuk.
[3] 178a

85[1]
müstef'ilün / müstef'ilün / müstef'ilün / müstef'ilün

Əz-Bərāy-ı Əhl-i Təṣəvvüf Goftə Şode Ke Silsilə Migūyəm

1. Münkirliqün yoẖ fā`idəsi īmānə gəlmək yaẖşıdur
Nār-ı cəhənnəmdən qaçub riżvānə gəlmək yaẖşıdur

2. ʻĀləmlərə rüsvālanub Ḥəqq şūrından sevdālanub
Bülbül kimi şeydālanub bustānə gəlmək yaẖşıdur

3. Bənd olmə māl u dövlətə göz tikmə şān u şöhrətə
Bu ərsə-i ṭərīqətə mərdānə gəlmək yaẖşıdur

4. Āyīnə-i qəlbi silüb Ḥəqq-cilvəsin ondə görüb
ʻƏql-i maʻāşı tərk edüb dīvānə gəlmək yaẖşıdur

5. Aldanmə dünyā-malınə həm cāhınə cəlālınə
Düş bir Ḥəqün ẖəyālınə rəḥmānə gəlmək yaẖşıdur

6. Usan ʻəql-i maʻāşdan dünyā içün təlāşdan
Keçüb cān ilə başdan meydānə gəlmək yaẖşıdur

7. Tərk eylə ẖāb-ı ġəfləti bu zülmət-i cəhāləti
Tapub rāh-ı ḥəqīqəti ʻürfānə gəlmək yaẖşıdur

8. Düşüb ʻeşqün həvāsınə səʻy eyləyüb ṣəfāsınə
Bu ḥəqīqət mināsınə qurbānə gəlmək yaẖşıdur

9. Çıq kəs̱rətdən düş vəḥdətə ġərq ol mey-i məḥəbbətə
Żū`ī tək bəzm-i ʻişrətə məstānə gəlmək yaẖşıdur

86[2]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Dəm yoẖdı o bī-çārə içün kim ġəmi yoẖdur
Hər kimsə ki dərd ü ġəminə həm-dəmi yoẖdur

2. Zāhid bizi sən mənʻ eləmə anlamayursan
Zühhādun o rindānə ṣifət ʻāləmi yoẖdur

3. Gər cənnət ü firdövsdür ʻāləm bu zəmāndə
Ṣəd-ḥeyf ki bir rəmz bilən ādəmi yoẖdur

87[3]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Kimün ki ʻeşq ələmindən köñüldə yārəsi var
Vüṣāl-i yārdən özgə sağınmə çārəsi var

2. O māh vəṣlinə bir gün yetüşmədim āẖır
Mənim bu ṭāleʻimün gör nə bəd sitārəsi var

3. Düşən bu qulzüm-i ʻeşq içrə ġərq olur bi`llāh
Bu bəd müḥīṭdi kim sanmayun kənārəsi var

---

[1] 164b
[2] 123a
[3] 112a

4. Təfāḫur eylə ki bāğ-ı cəmālun ey gül
Cəhāndə Zū`ī-i nālān kimi həzārəsi var

88[1]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Şərāb-ı nāb ey sāqī cəhān içrə o cövhərdür
Ki ondan ẓāhir eylər hər kəsün ẕātı nə gövhərdür

2. Qılur əḥvāl-ı bāṭin ẓāhir 'āləm içrə bir dəmdə
Desəm mən küfr olur mu cām-ı bādə gər peyəm-bərdür

3. Budur bundan səvā yoḫdur vüṣāl-i yārə bir çarə
Ṭərīq əhlinə məqṣūdə yetüşməkçün bu rəh-bərdür

4. Dəm-ā-dəm cənnət-i rūyundə seyr eylər qara zülfün
Tə'əccüb 'əqli kəmlər söləyürlər zülfə kāfirdür

89[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Ey dövlət-i ḫūn 'āşiq içün ḫūn-bəhā nədür
Səndən gər 'āşiq istər isə ḫūn bəhānədür

2. Meḥrāb u məscid olə sənün zāhidā baña
Meḥrāb-ı qaşı səcdəgəh ol āstānədür

3. Zülfin dağıtmə günüm [olu] qarə ey ṣəbā
Kim zār-ı köñlümün quşunə āşyānədür

4. Firdövs ümīdinə köñül aldanmə vā'iẓə
Firdövs vəṣl-i yārdı bāqī fəsānədür

Ḥarfü`z-Zā`

90[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Hər gədā-ṭıynət bir isim ilə sulṭān olmaz
Qurı əngüştər ilə dīv-i Süleymān olmaz

2. Adı Rüstəm olə həm-şəhrīdə Zābil bi`llāh
Bu səbəblərlə həmīn Rüstəm-i dəstān olmaz

3. Hər kəsün adını sulṭān qoyəsən ḫān deyəsən
Bir ad ilə o gedüb Rūṣdə sulṭān olmaz

4. Görünürlərsə tikanlar gözə gər səbz ü çəmən
Līkən ondan gül-i gülzār-ı gülüstan olmaz

5. Bənzəyürsə n`olə nā-şünās əgər insānə
Vəlī nā-şünās gəlüb 'elmdə insān olmaz

6. Gər ağacdan yonasan göstərəsən Sām-süvār
Zū`ī vəqtində gəlüb fāris-i meydān olmaz

---
[1] 174b
[2] 90b
[3] 20b

91[1]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Hər buq'ədə kim 'ārif-i fərzānə tapulmaz
Əlbəttə o vīrānədə mey-ḫānə tapulmaz

2. Gəzsön o yerün hər ṭərəfin gūşə-bə-gūşə
Nə cām nə bādə nə də peymānə tapulmaz

3. Ey māh bugün yerdə cəmālun kimi āyə
Olsun qəsəm ol āyə-i Qur`ānə tapulmaz

4. Zülf-i süḫəni şānələyüb etməgə zīnət
Ṣəd-ḥeyf nə məşşāṭə nə bir şānə tapulmaz

5. Məfqūd olub 'ənqā kimi əhbāb-ı mürüvvət
Seyir eləsən 'āləmi hər yanə tapulmaz

6. Altmış yaş olandə genə bir növ' səḫā var
Bu tāzə cavānlardə ki dərmānə tapulmaz

7. Ġəm çəkmə biyābān isə məskən sənə Żū`ī
Məcnūn olanə qā'idədür ḫānə tapulmaz

92[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Dil oldı qönçə kimi ḥəsrətünlə qan sənsiz
Bəhārım ey gül-i növ-rəstə çün ḫarāb sənsiz

2. Əgərçi ḫəlq-i cəhān 'eyş ü 'işrəti istər
Cəhīmdür baña ey dost bu cəhān sənsiz

3. Gözimə cümlə nə'īm-i cəhān cəhīm gəlür
Nə növ'lən keçəcək bilmürəm zəmān sənsiz

4. Dil istər idi qədün sərvini yüzün güləni
Nə ẕövqi ḫāṭirə yüz bāğ u būstān sənsiz

5. Sən idin ey büt-i məh-rūy cismimün cānı
Nə ẕövq edər dəḫi bu mürdə cism ü cān sənsiz

6. Əgər baña verələr ḥūr u rövże-i riżvān
Behiştə getmənəm ey yār-ı mehrbān sənsiz

7. Təṣəvvür eyləmə kim sənsiz 'eyş edir Żū`ī
İşimdi şām u səḥər nālə vü fəğān sənsiz

93[3]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Baña ol māh-ı bī-mehrim iki ay var ki rām olmaz
Bu nöqṣānım de bir gəlməz əcəl 'ömrim təmām olmaz

2. Vüṣālı təşnəsidim eylədi sīrāb tīğindən

---
[1] 36a
[2] 83b
[3] 93a

Demün kim yārdan ‘uşşāqə ḥāṣil hīç kām olmaz

3. Köñül āhəng-i gülzār et ḫəyāl-i tār-ı zülf ilə
Ki şūr-ı ‘eşqçün ey bī-nəvā belə məqām olmaz

4. Ləb-i dildār tək var bādə-i gül-gūndə gər nəş`ə
Nə sūd ondan ki tīz başə çıḫar qalmaz müdām olmaz

5. Ḥalāl etmiş bizə cām-ı şərābı pīr-i mey-ḫānə
Ḥəbībim vā‘iẓ-i ḫud-bīn-kəlām ilə ḥarām olmaz

6. Cəfā-yı yārdan incimə hərgiz āh u zār etmə
Bu mülk-i ‘eşqdür əlbəttə ey dil bir niẓām olmaz

7. Nədür çəkmək ayaġ əl ṭə‘nəsilə yār kūyından
Məgər bilməzsən ‘āşiqlərdə Żū`ī nəng [ü] nām olmaz

94[1]
mef‘ūlü / mefā‘īlü / mefā‘īlü / fe‘ūlün

1. Hər sādə-ruḫ ey dil o büt-i sīm-tən olmaz
Hər səbz-i nümāyəndə bisāṭ-ı çəmən olmaz

2. Hər büt dəḫi Şīrīn təki şəkkər-şikən olmaz
Hər āşiq-i Ḫosrovvəş[i] həm kūh-kən olmaz

3. Hər ləbdə bulunmaz dəḫi e‘cāz-ı Məsīḥā
Hər bəndə gəlüb Yūsif-i gül-pīrəhən olmaz

4. Hər zülf olamaz rūḥ-fəzā zülfi tək anun
Hər rəngi siyəh nāfə-i müşk-i ḫotən olmaz

5. Ço qədr baña ‘āşiq deyüb ey məh sitəm etmə
Hər tīrə-nəẓər Żū`ī-i ḫūnīn-kəfən olmaz

(Der-Kenār)

6. Hər ‘elmdən āgəh gərək olsun ki desün şe‘r
Żū`ī kimi şā‘ir gəlübən hər yetən olmaz

95[2]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Göz yaşım bəs ki tökür ‘āləm ara qan sənsiz
Qandan āhır salacaq ‘āləmə ṭūfān sənsiz

2. Hār u mātəmkədədür çeşmimə bi`llāh əgər
Eləsəm gəşt-i gül ü seyr-i gülüstān sənsiz

3. Qıl tərəḥḥüm elə bir tīğ ilə səd-pārə məni
Nəyə lāzımdı sər ü cism ü dil [ü] cān sənsiz

4. Gəlməyür çeşminə ḫəlqün gecələr ẕərrə yuqu
Bes ki ey məh qıluram nālə vü əfğān sənsiz

5. Gər yolun düşsə ṣəbā Ağdaşə məndən sölə kim
Verdi cān ḥəsrət ilə Żū`ī-i nālān sənsiz

---

[1] 99a
[2] 102a

96[1]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Ləbün z̤övqi pərī-rūyım şərāb-ı nābdan gəlməz
Bu rövşən əmrdür kim nəş`ə-i mey ābdan gəlməz

2. Nə tökməkdür cəfā tīğilə hər dəm qanın 'uşşāqun
Bu z̤ülm ey dil-bər-i āhū-nigəh qəṣṣābdan gəlməz

3. Məni mən' etmə zāhid ṭāq-ı əbrūsı sücūdından
Kərāmətlər ki qaşından gəlür meḥrābdan gəlməz

4. Ləbün z̤övqi əgər mey-nəş`əsindən gəlməsə yoḫ 'eyb
Ki nūr-ı āftāb əlbəttə kim meh-tābdan gəlməz

5. Cəfā peykānlarılə ġərqədür cismim fəğān etmin
Müşəḫḫəṣdür bu Żū`ī kim fəğān ġərq-ābdan gəlməz

97[2]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Ṣəbr eylə köñül möḥnət-i hicrān belə qalmaz
Nov-rūz olı bu fəṣl-i zimistān belə qalmaz

2. Olmaz belə 'üryān dəḫi əṭfāl-i şükūfə
Cümlə geyünür ḫəl'ət-i əlvān belə qalmaz

3. Bir gün olı kim Miṣr-i ḥökūmətdə olur şāh
Çāh-ı ġəm ara Yūsif-i Kən'ān belə qalmaz

4. Nə z̤illət-i dünyā qalı dā`im nə cəlālı
Övrəng-i Cəm [ü] təḫt-i Süleymān belə qalmaz

5. Odlarə əgər saldısə Nəmrūd vəlīkən
Nār oldı Birāhīmə gülüstān belə qalmaz

6. Bu cism ilə cāndan ötəri çəkmə çoḫ əfsūs
Topraq olacaq cism dəḫi cān belə qalmaz

7. Bir ḥāl ilə qalmaz bu ṣifət dövr-i zəmānə
Āḫır dəgişər gərdiş-i dövrān belə qalmaz

8. Fikr etmə ki dā`im qalı bu dövlət ü nikbət
Təğyīr tapar müşkil ü āsān belə qalmaz

9. Żū`ī kimi çoḫ çəkməgilən āh u fəğānı
Ṣəbr eylə köñül möḥnət-i hicrān belə qalmaz

98[3]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Ey māh bu gün sən kimi meh-pārə tapulmaz
Nə mən kimi dünyādə güni qarə tapulmaz

2. Cəllād-ı siyəh-məst gözün tək bu cəhāndə

---

[1] 103b
[2] 132a
[3] 134b

Bir āhū-yı şīr-əfkən ü ẖūn-ẖᵛārə tapulmaz

3. Qāni‘di köñül bir qurı nəẓẓārəyə ẖeyrçün
Cövr-i sitəmindən rəh-i nəẓẓārə tapulmaz

4. Zəẖm-i dil-i ṣəd-pārəmə Qānūn Şifādan
Aẖtarson əgər ẕərrə qədər çārə tapulmaz

5. Ṣəḥrā-yı ġəm ü möḥnəti başdan başə gəzsön
Bir mən kimi möḥnət-zədə-āvārə tapulmaz

6. Çün dərc-i dəhānundı ‘əlācım gər əṭibbā
Yoẖdur dedilər çārə bu bī-çārə tapulmaz

7. Żū`ī dolə mərhəmlə şifā-ẖānə-i dünyā
Mərhəm dil-i ṣəd pārə-i mən zārə tapulmaz

99[1]
mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

1. Cəhāndə hīç cövhər-bādə kimi ẖˇoş-güvār olmaz
Ki hər bir şəẖsi təşẖīṣ etməgə kâmil-‘əyār olmaz

2. Ḫumārə dəgməyür sāqī ṣəfāsı verdigün cāmun
Əlim dut ol ayaġ ilə ki başındə ẖumār olmaz

3. Müdām olmaq gərək nə sūd içüb mey bir dəm oldun şād
Cəhāndə bu məs̱əldür bir gül ilə növ-bəhār olmaz

4. Cəfādan incinüb ey dil fəğānə gəlmə bülbül tək
O hansı güldi kim pīrāmənində ẖüşk-i ẖār olmaz

5. Ruẖ u gīsū-yı dil-bər görməyən gün gün ḥesāb etmə
Qaranqusız gecə ẖᵛurşīdsiz Żū`ī bəhār olmaz

100[2]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. Hər kim ki nəş`ə-i mey-i ṣəhbānı anlamaz
Bi`llāh ki ẕövq-i Kövsər ü ḥūrānı anlamaz

2. Hər kəs ki lālə-i ruẖ-ı dildārə meyli yoẖ
Ḥəqqā ṣəfā-yı bāğ u gülüstānı anlamaz

3. Zāhid ki etməyüb həvəs sər ü qāmətün
Firdövs içində sidrə vü ṭūbānı anlamaz

4. Ḫüm sāyəsində meykədədə məst yatmayan
Ḥūr u qüṣūr-ı rövże-i riżvānı anlamaz

5. Ādāb-ı ẖidmət-i Ḥəqi zāhid haçan bilər
Dünyādə çünki ẖidmət-i insānı anlamaz

6. ‘Uqbādə Żū`iyā nə bilür ẕövq-i cənnəti
Hər kəs cəhāndə ləẕẕət-i dünyānı anlamaz

Ḥarfü`ş-Şīn

---
[1] 165b
[2] 171b

101[1]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

Vələhu Eyżən

1. Bi-ḥəmdi`llāh cəhāndə tāzədən fəṣl-i bəhār olmuş
Sitəbrəq-pūş u sündüs-cāmə dəşt ü kūhsār [olmuş]

2. 'Anādil ẓāhir etmiş ḫəlqə āhəng-i Nəkīsānı
Həzārān ləḥn kūya Bārbəddən yādgār olmuş

3. Açub riżvān behişt-i 'ədn bā-pāy ṣəḥn-i gülzārə
Ki تجری تحتها الانهار u cənnət āşkār olmuş

4. Fələk ki ḫosrovı çəkmiş kəmān-ı Rüstəm-i çərḫə
Cünūd-ı bəhmən ü isfənd ü dey māhı firār olmuş

5. Geyüblər ḫəl'ət-i ḫəżrā cavānān-ı çəmən Żū`ī
Dür-i jālə gülüstān içrə gül üzrə niṡār olmuş

102[2]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Genə pīrānəsər dil-mürği bir şūḫə nigār olmuş
Pərīşān zülfi tək hicrində dāim bī-qərār olmuş

2. Ləbi şövqi mey-i gül-nār tək məst eylər 'uşşāqı
Bu mə'nīdən mənim tək çoḫları məst ü ḫumār olmuş

3. Nə mən nə bülbül-i şūrīdə nə pərvānə 'āşiqdür
Neçə yüz lālə-ruḫ ol gül-ġəmində dāğdār olmuş

4. Bəhār-ı ömrim ey növ-gülbün-i bāğ-ı məlāḥət ḥeyf
Ḫəzān oldı nə sūd ondan cəhān tāzə bəhār olmuş

5. Köñül tərk eyləmə cām-ı şərāb-ı 'eşqi tā məḥşər
Ki bu mey-məsti ġəm bilməz cəhāndə hūş-yār olmuş

6. Cəmāl-i yārdur Żū`ī təməttu'dār dünyādə
Ki əhl-i mə'nā içrə bu mətā'ə e'tibār olmuş

103[3]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Yüzüni zülfi içrə elə ol sīmīn-bədən dutmuş
Görən sölər ki məhdür bürc-i əqrəbdə vəṭən dutmuş

2. Ḫərīdār-ı mətā'-ı ḥüsnün ey ḫ^vurşīd-rū dil-bər
Bir əldə dīn-i dünyānı bir əldə cān-ı tən dutmuş

3. Ruḫ-ı rəḫşān u çeşm-i fitnə-əngīzün görən sölər
Ki rūy-ı ṣəfḥəsində məskən āhū-yı ḫotən dutmuş

4. Yüzün dövrində müşkīn-ḫəṭ midir ey gül sənün yā kim

[1] 28a; 58a
[2] 79b
[3] 103a

Kənār-ı mülk-i dīni ḫayl-ı rəng-i[1] Əhrimən dutmuş

5. İlāhi var mı Żū`ī tək cəhān bağındə ġəm çəkmiş
Gecə gündüz melek-i dərd ü ġəm qüṣṣə-i ḫūn dutmuş

104[2]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Tā köñül meyl-i ruḫ u zülf-i pərīşān etmiş
Qayd u zəncīrə düşübdür deyəsən qan etmiş

2. Baḫun ol büt işinə rūyınə qoymuş zülfi
Kāfiri ḫāzən-i gəncīnə-i īmān etmiş

3. Bəs ki ẕikr-i dəhəni düşdi ağızdan ağızə
Səbəb oldur ki nəẓərdən onı pünhān etmiş

4. Sən nə səḥḥārsan ey məh ləb-i lə'lün 'eşqi
Gözlərimdən tökülən lü`lüyi mərcān etmiş

5. Ey baña ṭə'nə edən bir düşəsən hicrānə
Görəsən tā ki nələr Żū`iyə hicrān etmiş

105[3]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Bəzm içrə ẕövq olur mı o məh-ṭəl'ət olmamış
Şəhd-i ləbindən 'āşiq içün şərbət olmamış

2. Ṣəd-ḥeyf saldı firqətə dövrān-ı kəc-mədār
Ol məh bənimlə bir gecə həm-ṣöḥbət olmamış

3. Rāh-ı ṭələbdə bār-ı cəfāyə təḥəmmül et
Rāḥət olur mı dəhrdə tā zəḥmət olmamış

4. 'Eşq içrə ḫidmət eylə vüṣāl istəsön əgər
Tarı verür mi cənnətini ṭā'ət olmamış

5. Gör nəfs içün 'ibādətini zāhidün haçan
Başın əgərdi səcdəyə gər cənnət olmamış

6. Yüz il 'ulūm-ı ḥikməti cəm' eyləsön əgər
'Āləm saña səfeh der [əgər] dövlət olmamış

7. Dünyā köçübdi āḫirətə bir ẕəḫīrə qoy
Cān nəqdi Żū`iyā nə qədər ġārət olmamış

106[4]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Əzəldə olmə idi ḫilqət-i cəhān ey kāş
Cəhān içində dəḫi bu bəlā-yı cān ey kāş

2. Nə dövr-i gərdiş-i gərdūn olaydı nə əyyām
Nə āftāb nə əncüm nə āsmān ey kāş

---

[1] reng-i: reng ü
[2] 103b
[3] 114b
[4] 127a

3. Nə gül nə bülbül olaydı nə gülsitān gülşən
Nə növ-bəhār nə gülzār nə ḫəzān ey kāş

4. Nə ḥüsn olaydı nə ‘āşiq nə vəṣl nə hicrān
Nə şūr-ı ‘eşq ü məḥəbbət nə imtaḥān ey kāş

5. Nə ḫüld olaydı nə ādəm nə ḥīlə-i şeyṭān
Nə əmr ü nəhy nə təqdīr-i kun fəkān (?) ey kāş

6. Nə eyləyəydi pərəstiş bu ḫəlq sīm ü zərə
Olaydı pūl bu məḫlūqdan nihān ey kāş

7. Gözətlə Żū`ī cəhān nūr-ı ‘elm ilən parlar
O vəqtdə olubsan (?) çün sən nihān ey kāş

107[1]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. İmdi bildim ki cəhān mülki nə vīrānə imiş
Hər nə ‘eyş ü ṭarabı var isə əfsānə imiş

2. ‘Eyş ü ‘işrət ilə çoḫ vəqt keçürdüm ammā
İmdi bildim bu ḫarābə necə ġəm-ḫˇānə imiş

3. Zāhidün səcdəsi Allāhımə dögül vallāh
Nəfs-i əmmārəsinə ḥūrī vü ġılmānə imiş

108[2]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Eşitdim ol büt-i nā-mehrbānım bādə-ḫ∨ār olmuş
Mey içmiş ġeyrlərlə məst-i cām-ı ḫˇoş-güvār olmuş

2. Gözim peymānəsin doldurdı hər dəm bağrımun qanı
Nöçün kim ḫəlq sölərlər filānı mey-güsār olmuş

3. Mey-i gül-nārdan derlər olubdur lālə-gūn rūyı
Bunun rəşkilə köñlüm lālə nisbət dāğdār olmuş

Ḥarfü`ṭ-Ṭā`

109[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Dəhən-i yār deməк çeşme-i ḥeyvānı ġələṭ
Varə təşbīh yoḫ etmək olur ə‘yānī ġələṭ

2. Ṣūrət-i vāqi‘əmə nār-ı cəhənnəm söləyür
Kūrdu zāhid oḫur āyə-sūrə-rəḥmānı ġələṭ

3. Ayə təşbīh eləyən ḥüsn-i ruḫ-ı cānānı
Oḫudı ṣanki ‘əbəs̱ āyə-i Qur`ānı ġələṭ

4. Məryəm ü rūḥ-ı Qüdüs ‘Īsā üçi bir sözdür
Üç deyən səhv eləyübdür oḫuyur sānı (?) ġələṭ

---
[1] 85b-78a
[2] 112a
[3] 137a

5. İctihād ilə gərək Żū`ī kişi ‘āləmdə
Bağlanan riştə-i təqlīdədi īmānı ġələṭ

Ḥarfü`l-Ḳāf

110[1]
mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

1. Ḫˇoş ol günlər ki biz məḫluqdan bīgānə olmuşduq
Qələndərvār dāim sākin-i mey-ḫānə olmuşduq

2. Olub sər-məst bilmirdüq nədür nīk [ü] bəd-i dünyā
Bu məcnūnluqlə məḥrəm məclis-i ‘ürfānə olmuşduq

3. İçüb mey məst olub ‘āləm-ġəmin bir ẕərrə çəkməzdük
Ḥəqīqət ‘āləmində ‘āqil ü fərzānə olmuşduq

4. Götürmişdüq köñüldən nəng [ü] nām u ‘ār sevdāsın
Diyār-ı ‘eşqdə Məcnūn ilə həm-ḫānə olmuşduq

5. İlāhī bir də mümkündür mi görmək eylə əyyāmı
Ki bilmirdük ġəm adın Żū`ī tək dīvānə olmuşduq

111[2]
mef‘ūlü / fā‘ilātü / mefā‘īlü / fā‘ilün

1. ‘Āşiq olan əgərçi edər āh [u] zārlıq
‘Āşiqə ḫˇoşdı yār yolundə nizārlıq

2. ‘Uşşāqun almaz āynə-qəlbini jəng-kədər
Hər yerdə olsə gün o yerə yoḫdı tārlıq

3. Nə vəṣldə nə hicrdə ‘āşiq qərār edər
Zülf-i nigār tək eləyər bī-qərārlıq

4. Cövr ü cəfā-yı yārdur ‘eşqə məḥək əgər
Ṣəbr etməsə ẓuhūrə gəlür kəm ‘əyārlıq

5. Ḫüm-ḫānə-i cəhāndə ḫarābāt-ı dəhrdə
Sər-məst-i ‘eşq olandədi çün hūş-yārlıq

6. Hər dəm baḫub cəmālıvə gər ağlasam n`olə
Ḫˇurşīdə baḫsə kimsə edər əşkbārlıq

7. Məcmū‘-ı yār olmuşam əğyārə ey pərī
İnṣāfdur sən eyləyəsən ġeyrə yārlıq

8. Gər rūzgārdan eləsöñ şəkvə ‘āqibət
Rəsmin pozub edər mi bizə sāzkārlıq

9. Hər növ‘ cövr gər gələ ṣəbr eylə Żū`iyā
Ḫˇoşdur o gül yolundə nə qədr olsa ḫārlıq

112[3]
mefā‘īlün / mefā‘īlün / fe‘ūlün

---

[1] 120b
[2] 125b
[3] 133a

1. Ẓuhūr etmiş cəhānda bī-vəfālıq
İtübdür rāh-ı rəsm-i āşnālıq

2. Açar hər bir ẖəsīs-ədnāyə imdi
Fəżīlət ṣāḥibi dəst-i gədālıq

3. O kəs kim ʻārif ü fāżildi görməz
Ġəm ü fəqrün əlindən bir rəhālıq

4. O kəs kim cāhil ü əbləhdi eylər
Büsāṭ-ı dövlət içrə pādşāhlıq

5. Əgər şāʻir desə bir şeʻr-i şīrīn
Çəkər min ṭəʻnə-söz yüzi qaralıq

6. Olub bir ʻəks-i övżāʻ-ı zəmānə
Gədā şəhliq qılur şəhlər gədālıq

7. Tapupdur gövhər-i ʻelm ü fəżilət
Bu günlərdə ʻəcā`ib bī-bəhālıq

8. Bu bidʻətlər ki var ẖəlqün içində
Ḫudā verməz belə əmrə rıżālıq

9. Təḥəmmül eylə Żū`ī yoẖdı təğyīr
Təmām işlərdi təqdīr-i qəżālıq

113[1]

feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

1. Nə bilim dəhrdə āẖır belə dövrān oləcəq
Əhl-i ʻürfān bu ṣifət zār u pərīşān oləcəq

2. Məʻrifət ʻelm ẖəlā`iq nəẓərindən düşübən
Dīdə-i ẖəlqdən ʻənqā kimi pünhān oləcəq

3. Bāğ-ı cənnət kimi ʻāləm boşalub ādəmdən
Məskən-i dīv ü dəd ü ğūl biyābān oləcəq

4. Hər dənī-ṭəbʻələr ʻāləmdə olub dövlətmənd
Ṣāḥib-i ʻizz ü şərəf bī-sər ü sāmān oləcəq

5. Ḥātəm ü ḥökmdən āvārə Süleymān düşübən
Ṣaẖr təẖt-i şərəfə ṣāḥib-i dīvān oləcəq

6. Edəcək ẖānə-nişīn ṭāliʻ-i bəd Bəhrāmı
Bī-hünər Zāl gəlüb Rüstəm-i dəstān oləcəq

7. Ṣavt-ı bülbül dönəcək belə nəfīr-i zāğə
Gül ü gülzār-ı cəhān ẖār-ı muğīlān oləcəq

8. Qara pūl ḥəsrəti ilə ağarub çeşm-i ümīd
Ārzū-yı mey-i gül-gūnlə cigər qan oləcəq

9. Daẖmədür çün yerün āẖırdə yoẖə ṣəbr elə
Ṭāq-ı Kisrā hanı ʻāləm hamı vīrān oləcəq

[1] 134b

10. Mülk-i dünyāyə nə məğrūrsan ey ṭālib olan
Bu cəhān āẖırı bir köhnə dəgirman oləcəq

11. Dögi pāyəndə nə ʻömr ü nə ḥökūmət Żū`ī
Yer ü gök küllüsi āẖırdə ki min qan oləcəq

114[1]
feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

1. Bu cəhān yā Rəb haçan rövże-i riżvān oləcəq
Cəhl-i ẓülmət qutarub məʻdən-i ürfān oləcəq

2. Məḥv olub ləfż-i ədüvvāt qutarə ḥīlə-i məkr
Şeyṭānət rəsmin atub cümləsi insān oləcəq

3. ʻĪsəvī Mūsəvī vü Sünni Şīʻə qutarub
Məʻrifət kəsb qılub cümlə müsəlmān oləcəq

4. Gəldi ādəm bu yerə dözmədi bir şeyṭānə
Bilmədi burda təmām ādəm-i şeyṭān oləcəq

5. Söləyüblər ki cəhānə gələcək bir Dəccāl
Bilməyüblər ki mülḥid (?) (?) nədən firāvān oləcəq

6. Neylərəm gülşən [ü] gülzārı ki seyr etdükdə
Hər tərəf zāğ [u] zəġan bāng-ı nümāyān oləcəq

7. Nūḥ ṭūfānını saẖlardı bugünçün Żū`ī
Gər bilirdi ki cəhāndə belə tūğyān oləcəq

115[2]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Nə ẖˇoşdur bir gözəl dil-bərlə həm-bəzm-i şərāb olmaq
Ḫarāb-ābād-ı dünyādə içüb məst ü ẖarāb olmaq

2. Ləbi şövqilə göz-peymānəsin qan ilə doldurmaq
Cəmāl-i ātəşīn ʻeşqilə hər dəmdə kabāb olmaq

3. Ḫəṭ-i dildārdan dā`im alub dərs-i kəlāmu`llāh
Cəmālı muṣhafın vird eyləyüb əhl-i kitāb olmaq

4. Görüb yüz dāğ bir ẖᵛurşīd içün min daşə baş urmaq
Olub rəngīn-cigər qan ilə bir ləʻl-i ẖˇoş-āb olmaq

5. Əgərçi mey günāh olmaq bizə naṣṣ ilə s̱ābitdür
Vəlī yār ilə mey-nūş eləyüb əhl-i s̱avāb olmaq

6. İçüb pīrānəsər bir sāqī-i ḥūrīvəşün cāmın
Olub daẖil behiştə tāzəlikdən şeyẖ [ü] şāb olmaq

7. Əgər bir əhl-i ḥāl olsə mey iç ʻeyş eylə Żū`ī tək
Ḫəṭādur bī-sər ü pālə içüb əhl-i ʻəẕāb olmaq

Ḥarfü`l-Kāf

[1] 139a
[2] 165b

116[1]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Əl üz ey məh cəfādan rəh-güẕār-ı ẓülmdən pā çək
Nə cövr et 'āşiq-i zārə nə fəryādından īẕā çək

2. Həvā-yı lə'l-i ruḫsārından ey ḫun-gəştə köñlüm keç
Nə sūz-ı ātəş-i pünhānı gör nə rənc-i beydā çək

3. Nə yād et 'āriż-i gül-fām nə zülf-i pərīşānın
Nə ḫūnīn-əşk-rīz ol nə bəlā vü rənc-i sevdā çək

4. Ze-bəs səngīn dil 'āşiq-keş ü bəd-ḫūdur ol məh-rū
Nə vəṣlə dut ümīd ey dil nə āh [u] zār bī-cā çək

5. Nədür bir bī-vəfā 'eşqinə ey qanə dönən köñlüm
Yetən hər nā-kəs ü bī-fəhmdən ṭə'n ü tə'əddā çək

6. Ġəm-i hicr-i ləb-i dildārə nāfi'-bādədür Żū`ī
Ayağın sāqīnün öp bī-təvəqquf başə ṣəhbā çək

117[2]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Məcnūn oluram ol büt-i məh-peykəri görcək
Əlbəttə ki məcnūn olu mərdüm pərī görcək

2. Bilmən ki baña nāz eləyür yā ki sitəmdür
Ġāfil ki ötər yār mən-i müżṭəri görcək

3. Hər ləḥẓə ki görsəm dilərəm lə'lüvi öpmək
Ṭūṭī nə təḥəmmül eləsün şəkkəri görcək

4. Qovruldı köñül zülfüvi rūyundə görən dəm
Müslim necə beytu`llāh ara kāfiri görcək

5. Qurbānun olum gəl bu qədər etmə təġāfül
Qurbānun olan Żū`ī-i ġəm-pərvəri görcək

118[3]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Nə dildə ṣəbr qoyubdur nə əldə cām fələk
Gözün qarasunı dutsun yüzün ẓəlām fələk

2. Məni ki şəhrdən ey māh saldı āvārə
Bu gündə eylədi kəc-rov yəqīn təmām fələk

3. Gözim sitārə-fəşāndur bu ġüṣṣədən hər şəb
Ki hansı bürci edüb ol məhə məqām fələk

4. Rəmīdə etdün əgərçi ḫəṭā ilə məndən
Rəqībə bārī ol āhūnı etmə rām fələk

5. Əlimdən aldun o ḫᵛurşīd-i 'āləm-ārānı
İşıq günim dəḫi çoḫ etmə tīrə-şām fələk

---

[1] 95a
[2] 95b
[3] 112b

119[1]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Növ-bəhār oldı ələ gülşəndə cām almaq gərək
Cām dövrində fələkdən intiqām almaq gərək

2. Baḫmamaq zāhid sözinə mey ayağın sāqīdən
Gülşən içrə gər ḥalāl u gər ḥarām almaq gərək

3. Səlsəbīl-i bādədür rində təsəlsül gözləyüb
Dəm-bə-dəm sā'ət-bə-sā'ət ṣübḥ [ü] şām almaq gərək

4. Hanı Cəm n`oldı Sikəndər fürṣəti fövt eyləmə
Ey dil-i dīvānə bunlardan niẓām almaq gərək

5. Yatmə Żū`ī yoḫ s̱əbātı bu cəhānun cəhd edüb
Āḫirətdə lüṭuf-ı ḥəyyü`l-əyām almaq gərək

120[2]
məfā'īlün / məfā'īlün / məfā'īlün / məfā'īlün

1. Nə ḫ̌oşdur bir müvāfiq yār ilə gül-gəşt-i bāğ etmək
Gəzüb seyr eyləyüb hər yanə təfrīḥ-i dimāğ etmək

2. Ġubernat bāğı içrə kəs̱rət-i ġılmān [u] ḥūrādan
Vücūdun kəm qılub hər ḥūrdan yārın sorağ etmək

3. Həzārān lālə-ruḫ hər gūşəsində yüz qəmər-ṭəl'ət
Görüb bu ḥālı ḥəsrətdən dil-i pür-ḫūnı dāğ etmək

4. Bu müşkīn-mūy u nəsrīn-rūy tərsā-bəççelər bi`llāh
Alurlar dīni əldən bunlar ilə nə səyāġ etmək

5. Ḥəmā`il eyləmək bir ağ cəmālun qara gīsūsın
Keçən möḥnətlə qarə günləri 'işrətlə ağ etmək

6. Bəhār etmək səmən-bərlər vüṣālı ilə bāğ içrə
Ḫəzān-ı möḥnət-i hicrānı ḫāṭirdən uzaġ etmək

7. Ələ almaq ayağımı o yerdə bir pərī-rūlə
Verüb baş başə Żū`ī tək iki baş dörd ayaġ etmək

121[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Bəstə-i ṭürrə-i cānānə ki derlər o bizük
Boynı zəncīrli dīvānə ki derlər o bizük

2. O gülün öpmek içün cām-ı ləb-i mey-gūnın
Sākin-i gūşə-i mey-ḫānə ki derlər o bizük

3. Döndürən səcdə içün pāy-ı ḫamı (?) meḥrābə
Səccəsi gərdiş-i peymānə ki derlər o bizük

4. Bir sınıq cāmə verin zühd ü riyā ḫirqəsinə

---

[1] 126b
[2] 166a
[3] 117b

Yol tapan məḥfəl-i ʻürfānə ki derlər o bizük

5. O məhə çadrə salun gecələr yanmaq içün
Şəmʻ-i ruḫsārınə pərvānə ki derlər o bizük

6. Żū`iyā zülf-i ʻarūs-ı süḫənin zīvərinə
Hansı şāʻir sözidür şānə ki derlər o bizük

Ḥarfü`l-Lām

122[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Növ-bəhār oldı genə seyr-i ṣəfā istər köñül
Səbzələr tək bādədən nəşv ü nəmā istər köñül

2. Dəm-bə-dəm gülşənlər içrə bülbül-i şūrīdə tək
Ərganūn u tārdən şūr u nəvā istər köñül

3. Ḥūrī tək məhbūbı Kövs̱ər tək şərābı bāğda
هذه جنّات تجرى تحتها الانهاره istər köñül

4. Niyə ḥūr u Kövs̱ər istər zāhid-i ḫūd-bīn vəlī
Cām-ı Kövs̱ərvəş büt-i ḥūrī-liqā istər köñül

5. Verdi cān Fərhād Şīrīnün vəfāsın görmədi
ʻƏqlə baḫ gör māh-rūlərdən vəfā istər köñül

6. Vəṣl-i dildār aḫtarur hicrānə ṣəbr etmüb genə
Anlamub təqdīr-i təğayyür qəżā istər köñül

7. Cām u cīb ü kīsə ḫālī Żū`ī-i bī-çārə tək
Cām-ı bādə vəṣl-i sādə bī-bəhā istər köñül

123[2]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Dönsün yeridi ġönçə kimi qanə ey köñül
Kim ṣəbr edər bu növʻlə hicrānə ey köñül

2. Zəncīr-i tār-ı zülfünə çün çatmayur əlün
Ölsün rəvādı mən kimi dīvānə ey köñül

3. Çün səndə yoḫdı Nūḥdan artuq bəlāyə ṣəbr
Ver göz yaşunlə ʻāləmi ṭūfānə ey köñül

4. Bir ləḥẓə qoymadun məni āsūdə dəhrdə
Gəldim əlündən āḫırı mən cānə ey köñül

5. Sən bilmədün ki āḫırı bəḫti qara olur
Bənd olsə kimsə zülf-i pərīşānə ey köñül

6. Hīç bir ʻəlāc möḥnət-i hicrānə tapmuram
Fikr eylərəm nə qədr ilə hər yanə ey köñül

7. Vəṣlində hicr ātəşini yādə salmadun
Qal Żū`ī tək bu gündə yanə yanə ey köñül

---

[1] 40a; 131b
[2] 83b

124[1]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Şəm'-i ruẖsārıña meyl eylədi dīvānə köñül
Saldı gör kim özini ātəş-i sūzānə köñül

2. Demədim mi saña kim zār u pərīşān olusan
'Āşiq olmə o sər-i zülf-i pərīşānə köñül

3. Lüṭf edüb eylədi əfzūn baña ol məh sitəmin
Demisən yoẖsə ġəm ü dərdüvi cānānə köñül

4. Şəb-i hicrān elədün mərg-təmənnāsını sən
Etmədün tāb məgər ātəş-i hicrānə köñül

5. Bəs ki ruẖsārı ẖəyālıylə keçür ovqātım
Odı Żū`ī səbəbi dönməginün qanə köñül

125[2]
Fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Bāğ u gülşən gūşə-i mey-ẖānə tək ẖürrəm dögül
Cām-ı mey tək hīç şey` dil-zəẖminə mərhəm dögül

2. Ġəm odur ki olmuyə cām-ı şərābə nəqdimiz
Bādə olsun tək nə qədri möḥnət olsə ġəm dögül

3. Ḫāṭir-i Ḥəvvā içün Ādəm buraẖdı cənnəti
Ḫᵛāhiş-i yārı sər-əncām etməyən ādəm dögül

4. Sāqiyā mey ver ki yārə dərd-i dil iẓhār edim
Meydən özgə hīç kəs dil-sirrinə mərḥəm dögül

5. Çoẖ ayağə salmə ey gül al ələ bir lüṭf qıl
Żū`īnün köñlin ḥəqīqət cām-ı meydən kəm dögül

126[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Sən təki bir gözəl olmaqlıqə nəqqāş-ı əzəl
Gecə gündüz məh ü ẖᵛurşīdə verür yüz ṣayqəl

2. Əcəlün əvvəli cān içrə əgər olmayaydı
Necə səndən məni ey cān aralar tīğ-i əcəl

3. Cām-ı sər-şārı dönəm başıña sāqī mənə ver
Məndən özgə nə rəvādur bu ayağə dəgə əl

4. Nə içün yoẖ sözi təşbīh qılublar varə
Ləb-i mey-gūnuvı cān verməgə 'Īsāyə məs̱əl

5. Sanmə zāhid yetüşürsən bu 'əməllə ẖüldə
'Eşqdür ṣidq gərək mundə itər məkr ü ḥiyəl

6. Susuyub Kövs̱ərə öz nəfsivə etdün ṭā'ət

---

[1] 104a
[2] 124a
[3] 167b

Zāhidā ādəmi cənnətdən atar sū`-i ʻəməl

7. ʻƏql ü cān pīç ü ẖəm-ı zülfdə sər-gərdāndur
Yüz ağız açsə də şānə belə müşkil olı ḥəll

Ḥarfü`l-Mīm

127[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Gecələr kim qayd-ı zülfüñ ey pərī yād eylərəm
Tā səḥər dīvānələr tək ay u fəryād eylərəm

2. Ṣanmə kim ol bādə`-i gül-fāmə vardur rəğbətim
Köñlümi qan içməgə hicründə muʻtād eylərəm

3. Rūz-ı vəṣl ol ṣūẖə qurbān olmadun ey cān dəẖi
Şām-ı hicrān mən saña sanmə ki imdād eylərəm

4. Vəʻdə-i vəṣlün şəb-i hicrāndə təkrār eyləyüb
Bu firīb ilə dil-i məḥzūnumı şād eylərəm

5. Ləẕẕət-i qaydun ḥarām oldı baña ey sərv kim
Söləmişdün ol əsīri bir gün āzād eylərəm

6. Məndən artuq eyləyür səndən şikāyət āşikār
Cövr ü bī-dādundan ey məh hər gecə dād eylərəm

7. Dāğ-ı hicrān ilə ol şīrīn-ləbün gər cān verəm
Kūh-kən tək Żū`iyā mən daẖı bir ad eylərəm

128[2]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. H̬ˇoş ol zəmān ki ol məh ilə həm-zəbān olam
Hər sözdə bir dilim dutulub nā-təvān olam

2. Şīrīn qılə məẕāqımı şəhd-i təkəllümi
Dövr-i ruẖundə zülfi təki kām-rān olam

3. Bir mūr qədri hīç Süleymānı bilmənəm
Kūyındə itlərinə əgər pāsbān olam

4. Āzād o gün olur ġəm ü əndūhdən köñül
Kim ṣayd-ı tīz ol büt-i nā-meḥrbān olam

5. Dāim firāqdə budur övrādı Żū`īnün
H̬ˇoş ol zəmān ki ol məh ilə həm-zəbān olam

129[3]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Ṣəbā yetür mən-i dil-ẖəstədən dürūd u səlām
Ədəblə ḥāk-ı dərindən öpüb qılım ikrām

2. O bəḥr-i fəżl ü kəmālāt Seyyid-i zārə

---

[1] 40a; 87a
[2] 40b; 101a
[3] 40b; 104b

Səlāmlar sölə ṭəbəqində mużmər olə sə lām[1]

3. Səlāmdan sora ʻəczinlə ʻərż-i ḥāl elə
Əgərçi köñli olubdur miṡāl-i səng-i ruḫām

4. Ki ey həmīşə bəlā-günlərində ġəm-ḫᵛārım
Verən iyāric-i güftārı köñlümə ārām

5. N`olubdı kim bu ṣifət məḥv olubdı ḫāṭirdən
Sənün rəfīq-i qədīmün bu Żū`ī-i kəm-nām

6. Məgər ki belə olur rəsm-i dostlıq āḫır
Əyā şəhənşəh-i Ḫosrov rəhi vü şāh-ı qulām (?)

7. Mən-i şikəstəyə səndən nə vəqtlərdi ki yoḫ
Nə qāṣid ü nə pəyām u nə kāğəẕ ü nə səlām

8. Mənim bu növʻ dögüldi ümīdim ey Seyyid
Ki hīç aparmıyasan Żū`ī-i ḥəzīndən nām

9. Məgər genə səni bir müşk-būy-āhūnuñ
Qara gözi həvəsilə basubdı cəng ü ẓəlām

10. Məgər ki bir büt-i gül-çöhrənün qara zülfi
Yolundə tāzə genə Seyyidā qurubdur dām

11. Ṣəbā sölə özün ol ġāfil-i dil-āgāhə
Ki ġāfil olmə əḥibbādan ey rəfīq-i müdām

12. Məqām-ı mehr ü məḥəbbətdə rəsm-i dīrīndür
Həmīşə ḥālət-i əḥbābı qılmaq istifhām

13. O bādələr ki içürsiz bu Żū`īdən ayru
Edə behişt şərābı kimi İlāhi ḥarām

130[2]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Tā görməgə ruḫsārun o kūyə həvəs etdim
Mūsā kimi ol kūydan əḫẕ-i qəbəs etdim

2. Ol gün ki gözim Yūsifimün görmədi rūyın
Yəʻqūb-ı ḥəzīn-nāləsin ʻāləmdə pəs etdim

3. Ol pādşəhim bādəyə meyl etdügi gündən
Cān nəqdini hər şāmdə nəẕr-i asəs etdim

4. Gül ḫārə ənīs oldı vü ḫəslər baña həm-dəm
Āḫırdə gözəl ʻömrimi gör ḫār u ḫəs etdim

5. Tā etməyə āyīnə-i ruḫsārıvı petrə
Āḫır nəfəs-i ʻömrdə ḥəbs-i nəfəs etdim

6. Fərhād ilə Məcnūn qaçubən çöllərə düşdi
Żū`ī kimi bu ʻərṣədə mən tā ki səs etdim

---

[1] Vezin bozuk.
[2] 41a; 110a

131[1]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. 'Āşiqlər içün vüslətə tədbīr nə lāzım
Təqdīr-i qəzā kārınə təğyīr nə lāzım

2. Təqsīrimün is̱bātınə şāhid tələb etmə
Bir şāh ki zālim olə təqsīr nə lāzım

3. H̱əṭṭüñ nə rəvā muṣḥaf-ı ruẖsārıña gəlmək
Bu rövşən olan āyətə təfs̱īr nə lāzım

4. Ġeyẓ ilə baña qaş əgüb etmə belə baẖmə
Bu küştə-i hicrānıvə şəmşīr nə lāzım

5. Vüṣlət dəmidür sāqī gətür cām pey-ā-pey
H̱eyr işdə gözim nūrı bu tə`ẖir nə lāzım

6. H̱üm-ẖüm baña ver bādəni ey sāqī piyālə
Bu köhnə ḥərīfə belə bir bir nə lāzım

7. Zāhid baña satmə bu riyānı get özün sən
Żū`ī kimiyə ḥīlə vü təzvīr nə lāzım

132[2]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Ey şūẖ saña rūz-ı əzəl yār mən oldım
Dām-ı sər-i zülfündə giriftār mən oldım

2. Pərvīn saçub ey māh gözimdən gecə dā`im
Hicrində s̱üräyyā kimi bī-dār mən oldım

3. Şād oldılar əğyār vüṣālunlə həmīşə
Hicründə şəb ü rūz dil-əfkār mən oldım

4. Āvāze-i hüsnün ki təmām āləmi dutdı
Ey māh bu şöhrətdə səbəb-kār mən oldım

5. Bādām-ı siyəh-çeşm ilə 'innāb-ı ləbünçün
Hər ləḥẓədə cān verdim o bīmār mən oldım

6. Leylā kimi sən pərdə-i 'ismətdə oturdun
Məcnūn-ı sər-i kūçə vü bāzār mən oldım

7. Lə'lün həvəsində hamı cān verməgə qaçdı
Bu 'ərṣədə ey yār vəfādār mən oldım

8. Dīvānə şifət sən pəriyə 'āşiq olandan
Nāmūsı buraẖdım belə bī-'ār mən oldım

9. Əz-bəs ki ləbün ẕikri dilim əzbəri oldı
Cümlə şü'ərā içrə şəkərbār mən oldım

10. Dərk eyləmədim hīç təcəllā-yı cəmālun
Mūsā kimi gər ṭālib-i dīdār mən oldım

[1] 41b; 110b
[2] 41b; 113a

11. Żū`ī kimi bənd-i girih-i zülfüñə düşdim
Āşuftə-i ol ṭürrə-i ṭərrār mən oldım

133[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Ey məh vüṣālıña çəkübən ḥəsrət ağlaram
Yandurdı cism-i cānımı bu firqət ağlaram

2. Mən ağlaram əgərçi baña 'eyb edərsə ḫəlq
Bi`llāh firāqə yoḫdı belə ṭāqət ağlaram

3. Sünbül təki bəlālarımı rəḥm qıl baña
Qoy ḫəlq eyləsün baña yüz töhmət ağlaram

4. Ḫ˘oşdur əgərçi əhl-i cəhānə behişt-i ḥūr
Sənsiz əgər məqāmım olə cənnət ağlaram

5. Mey-cāmı gərçi ḫəlqə verür şādlıq vəlī
Cām əldə sənsiz ey büt-i məh ẓülmət ağlaram

6. Sənsiz nə ləẕẕəti mey ü çəng ü çəġānənün
Yādunlə ağlamaqdə görüb ləẕẕət ağlaram

7. Yalquz dögül bu nālə vü fəryādım ey pərī
Öz könlim içrə sənlə qılub ṣöḥbət ağlaram

8. Almış çəhār gūşədən əṭrāfımı ġəmün
'Eşqün əgər baña verə bir fürṣət ağlaram

9. Rāḥət məqām yoḫdı cəhān içrə Żū`iyā
Gər bir məqām tapsə idim rāḥət ağlaram

134[2]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Getdi ol qaşı hilālım dedi bir āyə gəlim
Hansı aydur nə bilim tā ki tamāşāyə gəlim

2. Ay u gün söyləməyüb məṭləbi muğləqdi ki mən
Gecə gündüz ġəm-i hicrān ilə āh vāyə gəlim

3. İstəyürsən sölə tərsā balası nāz eləmə
Buraḫub məzhəbimi dīn-i Məsīḥāyə gəlim

4. Ṭaylasān ilə rəvānı buraḫıb burnus (?) alım
Atuban səccəni zünnār u çəlīpāyə gəlim

5. Bilmürəm məskənüvi hardədi tā var u yoḫım
Ṣərf edüb kūyun əṭrāfınə həm-sāyə gəlim

6. Mö'cüz-i 'Īsəvī tək cān verür əmvātə ləbün
Nədi 'eybi dönübən məzhəb-i 'Īsāyə gəlim

7. Ey ṣənəm ẓāhir elə Żū`ī-i şeydāyə yerün
Məscidə deyə ḫarābātə kilīsāyə gəlim

[1] 42a; 84a
[2] 42a; 84b

135[1]
mefāʿilün / feʿilātün / mefāʿilün / feʿilün

1. Köñül əgərçi sən-i zārı pür-ġəm istəmənəm
Vəlī ẖəyālın o məh-pārənün kəm istəmənəm

2. Behiştə gərçi məni dəʿvət etsələr sənsiz
Özimə rövżə`-i ẖüld-i cəhənnəm istəmənəm

3. Köñül cərāḥəti çün zəẖm-i tīğ-i əbrūdur
Əgər öləm də ẖˇoşam daẖı mərḥəm istəmənəm

4. Vüṣāl-i yārdə istər köñül ki ẖəlvət olə
Behişt-i ʿədn idi çün ondə ādəm istəmənəm

5. ʿƏrəqlədüb vərəq-i ʿāriżün ʿərəq tāyı
Bu qədri Żū`ī gül üstündə şəbnəm istəmənəm

136[2]
feʿilātün / feʿilātün / feʿilātün / feʿilün

1. Aẖtarub ġəm məni āẖır bulacaqmış nə bilim
Küll-i ümmīdimiz āẖır solacaqmış nə bilim

2. Belə fikr eylər idim ḥəşrə kimi hicr olmaz
Bu qəżā kārıdı belə olacaqmış nə bilim

3. Cām-ı ʿeyşim olacaqmış belə meydən ẖālī
Sāğər-i ʿişrəti ġeyrün dolacaqmış nə bilim

4. Bilməyüb verdim əlimdən sər-i zülfün yārun
Mār-ı sər-kūftə tək qopulacaqmış nə bilim

5. Belə ẓənnim yoẖ idi kim bizi gərdūn ayırə
Bī-vəfālıq eləyüb ayrulacaqmış nə bilim

6. Şādmān idi köñül ṣübḥ-i vüṣālə Żū`ī
Bu günün ʿāqibətində nə olacaqmış nə bilim

137[3]
mefāʿilün / feʿilātün / mefāʿilün / feʿilün

1. Səlām olə saña ey şūẖ-ı dil-rübā Kāẓım
Həmīşə ʿāşiqinə eyləyən cəfā Kāẓım

2. Səbəb nədür ki məni kāğəẕündə yazmamısan
Məgər bu qədri olar yār bī-vəfā Kāẓım

3. Ġərəz nə ẓülmülər etsön qəbūl-i ʿāşiqdür
Həmīşə sağ eləsün cānıvı Ḫudā Kāẓım

4. Gəl etmə muncə cəfā yādə ṣal o günləriνi
Ki hīç kəs deməz āẖırdə gəl baña Kāẓım

5. Vəlīk ẖovf elə ondan ki gülşən-i rūyun
Dönər ẖəzānə tapılmaz bir āşnā Kāẓım

---

[1] 42b; 78b
[2] 42b; 175a
[3] 42b; 175b

6. Edər məqām gül-i rūyun üzrə zāğ-ı ẖəṭün
Kim eyliyər o pozuğ bāğə e'tinā Kāẓım

7. Gedər bu ẕövq-i ṣəfā gülşən-i cəmālundan
Olursan āẖırı pəjmürdə mübtəlā Kāẓım

8. O kimsələr ki saña cān fədā edər imdi
O gündə bircəsi qılmaz nəẓər saña Kāẓım

9. Qutarub 'ömr-i həvā çıẖmış idi başımdan
Gətürdi tāzə məni 'eşqivə qəẓā Kāẓım

10. Təğāfül eyləyübən salmə əhl-i 'eşqi ġəmə
Bu qədri cövrə dəẖi olmə çoẖ rıẓā Kāẓım

11. Görüb cəmālıvı 'eşqün köñüldə dutdı qərār
Gətürdi hicr-i ruẖun başımə bəlā Kāẓım

12. Mənim tək 'āşiqə inṣāfdur mı cövr etmək
Ḫˇoşam nə qədr edəsən Żū`iyə cəfā Kāẓım

138[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Mən bī-nəvāyə rəḥm elə ey sərv-qāmətim
Kim qalmayub firāqə dəẖi istiqāmətim

2. Zülfün kimi olubdı günim qarə hicrdən
Qaşun kimi olubdı bəlī qədd ü qāmətim

3. Yüz min cəfāyə tāb u təvānım var ey nigār
Yoẖ görməgə rəqīb ilə sən māhı tāqətim

4. Dərdim budur ki görməyüb ey məh cəmālıvı
Hicründə cān verim qalə köñlümdə ḥəsrətim

5. Az eyləməklə cövri cəfā etmə Żū`iyə
Kim eyləməz bu qədri cəfālər kifāyətim

139[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Cəzbə nədəndi ḥüsn-i dil-ārādə bilmədim
Nəş`ə nədəndi bāde-i həmrādə bilmədim

2. Ḫāliq çü bir şey`ə dögi möhtāc ẖəlqdən
Nə sirr var bu ẖilqət-i əşyādə bilmədim

3. Bī-mə'rifət ġənīdi fəqīr əhl-i mə'rifət
Fəqr ü ġınā nədəndi bu dünyādə bilmədim

4. Ḫ∨ab içrə hər nə görsə yəqīndür oyanməmiş
Nə sirr var bu 'āləm-i rū`yādə bilmədim

5. Nə gəldigim məqāmımı nə getdiyim yerim
Gəlmək bu getməgə nə var ortadə bilmədim

[1] 43a; 176a
[2] 43a; 122a

6. Ağzımdə söz deyüb danışan şəxṣi qanmadım
Kimdür baẖan bu dīdə-i bünyādə bilmədim

7. Cān özgə cism özgədi yā müttəḥiddülər
Cān hansı cüzvdür tən ü ə‘żādə bilmədim

8. Göz görməyən cəvāhiri mən necə dərk edim
Ẓāhirdə çün nə var bu mərāyādə bilmədim

9. Öz kəsbidür mi Żū`ī cəhān içrə ḥüsn ü qübḥ
Yā Ḥəq verübdi ‘āləm-i mə‘nāda bilmədim

140[1]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Olu yā Rəb bu ki mən rövże-i riżvānə gedəm
Rāhət-i cānım içün ẖidmət-i cānānə gedəm

2. Qutarub məḥbəs-i ṣəḥrā-yı Muğān cövrindən
Rəşk-i firdövs-i bərīn sāḥət-i Şirvānə gedəm

3. H̱ār ü ẖāṣāk u qarağan-ı Muğāndan qutarub
Gül-i gülzār-ı Şamāẖīdə gülüstānə gedəm

4. Qutarub sübḥə şümār olmaqdan məsciddə
Ṣəhn-i mey-ẖānədə nūş etməgə peymānə gedəm

5. Təngə gəldim bu riyā məslək olan zāhiddən
Ey ẖoş ol bəzm-i ṣəfā məşrəb-i rindānə gedəm

6. Məscid əhlində ki yoẖ ẕövq H̱udāyā n`olı bir
Gūşə-i meykədədə məclis-i ‘ürfānə gedəm

7. Żū`ī tək bāng-ı mü`əẕẕindən olub āsūdə
Nəğmə-i tār u dəf ü bərbəṭ-i ẖoş-ẖ∨ānə gedəm

141[2]
mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

1. Dedim o yārə ġəm-i hicr-i cān-sitānı yazım
Firāq-ı möḥnətini yā ġəm-i zəmānı yazım

2. Yazım o səng-i dilə dərd-firqətin yoẖsə
Zəmānə cövrini yā möḥnət-i cəhānı yazım

3. Məbāda olmaya əğyārə fāş dərd-i dilim
Köñül dilər ki ġəm ü dərdimi nihānī yazım

4. Ləbün firāqı ilə qanə dönməgün cigərün
Vəyā gözimdən aqan qəṭrə qəṭrə qanı yazım

5. Sən eyləsən baña bī-dādı ey cəfā-küstər
Kimə şikāyət edim yā kimə ‘əyānī yazım

6. Nə nāməyə sıqışur nə zəbān-ı təqrīrə
Nə ṣūrət ilə sölə belə mā-cərānı yazım

---

[1] 43b; 123b
[2] 43b

7. Üzüldi riştə-i cānım qutardı mənbə-i ṣəbr
Nə qaldı Żū`ī dəḫi tā ki bir də anı yazım

142[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Nə sāqī vü nə mey-i lə'l-fāmə müştāqam
Nə rāh-ı rūḥ-fəzāyə nə cāmə müştāqam

2. Be-sān-ı zəhr (?) məzāqımdə təlḫdür şəkkər
Ze-bəs ki ol məh-i şīrīn-kəlāmə müştāqam

3. Nə sərvə meyl edərəm nə ṣənūbərə kim mən
O qədri ol büt-i ṭūbā-qiyāmə müştāqam

4. Əzəldə istər idim vəṣlini vəlī ḥālā
Nüvīd-i qətl veren bir pəyāmə müştāqam

5. O māh-vəṣli dögül ārzū baña Żū`ī
Dilindən ol ṣənəmün bir səlāmə müştāqam

143[2]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Sevübdir bir cavān-ı nāzənin pīrānəsər köñlüm
Yanar şövq-i ruḫuylə nārə hər şām ü səḥər köñlüm

2. Baña hər nə bəlā gəlsə gəlür köñlümdən ey Ḫāliq
Gözəllər hicrinə yansun görim bundan bətər köñlüm

3. Əgərçi ḥəsrət-i zülfünlə bir sevdā-yı məcnūndur
Görəndə 'ārizün ey məh olur dīvānətər köñlüm

4. Sənün bu bī-vəfā olmaqlıqundan āgəh olsaydım
Köñül verməzdim ey məh düşdi bəndə bī-ḫəbər köñlüm

5. Cəfā vü cövrüni ol bī-mürüvvət bī-vəfā yārun
'Əbəs bī-hūdə gör kim Żū`iyā dāim çəkər köñlüm

144[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Ağzıvı ġönçə bilüb ḫəlqə bəyān eylər idim
'Əqli yoḫluqdan baḫ gör nə gümān eylər idim

2. Bilsə idim dəhənün vüṣləti nā-mümkündür
Mən əzəl gün anı cān içrə nihān eylər idim

3. Gər biləydim ki edər ol büt-i bī-mehrə əs̱ər
Dəm-bə-dəm nālə vü fəryād u fəġān eylər idim

4. Anləsaydım baña vəṣl-i ləb-i məqdūr olmaz
Həvəsilə dil-i ṣəd pārəmi qan eylər idim

5. Cānə meyl etsə idi Żū`ī gər ol 'Īsā-dəm

[1] 102a
[2] 102b
[3] 102b

Ṣədqə hər dəmdə dil ü cānı rəvān eylər idim

145[1]
mefā ʻīlün / mefā ʻīlün / mefā ʻīlün / mefā ʻīlün

1. Ləb-i ləʻlün görüb ḥeyrətdən ey gül cānə bəñzətdim
Sora sordum yəqīn bildim ki bī-cā anə bəñzətdim

2. Dəhānun dedilər mən görmədim ondan əs̱ər līkən
Təṣəvvürlə onı həm çeşme-i ḥeyvānə bəñzətdim

3. Dedi vāʻiẓ ki var belə qiyāmət belə dūzəẖ mən
Onı qəddinə oẖşatdım munı hicrānə bəñzətdim

4. Qoyubdur sīnəmə hər gündə yüz min dāğ-ı pünhānı
Onunçün ʻāriżin mən lālə-i nuʻmānə bəñzətdim

5. Bu gün yüz min ʻƏzīz olmuş ġulām-ı zülfi Żū`ī tək
Budur vəchi cəmālın Yūsif-i Kənʻānə bəñzətdim

Ḥarfü`n-Nūn

146[2]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Əğyārlar nişīmən[3]-i cānānə gəlməsün
Bīgānə mürğlər bu gülüstānə gəlməsün

2. Şövq-i ləbilə kūyunə bir kəs dolanmasun
Ləʻl-arzūsı ilə Bədəẖşānə gəlməsün

3. Hər bir Sikəndərə dögül āb-ı bəqā nəṣīb
Ḫiżr olmayan bu çeşme-i ḥeyvānə gəlməsün

4. ʻEşq ʻāləmində zūr-ı zırıh yoẖdur eḥtiyāc
Tərk-i sər etməsin belə meydānə gəlməsün

5. Ləʻl-i ləbi həvāsı ilə məh-cəbīnün
Döndərməsin bu gün cigərin qanə gəlməsün

6. Zəncīr-i zülfünə eləyə ġeyrilər həvəs
N`etsün fəğānə bu dil-i dīvānə gəlməsün

7. Żū`ī əgərçi mənʻ edürəm ẖəlqi yārdan
Mümkün mi şəmʻ dövrinə pərvānə gəlməsün

147[4]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Fitrətdə təmām oldı çü yüz ayə cəmālun
Təfsīr edə bilməz gülə yüz āyə cəmālun

2. Ḫᵛurşīd dutub etməz idi köñüldə məqāmın
Olsaydı ʻəyān pərdə Məsīḥāyə cəmālun

---

[1] 103a
[2] 44a
[3] nişīmən: nişmən
[4] 44a

3. Mūsā kimi bilməm niyə məḥv olmayur ʻāşiq
Gəldükdə bu Ṭūrına təcəllāyə cəmālun

4. Əldən yerə qoymazdı də ̱hi zāhid ayağı
Gər ʻəks ṣalə sāğər-i ṣəhbāyə cəmālun

5. Hər gecə yanur şəmʻ kimi hicrdə Żū`ī
Tā ki salə bir gün başınə sāyə cəmālun

148[1]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Bəzm-i ġeyr içrə görən dəm ol gül-i rəʻnā yüzin
Ātəşīn-meydən yaẖar āhım odı dünyā yüzin

2. Bütləri tərk Yūsif eylərdi ẖəcālətdən nihān
Görsə idi gər Züleyẖā bu büt-i tərsā yüzin

3. ʻƏks-i ẖəṭṭün görmədim bir çeşm-i nəmnākımdə mən
Bəs nöçün derlər gəzər dā`im Ḫiżr dəryā yüzin

4. Tā o yār-ı növ-ẖəṭ ü āhūvəşim səbr eyləsün
Səbzələr istəbrəq ilə fərş edüb ṣəḥrā yüzin

5. Şām-ı hicrün rūz-ı vəṣlə oldı təbdīl ey köñül
Gördüyüncə bārī ol mehr-i cəhān-ārā yüzin

6. ʻĀşiqi müstəğnī etmişdür ẖəyālun vəṣldən
N`olə sən hər ləḥẓə göstərsön bu istiğnā yüzin

7. Bənd olub ẖ^vurşīdə ʻĪsā gökdə dutmazdı qərār
Żū`iyā görsəydi bu māh-ı mələk-sīma yüzin

149[2]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Demün kim fəṣl-i gül vardur ṣəfāsı bāğ u bustānun
Nə ẕövqi bir gül-üzlü yārsız seyr-i gülüstānun

2. ʻƏcəb āzādə idim yād ol günlər ki nā-gəhdən
Əsīr etdi məni zəncīr-i zülf ü çeşm-fəttānun

3. Nigārım ʻeyb dutmə sirr-i ʻeşqün fāş qılsam gər
Pərīşān eyləyüb bəs kim məni zülf-i pərīşānun

4. Köñül hicrində vəṣlindən ümīdün kəsmə kim bülbül
Ṣəfā-yı gül görər mi çəkməsə cövrin zimistānun

5. Köñül nə vəṣlinə şükr eylə nə şəkvə firāqından
Təmām övżāʻı yek-sər ẖ^vābdur məkkārə dünyānun

6. Ümīdün kəsgilən Żū`ī ki sən tək rind ü rüsvāyə
Dögül mümkün vüṣālı bir onun tək pāk-ı dāmānun

150[3]

[1] 44b; 87b
[2] 44b; 88b
[3] 45a; 92a

mefāʿīlün / mefāʿīlün / mefāʿīlün / mefāʿīlün

1. Nə ġəm sənsiz gözim gər giryədən ey māh kūr olsun
Rəqībimdir yüzün nəẓẓārəsindən qoy ki dūr olsun

2. Əgər görməz gözim ruḫsāruvı ʿeyb etmə ey gül-ruḫ
Yüzündən dūr olan gözdə nə mümkündür ki nūr olsun

3. O qədri iştiyāqım var sər-i kūyındə āzārə
Göz açmam məskənim cənnət ənīsim gərçi ḥūr olsun

4. Baña sölərsən ey məh nār-ı hicrə ṣəbr qıl sölə
Olur mı kimsə kim ātəş arasındə ṣəbūr olsun

5. Baña təklīf-i gülşən qılmayun bu ġəmlü köñlümdə
Dil-i ʿāşiqdə mümkündür mi dil-bərsiz sürūr olsun

6. Sər-i kūyundan etmə Żū`īni məḥrūm ey bī-mehr
Süleymān bārgāhındə gərəkdür çünki mūr olsun

151[1]
mefāʿīlün / mefāʿīlün / mefāʿīlün / mefāʿīlün

1. Məni yā öldür ey məh yā qutar dərd-i cüdālıqdan
Kim ölmək yaḫşıdır bi`llāh bu gūnə mübtəlālıqdan

2. İçüb mey məst olub nāz ilə bir sər-ḫˇoş-ḫırām ilə
Ki tā ṣəd sālə zāhid əl götürsün pārsālıqdan

3. Ayaqun ṣədqəsi başım ayağə dur şitāb eylə
Gətür sāqī qədəḥ kim cānə yetdim pārsālıqdan

4. Onun yanındə oldım ʿāqibət bīgānədən kəmtər
Nə gūnə gör s̱əmər gördüm nihāl-i āşnālıqdan

5. Məni bīgānələr səndən cüdā etmək nə mümkündür
Olub bīgānə cāndan çəkməzəm əl āşnālıqdan

6. Ayaqun topraqı olmaqdan özgə yoḫdı bir fikrim
Baña bi`llāh yegdür belə ẕillət pādşāhlıqdan

7. Məni ʿeşqindən anun çoḫ də gəl mənʿ etmə ey nāṣiḥ
Baña ḫˇoşdur gədā-yı kūyı olmaq pādşāhlıqdan

8. Bu qədri cövrlər kim Żū`iyə eylər firāq ilə
Vəfādandur bu həm ṣanmun kim eylər bī-vəfālıqdan

152[2]
fāʿilātün / fāʿilātün / fāʿilātün / fāʿilün

1. Bir zəmān ḫˇoş keçməyür hicrān əlindən cān içün
Gūyiyā Ḫāliq yaratmışdur məni hicrān içün

2. Bir dəm olmaz kim köñül əndūhdən āzād olə
Eylə sān gökdən yaqır möḥnət mən-i nālān içün

3. Bir nəfəs keçməz firāqındə o bəd-ḫū dil-bərün

---

[1] 45a; 92b
[2] 45b; 92b

Kim tapulmaz min bəlā mən-zār u sər-gərdān içün

4. Nəqşbənd-i kārgāh-ı dəhr gūyā çəkməyüb
Şadlıq-nəqşin mən-i dil-ḫəstə vü ḥeyrān içün

5. Żū`iyā dünyādə gər ol māh olsə həm-dəmim
Kāfirəm ümmīd dutsam ḥūrī vü ġılmān içün

153[1]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Dīdə`-i 'āləmdə gərçi ḫ∨ār oldım yār içün
'Āqibət düşdim gözindən ḫāṭir-i əğyār içün

2. Çəkməzəm əl səndən ey gül ġeyrilər cövrilə kim
'Əndəlīb eylər mi gül tərkin cəfā-yı ḫār içün

3. Batdı yüz min ḫār-ı möhnət-i nāḫun ümmīdimə
Gərçi yüz min cövr çəkdim ol gül-i gülzār içün

4. Çəkdi ḫəncər nāz ilə öldürmədi ṣəd-ḥeyf kim
Qıymadı bir qəṭrə ābı bu dil-əfkār içün

5. Żū`ī-i məhcūr u mən 'əcz ilə gəldük lüṭf qıl
Ey pərī-rū dil-bərim dərgāhıña zinhār içün

154[2]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Olsə mehrim qədri gər ey bī-vəfā kīnün sənün
Qanımı tökməkdən özgə olmaz āyīnün sənün

2. Kāfiri bütdən ayırdun zāhidi meḥrābdan
Bilmirəm bir hīç ey ẓālim nədür dīnün sənün

3. Gəh dutar ḫ∨urşīd-rūyın seḥr ilə gāhī açar
Necə cādūdur nigārım zülf-i müşkīnün sənün

4. Ḫosrovā şəkkər-dəhənlər köñlüni Fərhād tək
Dağlayubdur rəşk ilə ol lə'l-i şīrīnün sənün

5. Żū`īni etmiş pərākəndə benātu`n-nā'ş tək
Ey büt-i zöhrə-cəbīn ol māh u pərvīnün sənün

155[3]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

Bu Ġəzəli Cənāb-ı Ḥâcı Seyyid 'Əẓīmə Yazdum Məkkə-i Mü'əẓẓəmə Təşrīf Aparandə

1. Gəl ey edən sər-i kūyını tərk cānānun
Düşən həvāsınə beyt-i Ḫəlīl-i rəḥmānun

2. Ṣəfādan əl götürüb etməyin Minā-'əzmin
Məgər qəbūl dögüldür o kūdə qurbānun

3. Məgər ki eyləmədün tāb-ı nīş-i cānānə

---
[1] 45b; 93a
[2] 45b; 95b
[3] 46a; 97b

Qəbūl eyləmisən möḥnətin muġīlānun

4. Ṭəvāf-ı kūyı fərəḥ-bəẖşdir o məh-rūyun
من استطاعه[1] fərmānı ẖəlqə Yəzdānun

5. ʻƏvām ẖəlq kimi şöhrət içün ey Seyyid
Atub Ḫudānı gedüb nāqiş etmə īmānun

6. Nə ẖānə ṣāḥib-i ẖānə gərəkdi ʻāləmdə
Bu nüktədür sözi hər yerdə əhl-i ʻürfānun

7. Ġərəz ki Żū`ī kimi anlə olmə çoẖ bī-ẖˇod
Kəmāl-i ʻeşqdi ancaq vücūdı insānun

156[2]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Çəkməyübdir fəṣl-i dey bülbül gül-i rəʻnā ġəmin
Eylə kim hicrində mən çəkdim o bī-pərvā ġəmin

2. Əşk-i ẖūnīn içrə ġərqəm zülfüni dutmaq içün
Necə kim sevdā içün tācir çəkər dəryā ġəmin

3. Gər ġəmim var ārzū-yı vaṣl-i yārə zāhidā
ʻEyb dutmə kim çəkərsən sən dəẖi ḥavrā ġəmin

4. Möḥnət-i ʻeşqün nə ẖˇoş dārū imiş kim görcəgin
Çəkmənəm bi`llāh dəẖi dünyā vü mā-fī-hā ġəmin

5. Żū`iyā ʻeşqün nə olsə ḥāṣili vācibdi çək
Ya sürūrın yā nəşāṭın yā bəlāsın yā ġəmin

157[3]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Yā Rəb kim olur ʻərżimi cānānə yetürsün
Dərd-i dilim ol ẖosrov-i ẖūbānə yetürsün

2. Zülf-i siyəhin hörməgə ol zülf-i pərīşān
Ḥūr āynə dutsun u pərī şānə yetürsün

3. Küfr-i sər-i zülfi o büt-i lālə-ʻiẕārun
Az qaldı ẖələl dīn ilə īmānə yetürsün

4. Ol māh firāqı mənə yüz min ġəm olubdur
Sāqī hanı ġəm dəfʻinə peymānə yetürsün

5. Ḫəllāq-ı cəhān lüṭf eləyüb Żū`ī-i zārə
Bu aydə o məh-pārəni Şīrvānə yetürsün

158[4]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Baẖandə nāz ilə hər gūşədən o məst gözün
Qılur həzār köñül şīşəsin şikəst gözün

---

[1] Hud suresi, 13. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=11&ayet=13
[2] 46a; 99b
[3] 46a; 101b
[4] 46b; 104a

2. Nə seḥr edüb ki müjün kimi mərdümi ey gül
Edübdi dūdə-i çeşmündə pāy-bəst gözün

3. Dutub sipəh müjə-i Türkmān-ı qātildən
Açubdı ġārət içün rūzgārə dəst gözün

4. Deyürlər ātəş ara məskən eyləməz āhū
Nədəndi köñlüm ara bəs qılub nişəst gözün

5. Götürməz āynədə ʻəks-i ṣūrətündən göz
Olubdı Żū`ī kimi yoḫsə büt-pərəst gözün

159[1]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Əgərçi ey mey-i gül-fām ləʻl-i nābə bənzərsən
Ləb-i yārım yanındə līk sən ḫūn-ābə bənzərsən

2. Budur vəhmim ki zāhidlər sücūdun eyləsün vācib
Nöçün ey əbrū-yı dildār sən meḥrābə bənzərsən

3. Yüzün tə`s̱īrilə ʻuşşāq əşkin ləʻl-gūn etmiş
Bu yüzdən sən nigārım mehr-i ʻāləm-tābə bənzərsən

4. Çəkürsən ḫəncər-i müjgān tökürsən qan alursan cān
Ḥəbībim səndə bu ʻādət nədür qəṣṣābə bənzərsən

5. Gözəllər ḫəncər-i nāz ilə ey məcrūḥ olan Żū`ī
Bu meydān-ı məḥəbbət içrə sən Söhrābə bənzərsən

160[2]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Ṣəbā qoymə dağıtsun tār-ı zülf-i ʻənbər-əfşānun
Pərīşān etməsün cəmʻiyyətin tā mən-pərīşānun

2. Əgər dəşt-i cünun içrə mənim tək olsə Məcnūnı
Nə mümkün sən tək olsun ey pərī Leylāsı dövrānun

3. Ḥərīm-i Kəʻbə kūyundan ki olsun cān u dil məḥrūm
Minā-yı kūyun içrə etməsəm onları qurbānun

4. Ləbün rəşkilə ancaq ləʻl-i bağrı dönməmiş qanə
Ḥəd-i qan eyləyübdür köñlüni gül-bərg-i ḫəndānun

5. Ḫədəng-i ġəmzün ey məh səpməsəydi dəm-bə-dəm sulər
Dil-i pür-ḫūnı çoḫdan yaḫmış idi nār-ı hicrānun

6. Ḥəsəddən sudə tikmiş sərvini tā kim rəvān olsun
O gündən kim görübdür bāğbān sərv-i ḫurāmānun

7. Yüzün nəẓẓārəsindən mənʻ edübdür Żū`īni zülfün
Bu kāfir əldən almış dīnini gör kim müsəlmānun

161[3]

---
[1] 46b; 107b
[2] 47a; 107b
[3] 47a; 109b

fā‘ilātün / fā‘ilātün / fā‘ilātün / fā‘ilün

1. ‘Āqibət qıldı məni rüsvā fəğānı köñlümün
Qalmayub hicrānə çün tāb u təvānı köñlümün

2. Bāğ seyrin istəmün məndən firāqındə onun
Çünki ol gül-rūdı bāğ u būstānı köñlümün

3. Dād-ı hicrān ṭə‘nə-i yārān cəfā-yı rūzgār
Öldürür āḫır əgər min olsə cānı köñlümün

4. Ey nəṣīḥət-gū çək al āḫır məni əfkārdan
Almış əldən iḫtiyārın żidd-i fānī köñlümün

5. Lālə-rūlar döndürüblər qanə ḫūnīn köñlümi
İmdi çeşmimdən düşər hər dəmdə qanı köñlümün

6. Bəs ki sūzişin qılur hicründə nālə ey ṣənəm
Yandurur hər gecə āhım āsmānı köñlümün

7. Eyləmir ol āhənīn-dil yārə neylüm bir əs̱ər
Daşə tə`s̱īr eyləyir bu əl-əmānı köñlümün

8. Qət‘-i ülfət eylədün dutdun ṭərīq-i ẓülm-i kin
Bu dögüldi ‘āqibət səndən gümānı köñlümün

9. Yār kəsdi āşnālıq rəsmini Żū`ī genə
Ẓāhir oldı ṣan oña dərd-i nihānı köñlümün

162[1]
mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

1. Bu pīç ü tāb ilə ol gül-ruḫun zülf-i mutarrāsın
Əgər tərsā görə bi`llāh salur gözdən çəlīpāsın

2. O gündən kim görüb ruḫsārıvı bī-pərdə ey məh-rū
Salur topraqlarə hər gün fələk ḫᵛurşīd-i ‘əẕrāsın

3. Götürmüş ḫāṭirimdən ‘āriż ü lə‘lün təmāşāsı
Behişt-i ‘ədn pərvāsın mey-i Kövs̱ər təmənnāsın

4. Cəmālun ṣəfḥəsindən alməmiş dərs ḫəṭṭün ey gül [kim]
Müfəssir muṣḥaf-ı Ḥəqqün bilür mi hīç mə‘nāsın

5. Olur Żū`ī kimi Mūsā ġəm-i ‘eşqünlə ḫākistər
Əgər Sīnā-yı kūyundə görə rūyun təcəllāsın

163[2]
mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

1. Əgərçi ayrıluban məndən ey ṣənəm getdün
Firāqun ilə baña eyləyüb sitəm getdün

2. Ḫumār-ı hicr ilə qoydun bu ‘eşq-i bīmārın
Gözimdən ey büt-i məh-rūy u cām-ı Cəm getdün

3. Səniñlə getdi təmām ‘eyş ü nūş u ləẕẕət-i ẕövq

[1] 47b; 110a
[2] 47b; 80b

Qoyub yerində baña hər nə var ġəm getdün

4. Töküldi üstümə ġəm ləşkəri firāqundə
Nəẓərdən ey məh-i bī-mehr kim o dəm getdün

5. Qoyub ẕəlīl ü zəbūn ġürbət içrə ʻuşşāqı
Üzün vətən sarı çoẖ şād u möḥtərəm getdün

6. Gedəndə görmədim ol āftāb-ruẖsārun
Qoyub köñüldə kədər çeşmim içrə nəm getdün

7. Günümi Żū`ī kimi qara eylədün ġəmdən
Qaşun ġəmilə qılub qāmətimi ẖəm getdün

164[1]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Ey gül ruẖunlə məclisimiz gülşən eylədün
Nūr-ı cəmālun ilə ʻəcəb rövşən eylədün

2. Hər yerdə qıldı çünki təcəllā baña ruẖun
Hər bir məqāmı Mūsā içün Eymən eylədün

3. Ey Yūsifim çü vəʻde-i vəṣl eylədün baña
Yəʻqūbə ṣanki müjdə-i pīrāhən eylədün

4. Əz-bəs ki ātəşīn-ruẖə yandurmısan məni
Zərdüşt vəqt olub məni Rūyīntən eylədün

5. Saldun ləbün kənārınə zülf-i siyāhıvı
Əngüştəri nəṣībə-i Əhrīmən eylədün

6. Etdün siyāh çeşmün ilə ṣayd əhl-i dil
Āhūları nə seḥr ilə şīr-əfgən eylədün

7. Eşq-ẖəṭṭün ilə cümlə bəlādan əmīn edüb
Tīr-i qəżāyə Ḥizr-i ẖəṭün cövşən eylədün

8. Məcnūn eyləyüb məni saldun bu çöllərə
Leylā edüb mi bu sitəmi kim sən eylədün

9. Żū`ī məh-i cəmāluvə nəẓẓārə qılmaqə
Dil ẖəlvətinə dīdələrim rövzən eylədün

165[2]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Ey şūẖ lüṭf qıl ki əzəl yārıñam sənün
Zəncīr-i zülfün içrə giriftārıñam sənün

2. Ey Yūsif-i zəmānə Züleyẖā ṣifət bugün
Cān nəqdi əldə gör ki ẖərīdārıñam sənün

3. Ol Kə`bə-i cəmālıvə ḥüccāclər kimi
Sər pā bərəhnə ṣidq ilə züvvārıñam sənün

4. İʻcāz-ı ʻĪsəvī ləb-i ləʻlündədür n`olur

[1] 47b; 80b
[2] 48a; 82a

Versön şəfā vü şəhd ki bīmārıñam sənün

5. Mə`yūs qılmə ʻāşiqi lən kəlməsilə sən
Mūsā şifət çü ṭālib-i dīdārıñam sənün

6. Olsun qəsəm o tār-ı sər-i zülfə ey şənəm
Qıllam sücūd gər sölәsön Tarıñam sənün

7. Şīrīn-ləbündən eyləmə nevmīdī Żū`īni
Fərhādvār yār-ı vəfādarıñam sənün

166[1]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. N`oldı saña ki vəʻde-i muʻtādə gəlmədün
Qoydun bizi ḫarāb bu bər-bādə gəlmədün

2. الانتظار اشدّ من ال موتدر[2] nöçün
Qoydun firāq əlində bizi dādə gəlmədün

3. Bārī o gəlmədisə ġəmim dəfʻ etməgə
Sən nīşə ey nəşāṭım olan bādə gəlmədün

4. Hər ṭavr eylədim bu ġəmə çārə tapmadım
Ẓāhirdə gəlmədün dəḫi rü`yādə gəlmədün

5. Bād-ı ṣəbā yetürmədi Żū`ī fəġānını
İnṣāf edüb bu növʻ ilə fəryādə gəlmədün

167[3]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Nöçün fələk məni sən zār-ı bī-nəvā qıldun
Firāq-ı yārdə yüz dərdə mübtəlā qıldun

2. Günəş miṡāl yüzin eylədün nihān məndən
Ḫəyāl-i zülfi ilə günlərim qara qıldun

3. Əsīr-i hicr-i nigār u ġərīb-i şəḫr ü diyār
Mənimçün āḫırı gör kim nə mā-cərā qıldun

4. Qoyub belə ġəm-i hicrānun ilə ġürbət ara
Əsīr-i dərd-i qədər möhnət-i qəżā qıldun

5. Nə etməmiş bunı Məcnūnə yā ki Fərhādə
O cövr ü ẓülm ki ʻeşq içrə sən baña qıldun

6. Minā-yı kūyunə Żū`ī yetüşməmiş yārun
Ṭəvāfın eyləməmiş cānıvı fədā qıldun

168[4]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. O gün kim ey pərī-rū dil-bərim oldım cüdā səndən
Töküldi üstümə fövc-i ġəm ü dərd ü bəlā səndən

---

[1] 48b; 82a
[2] Kelam-ı Kibar: Beklemek ölümden daha şiddetlidir/yakıcıdır/beterdir.
[3] 48b; 84b
[4] 48b; 85a

2. Bu nə inṣāfdur kim mən çəkəm əndūh-ı hicrānun
Görə əğyārlər vəṣlünlə yüz ẕövq ü ṣəfā səndən

3. Ḥəbībā bir özün fikr eylə gör āyā rəvādur mı
Çəkə bīgānələr ləẕẕət görəm mən min bəlā səndən

4. Bu qədri tökmə qanın ḫəncər-i müjgānlə ‘uşşāqun
Dilərlər qanını məḥşər güni hər mübtəlā səndən

5. Nə āvāzun səmā‘ etdim nə ẕövq-i vəṣlüvi gördüm
Təmām-ı ‘ömrdə ey māh mən bəḫti qara səndən

6. Qiyām-ı qāmətün hicrānı ilə etdigün ẓülmi
Budur vəhmim qiyāmətdə sū`āl edə Ḫudā səndən

7. Dügāh-ı ṣübḥ ü ṣām içrə mānī oldum ki ṣūr ilə
Səmā‘ eylərdi gūşum gəh segāh u gəh nəvā səndən

8. Keçən ovqātımun sənsiz cəzāsın ey pərī-peykər
Yəqīn bil eylərəm dərgāh-ı Ḥəqdə iddi‘ā səndən

9. Cəfā qılmə kərəm qıl Ẕū`iyə ey ṣūḫ lüṭf eylə
Əgərçi yoḫ gözəllərdə n`olur görsəm vəfā səndən

169[1]
mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

1. Köñül şükr eylə kim vəṣl-i ruḫ-ı dildārə yetdün sən
Ḫəzān-ı hicr-i cövrün çoḫ görüb gülzārə yetdün sən

2. Cəhənnəm möhnətin hicrində ol ḥūrīvəşün çəkdün
Bu dəm جنّات تجرى تحتها الانهاره yetdün sən

3. Məlāḥət Miṣrdə bāzār qurmuş Yūsif-i s̱ānī
Züleyḫāvəş bu gün ‘eşq ilə bu bāzārə yetdün sən

4. Şubān-ı vādī-i Eymən kimi yüz min çəküb möḥnət
Vəlī āḫırdə Ṭūr-ı vəṣldə dīdārə yetdün sən

5. Əgərçi olmuş idün mürdə hicr-i yār ilən āḫır
Məsīḥi vəqt olan ol lə‘l-i gövhərbārə yetdün sən

6. Əgər Fərhād tək zəhr içdün isə yār-ı Şīrīnlə
Vəlīkən şükr qıl āḫır nəfəs dildārə yetdün sən

7. Çəküb hicrān ḫəzānın bülbül-i şeydā tək ey Żū`ī
Bəhār əyyāmı gül vəṣlinə ey bī-çārə yetdün sən

170[2]
mefā‘ilün / fe‘ilātün / mefā‘ilün / fe‘ilün

1. Nə sūd möḥnət-i dünyāyə dəst-gīr oləsən
Şəbāb-ı ‘ömrdə ġəmdən ḫəmīdə-pīr oləsən

2. Süvār-ı əsb-i nəşāṭ ol köñül nə māt ki dəhr
Məqām-ı ġüṣṣədi gər şāh gər vəzīr oləsən

---

[1] 49a; 85a
[2] 49a; 165a

3. Dilərsən ər olasan bənd-i ġüṣṣədən āzād
Gərək kəmənd-i sər-i zülfdə əsīr oləsən

4. Əzəldə ṣidq ilə ḫidmət qıl istəyürsən əgər
Məqām-ı qurb tapub ʻāqibət əmīr oləsən

5. Qaranqu gecələrə ṣəbr eylə Żū`ī tək
Dilərsən āḫırı ḫᵛurşīd tək munīr oləsən

171[1]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Dutan ey övc-i istiğnādə dā`im āşyān Şāhīn
Səni ṣayd eylər āḫırdə ʻuqāb-ı āsmān Şāhīn

2. Əgərçi cins cinsə meyl qılmaq möʻtəbər sözdür
Dögülsən nīşə bəs şāʻirlərə sən mehrbān Şāhīn

3. Əgər şāhīnə hər gün eyləmək bir qan olub rūzī
Təğāfül birlə min min eyləmə hər gündə qan Şāhīn

4. Belə inṣāf olur əḥbābını yād eyləməz əḥbāb
Saña āḫır bu ḫiṣlətdən yetər çoḫ çoḫ ziyān Şāhīn

5. Dögül bu dəhrdə ṣəyyādlıq qanūnī bi`llāhi
Ki ṣaydın tərk edüb dönsün havā üzrə məkān Şāhīn

6. Bu mülkə vārid olduqdə mən-i məhcūr u nā-kāmı
Nöçün məḥv eylədün ḫāṭirdən ey ārām-ı cān Şāhīn

7. Dögüldür ḫāṣiyət şəh-bāzə vəḥşət rūz-ı əvvəldən
Olub insān ilə ülfətdə dā`im tev`əmān Şāhīn

8. Nədən həm-cinsivə yā ġeyr cinsə yoḫdur əlṭāfun
Yəqinimdür ki yoḫdur səndə şāhīndən nişān Şāhīn

9. Nə şāhīnsən nə bülbül nə həzār-āhəng nə ṣulṣul
Ṭuyūrun ḥālətindən səndə yoḫ bir şey` ʻəyān Şāhīn

10. Ġərəz sizdən təvəqqeʻ eylərəm kim bu gələn həftə
Ḫəvāṣun bizlərə mərqūm edüb eylə bəyān Şāhīn

11. Sənüñ nā-mehrbān olmaqlıqun Rāḥil ḫüṣūsundə
Nədür bāʻiṡ yazub bu şeʻri qıldım imtiḥān Şāhīn

12. Ḫudāvənd eyləsün əḥbābıvə lüṭfün ziyād ʻömrün
Nə qədri dövr edər əflāk bāqīdür cəhān Şāhīn

172[2]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Yā Rəb məni bu ḥāl ilə ḫilqət nöçün etdün
Hər gündə nəṣībim ġəm ü möḥnət nöçün etdün

2. Əvvəldə məni əbləh ü nā-dān yaradaydun
Məndə belə bu hər şey`ə diqqət nöçün etdün

---

[1] 49b; 175a
[2] 50a; 114; 179

3. Əbləh gər olaydım nə ġəm ü dərdim olurdı
Sən məndə bu ġəm çəkməgi ḫişlət nöçün etdün

4. Dünyānı behişt eyləmisən bir pārə şəḫṣə
Bir pārəsinə dūzəḫi qismət nöçün etdün

5. Dindirsön əgər adını bilməz kəsə ḥədsiz
Verdün gərəyin ṣāḥib-i dövlət nöçün etdün

6. Çoḫ əbləh ü nā-dānları ne‘mətlə yaratdun
Çoḫ ‘ārif ü fāżilləri nikbət nöçün etdün

7. ‘Āṣīlərə verdin nə qədər var isə ne‘mət
Öz əmrüñə tābe‘lərə ẕillət nöçün etdün

8. ‘Ārifləri fəqr içrə ġəm ü ġüṣṣədə qoydun
Bī-mə‘rifəti ṣāḥib-i qüdrət nöçün etdün

9. Mə‘lūm edər idün bizə də sirr-i cəhānı
Əsrārıvı bilməkliyə ḥeyrət nöçün etdün

10. Fīs̱āġores̱i kim odı ‘əllāme-i əvvəl
Cāhillər əlilə onə zəḥmət nöçün etdün

11. ‘Īsānı biyābānlarə saldun tək ü tənhā
Şəm‘ündə belə təḫt-i ḥökūmət nöçün etdün

12. Bilməkdə imiş hər nə ġəm ü dərd-i müṣībət
Bilməkliqi sən bizdə ṭəb‘īət nöçün etdün

13. Nə vəḥdəti bildük nədi nə kəs̱rəti qanduq
Sən vəḥdəti bu qədr ilə kəs̱rət nöçün etdün

14. Bizdən saña nə fā`idə var bārī Ḫudāyā
Sən bizlərə yüz lüṭf-i kərāmət nöçün etdün

15. Sən cümlə bizə verdiyüvi bī-‘əvəż etdün
Firdövsə ‘əvəż ṭā‘ət ‘ibādət nöçün etdün

16. Sənsən bu cəhān ḫāliqi məḫlūq təmāmı
Hər şəḫsdə bir rəng ilə ṭīnət nöçün etdün

17. Yandursə əgər ot nədi təqṣīri fəqīrün
Bəs rūz-ı əzəl ondə ḥərārət nöçün etdün

18. Sən qoymısən hər kimsədə bir ḥāl-i ṭəbī‘ət
Nārə necə sölərsən [o] ḥurqət nöçün etdün

19. Żū`ī dəḫi bəsdür nə gərək sirrdə güftār
Bī-hūdə özün dāḫil-i ḥikmət nöçün etdün

173[1]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Zəhr-i qātil baña ver sāqī demim ṣəhbādən
Qutarub rāḥət olum tā ki ġəm-i dünyādən

[1] 50b; 116a

2. Nədi dünyā özi bir fikr elə ey məst-i ġürūr
Bārī ʻibrət elə bir Ādəm ilə Ḥəvvādən

3. O Süleymān ki yel əmrində idi şām u səḥər
İmdi topraqı yel ağzındədi hər ṣəḥrādən

4. Nədi ẓülmāt-ı ġəm içrə belə ḥeyrān qalmaq
Oẖı Şəh-nāmədə İskəndər ilə Dārādən

5. Dutalum dəhrdə Cəmşīd ü Firīdūn oldun
Ḥanı sölə nədi təʻbīr belə bir rö`yādən

6. Sīmyā tək bu cəhān içrə ḥəyātun yoẖdur
Ayulandə bilüsən ṣūrəti ol məʻnādən

7. Deyülübdür bizə bir rəmz-i (?) اذا قالوده[1]
Belə olduğdə nə ḥāṣil bu ġəm-i bī-cādən

8. Var isə ʻəqlün əgər ẖ∨āb-ı ẖəyālun ẖˇoş dut
Nə çıẖar muncə ġəm ü möhnət-i cān-fərsādən

9. İstəmə dövləti çoẖ Żū`ī maʻāşun gözlə
Yüngül elə yüküvi keçməyə bu dəryādən

174[2]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Köñül fəsāne-i Məcnūn ḥekāyətündi sənün
Məẕāq-ı Ḫosrovə Şīrīn rəvāyətündi sənün

2. Gəlir o pādşəh-i mülk ḥüsn-i şövkət ilə
Qıl ʻərż-i ḥāl-i məqām şikāyətündi sənün

3. Məni bu növʻ ilə vallāhi də nöçün qoydun
Kəlām-ı Ḥəqqdə والشّمس āyətündi sənün

4. Əgərçi ẓāhiri والشّمس والضّحى oẖunur
Vəlīk bāṭini bi`llāh kināyətündi sənün

5. Təlaṭṭuf eylə köñül şəhrin etgilən məʻmūr
Ḫarābə qoymə kərəm qıl vilāyətündi sənün

6. Ayağə düşmək ilə qarə köñlim ey Żū`ī
Baña əzəldə bu işlər sirāyətündi sənün

175[3]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Yaẖşı təṣəvvür eyləmə varın zəmānənün
Ey dil çü gördüm āẖırı kārın zəmānənün

2. Beş gün içində bər-həm olur gülşəni güli
Çoẖ görmişəm bəhār u ẖəzānın zəmānənün

3. Bir ʻibrət al Sikəndər ü Cəmşīddən köñül
Vəqtün ẖˇoş eylə anlə mədārın zəmānənün

---

[1] Araf suresi, 172. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=7&ayet=172
[2] 50b; 116b
[3] 51a; 123b

4. Çoẖ gəzmə bəẖtün ağ u qara olmaqındə sən
Bī-cā ötürmə leyl ü nəhārın zəmānənün

5. Yoẖ Żū`iyā vəfā vü səẖānun nişānəsi
Aẖtarmışam ṣiğār u kibārın zəmānənün

176[1]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Bir ẕərrə qədri anlamadım rūzgārdan
Nə dəhrdən nə bu fələk-i kəc-mədārdan

2. Nāyāb olubdı dəhrdə ərbāb-ı mə'rifət
Düşmüş o qədər fəżl ü hünər e'tibārdan

3. Olmuş cəhālət ol qədər āfāqə mündəric
Qılmaz təməyyüz bāng-ı ġurābı həzārdan

4. Gər var isə gözi vəlī ə'mādı bāṭini
Bir fərq verməyür gül-i ḥəmrāyə ẖārdan

5. Ey kāş doğmayaydı bizi mādər-i cəhān
Yā fərq verməyən qılə leyli nəhārdan

6. Çün yoẖdı fəżl ü mə'rifət ü şe'rə müştərī
Bī-qədr ü nā-rəvāc olub zəhr-i mārdan

7. Bu söz su`āl olunsə cəvābun nədür sölə
Təqṣīr kār-gərdən olur yā ki kārdan

8. Gör kimdədür qüṣūr əgər yoẖdı meyvəsi
Ummaq olur mı bu sözi bīd ü çinārdan

9. Pəs hər vücūdə mūcid-i əṣli verüb ṣifət
Əşyādə yoẖdı ẕərrə qədər iẖtiyārdan

10. Bā'is̱ budur ki hīç nə 'ömrimdə bilmədim
Çoẖdur deyən ki mən bilürəm hər kənārdan

11. Cəbr ilə iẖtiyārdə yoẖ bir qədər dəlīl
Hər nə kəlām var 'uləmā-yı kibārdan

177[2]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Şīrvān köçübdi lüṭf ilə dārü`s-səlāmdan
Yüz ḥūrī istəsön tapulur hər məqāmdan

2. Hər küçəsində ḥūrī pərī ṣəf ṣəf əyləşüb
İẓhār-ı yüz qiyāmət olur hər məqāmdan

3. Getməzdi Ḫiżr çeşme-i āb-ı ḥəyātə hīç
Müẖbir olaydı gər bu ləb-i lə'l-fāmdan

4. Oldı dūçār dün baña bir āftāb-rū
Yüz mərtəbə vəcīḥdi māh-ı təmāmdan

---

[1] 51a; 130a
[2] 51b; 131a

5. Gər görsə idi ʻāriż-i ləʻlin çəkərdi əl
Āyīnədən Sikəndər ü Cəmşīd cāmdan

6. Żū`ī çü şəhr məhlərinün vəṣfin eylədün
Ḫ̌oşdur baña həmīşə desön bu kəlāmdan

178[1]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Ġəm dəfʻi ḥāṣil olmadı cām u şərābdan
Rövşən olur mı ḫānə gecə āftābdan

2. Bī-nūr-ı rūy-ı yār münəvvər olur mı bəzm
Yüz şəmʻ pərtəvindən ü min māh-tābdan

3. Dīvānə olmaduqsə də bir məst olaq bārī
Tā kim muʻāf olaq bu günāh u s̱avābdan

4. Versün cəvāb şərʻdə birdür riyā vü şirk
Sor bu su`ālı zāhid-i ʻālī-cənābdan

5. Saġġal uzun qurşāqını enni eyləmək
Hansındə ḥökm ṣādir olub dört kitābdan

6. Get sat ʻəvāmə qəlb-i ʻəməl ʻārif istəməz
Vəhm eylə leyl-i ʻasʻas-ı yəvmü`l ḥesābdan

7. Żū`ī mənəm ki (?) āyət-i لا تقنطو[2] de bəs
Təʻrīf-i ḫülq-i zāhid içün şeyḫ [ü] şābdan

179[3]
Fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Köñlüm aldı bilməyürəm hansı rəftārun sənün
Çeşm-i məḫmūrun sənün yā zülf-i ṭərrārun sənün

2. ʻĪsā-yı Məryəm desəm küfr olmaz ey tərsā-pərī
Cān verür ʻuşşāqə çün ləʻl-i şəkərbārun sənün

3. Hansı şīrün bənd edüb dil-mürġini ey ḥūr-liqā
Yā dəf [ü] ṭənbūr yā kim nəğmə-i tārun sənün

4. Bāğ-ı ḥüsnündən ʻināyət eylə bir gəl ʻāşiqə
Olməmiş fəṣl-i ḫəzān gül-gəşt-i gülzārun sənün

5. Żū`īni qurbān qəbūl et çün əzəldən olmuşam[4]
Kəʻbə-i ruḫsārıvə ṣıdq ilə züvvārun sənün

180[5]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Kim istər isə ḫilqət-i bu ʻāləmi bilsün
ʻĀləmdəki əsrār-ı ḫəfī mübhəmi bilsün

---

[1] 51b (ilk beş beyit); 139a
[2] Zümer suresi, 53. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=39&ayet=53
[3] 125a
[4] olmuşam: olmaşam
[5] 130b

2. Mey-ḫānədə lāzımdı olə çillə-nişīn tā
Āyīnə-i İskəndəri cām-ı Cəmi bilsün

3. Ḫ˘oş-bəḫt odur kim içübən bādə-i vəḥdət
Nə möḥnət-i dünyānı nə dərd ü ġəmi bilsün

181[1]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Hər səḥər kim ey pərī-rū 'ərż-i ruḫsār eylədün
Kūçə vü bāzārı rəşk-i bāğ u gülzār eylədün

2. Ey Yəhūdā nəsl-i Yə'qūb ism-i Yūsif ḥüsn kim
Ḥüsnüvə min müştərī yüz məh ḫərīdār eylədün

3. Gāh e'cāz-ı Məsīḥānı ləb-i lə'lündə gāh
Mö'cüz-i Mūsānı ruḫsārundə iẓhār eylədün

182[2]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Ancaq o məhün zülfi nə īmān alur əldən
Āhū baḫışı qara gözi cān alur əldən

2. Gər cānımı lə'lün həvəsi alsə 'əcəb yoḫ
Kim nəqdləri bādə-i reyḥān alur əldən

3. Gər ẓāhir alur cānımı ġəmzün oḫı līkən
Ağzun həvəsi köñlümi pünhān alur əldən

4. Pərvānə kimi yanmaqımə eyləməyün 'eyb
Kim ṣəbrimi ol şəm'-i şəbistān alur əldən

183[3]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Köñül tā var ləb-i cānān şərāb-ı nābı neylərsən
Durarkən çeşme-i ḥeyvān sərāb u ābı neylərsən

2. Sücūd-ı ṭāq-ı əbrūsun qıl iḫlāṣ ilə hər dəmdə
Riyā-yı zāhid-i ḫ˘od-bīn kimi meḥrābı neylərsən

3. Mərīż-i eşqə kāfīdür köñül şəhd-i ləb-i cānān
Ṭəbīb-i nā-şinās u şərbət-i 'innābı neylərsən

4. Şu'ā'-ı mey gərəkdür bəzm içün ḫ˅urşīd nə lāzım
Saña ḫ˅urşīd-i rövşən var ikən meh-tābı neylərsən

184[4]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Ey dil-i bī-çārə bülbül kimi zār olmaqdəsən
Bir gül-i növ-ḫīz 'eşqi ilə zār olmaqdəsən

---

[1] 164a
[2] 107a
[3] 173b
[4] 176b

2. Yanmaqə pərvānə tək bir şəm'-i ruẖsār 'eşqinə
Yā ġəm-i bir lālə-ruẖlə dāğdār olmaqdəsən

3. Olmasun bir növ-gülün gīsūsı sevdāsıylə ẖār
Cəm' edün āẖır pərīşān bī-qərār olmaqdəsən

4. 'Eyş [ü] 'işrət bəzmivi bir Türk yağma eylədi
Ey dil ü cān ləḥẓə ləḥẓə tārmār olmaqdəsən

185[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Əgərçi yandı köñül çərẖi dūd-ı āhundan
Nə sūd rəşḥə-i əlṭāf yoẖdı māhundan

2. Təmām 'ömür ẖəṭ ü ẖāk u zülüfədür həvəsün
Köñül ḥəyā elə bu nāmə-i siyāhundan

3. Nə muṣḥaf-ı ruẖə nə küfr-i zülfə meyl etdün
Nədəndi döndü o zāhid belə İlāhundan

4. Bu qədri cürm ilə zāhid behiştə göz tikmə
Utangilən bārī ey bī-ḥəyā günāhundan

Ḥarfü`l-Hā`

186[2]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Ḫāl-i siyəhün ṭürrə-i ṭarrār yanındə
Əfsūngər-i Hindūdı yəqīn mār yanındə

2. Zülf-i siyəhündür mi sənün dövr-i ruẖundə
Ya zağ u zəġan gülşən ü gülzār yanındə

3. Çoẖ etmə həvəs rūyınə ey cān u dil āẖır
Sāziş eləməz ẖār ilə ẖas nār yanındə

4. Yanındə demə zülf sözin bu dil-i zārun
Zəncīr adını çəkmə giriftār yanındə

5. Ol māh-ruẖı görməməgim yaẖşıdı bi`llāh
Görcək görürəm hər gecə əğyār yanındə

6. Ol çeşm yanındə demə dil-ḥālını ey zülf
Bīmār sözin sölümə bīmār yanındə

7. Ẓū`ī yanuram şəm' şifət ol məhi görcək
Hər gecə gəzən nāz ilə əğyār yanındə

187[3]
mef'ūlü / mefā'īlü / mefā'īlü / fe'ūlün

1. Rūyun mıdur ol zülf-i şikən-dər-şikən içrə
Yā lālə-i ẖəd-rūydı müşk-i ẖotən içrə

---
[1] 176b
[2] 52a; 96a
[3] 52a; 96a

2. Çeşmün midi çīn ü şikən-i zülfə müqārın
Yā āhū-yı Çīndür belə dām-ı rəsən içrə

3. Zülfün təki yoẖ sünbülə firdövs-i bərīndə
Rūyun kimi yoẖ bir gül-i ḥəmrā çəmən içrə

4. Pərvānə olə köñlüm əgər sən təki bir şəm‘
Görməz gözəlim gər gəzə yüz əncümən içrə

5. Ġeyrət odı bir dəmdə vücūdım ‘ədəm etdi
Tā düşdi ləbün vəṣfi dəhəndən dəhən içrə

6. Lālə dögi dāğ üzərə bin dāğ ilə yanmış
‘Uşşāqa ruẖundur belə ẖūnīn-kəfən içrə

7. Żū`ī yanuram şəm‘ kimi hicrdə çünkim
Salmış yüzinün şövqi bir ātəş bədən içrə

188[1]
mefā‘īlün / mefā‘īlün / mefā‘īlün / mefā‘īlün

1. Yüzün ey məh-liqā ol gīsū-yı pīç ü tāb içrə
Sanasan āftāb-ı āləm-ārādur səḥāb içrə

2. Gözimdə ‘əks-i rūyun cilvə eylər çoẖ tə‘əccübdür
Necə sākin olubdur ātəş-i sūzəndə āb içrə

3. Görəndə şərḥə şərḥə köñlümi eylə təkəllüm kim
Bu ‘ādətdür nəmək pāşīdə eylərlər kabāb içrə

4. Ruẖ u zülfün ẖəyālını köñüldə tā görüb etdim
Yəqīn bu sirri kim gənc ilə mār olı ẖarāb içrə

5. Qılur Żū`ī ruẖundə ol məhün cünbüş qara zülfi
Bəlī ‘ādətdir eylər cünbüş ‘əqrəb māh-tāb içrə

189[2]
fe‘ilātün / fe‘ilātün / fe‘ilātün / fe‘ilün

1. Ḫ˘oşdı yüz ẖəncər-i bərrəndə dil ü cānə dəgə
İstəməm zülf-i pərīşānuvə kim şānə dəgə

2. Açılur şānə şifət zār-ı tənimdən min ağız
Ey pərī şānə gər ol zülf-i pərīşānə dəgə

3. Lālə pəjmürdə şənūbər ẖəm olur ey gül-rū
Qədəm-i lüṭfün əgər ṭərf-i gülüstānə dəgə

4. Atmayun səng-i cünūn muncə mən-i əfkārə
Qorẖum oldur keçübən şīşə`-i pünhānə dəgə

5. Möḥnət-i dərd-i firāqundə sənün ṭə‘nə-oẖı
Görmə ey şūẖ rəvā Żū`ī-i nālānə dəgə

---

[1] 52b; 96b
[2] 52b; 96b

190[1]
mefʻūlü / mefāʻīlü / mefāʻīlü / feʻūlün

1. Ḫᵛurşīd-cəmālundı mı gīsūlər içində
Yā ātəş-i sūzəndədi Hindūlər içində

2. Hər ləḥẓə gözimdən həvəs-i tīr-i müjünlə
Ġərqəm mən-i dil-ḫūn gözəlim cūlər içində

3. Nāṣiḥ baña ʻeyb eyləmə dīvānə görüb kim
Olmum necə məcnūn bu pərī-rūlər içində

4. İnṣāfə gəlüb qoymə gəl ey məh səni Tarı
Hicründə bu möḥnət-keşi qayqulər içində

5. Ṭəʻn eyləmə ḥeyrānlıqınə Żū`ī-i zārun
Ṭūṭī bəlī ḥeyrān olı güzgülər içində

191[2]
mefāʻilün / feʻilātün / mefāʻilün / feʻilün

1. Binā-yı dostluqım dutmamış nigārım ilə
Pozub harāb elədim çeşm-i əşkbārım ilə

2. Nə vəṣlə təşnəsən ey dil usan dögül mümkün
Onun vüṣālı bu bəḫt-i siyāh-kārım ilə

3. ʻƏcəbdi çərh yanub həm kəvākib odlanmaz
Yüzün ġəmində mənim āh-ı pür-şərārım ilə

4. Ġəm-i firāq ilən imdi belə olmazdım
Qoyaydı gər məni köñlüm öz ihtiyārım ilə

5. Dedim ki Żū`iyə lütf et dedi zihī hiclət
Hənūz zindədür ol hicr-i cān-şikārım ilə

192[3]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Dutub köñlüm quşı zülfündə ey bī-mehr kāşānə
Dağıtmə urmə şānə lüṭf qıl bir ol pərīşānə

2. Dəhānı sirrini ṣandūq-ı dildə məḫfī qılmışdım
Gözim fāş etdi āgəh olcaqın bu rāz-ı pünhānə

3. Görüb əndūh-ı hicrānı olur kim lüṭf edə ol məh
Görim düşsün onı yā Rəb mənim tək dərd-i hicrānə

4. Rəh-i ʻeşqündə nə cürm eyləmişdim kim məni saldun
Ḥəbībim muncə dərd ü möḥnət-i rənc-i firāvānə

5. Gəhī əndūh-ı rəşk-i ġeyr ü gəh cövr ü cəfā-yı yār
Kim olmaz sölə Żū`ī muncə əndūh ilə dīvānə

193[4]

---

[1] 53a; 96b
[2] 53a; 99b
[3] 53b; 100b
[4] 53b; 100b

mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Qorẖuzmə zāhidā məni بس المهاد[1] ilə
Āsūdəəm mən āyə-i قل يا عباد[2] ilə

2. Mey nəş`əsini görməmiş 'eşqün məzāqını
Zāhid sölər ki mə'rifətim var bu ād ilə

3. Olsun ḥarām bādə-i firdövs zāhidə
Mey içməgi ḥarām deyə gər cavād ilə

4. Pərhīz bādədən eləmə kim bu cövhərün
Āmīzişi olubdı Cəm ü Keyqubād ilə

5. 'Āriflərə ḥəqīqəti dūzəẖ 'əẕābıdur
Getmək behiştə zāhid-i bəd-e'tiqād ilə

6. Żū`īdə meyl zāhidə gördüm məgər olub
Həm-dəm Ḫudā-nəkərdə o bəd-e'tiqād ilə

194[3]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Sölə ey bād-ı ṣəbā ol büt-i məh-sīmāyə
Ki salubdur məni məstānə gözün ġavġāyə

2. Nəsl-i ādəmdə sənün tək məh-i ẖᵛurşīd-liqā
Gər mələk gəlsə inanmam gələcək dünyāyə

3. Ləb ü ruẖsārıvı gördükdə yəqīn eyləmişəm
Kim olub məskən-i ẖᵛurşīd məqām 'Īsāyə

4. İstəsön eyləyəsən ẖānə-i 'uşşāqı ẖarāb
Al ələ şānə çək ol zülf-i 'əbīrāsāyə

5. Nə rəvādur ki qoyə sən kimi bir lālə-'izār
Bu qədər dāğ-ı ələm Żū`ī-i ġəm-fərsāyə

195[4]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Bəlā-yı hicrdə ancaq ləb-i cānān düşər yādə
Nöçün kim rəsmidür bu qorẖuluqdə cān düşər yādə

2. Olur dīvānə tək zəncīrə lā`iq mübtəlā köñlüm
Haçan kim ḥəlqə-i ol zülf-i müşk-əfşān düşər yādə

3. Olan dəmdə pərīşān gecələr sevdā-yı zülfünlə
Çəkən Leylā ġəmin Məcnūn-ı sər-gərdān düşər yādə

4. Dilində vā'iẓ-i övṣāf-ı bəlā rūz-ı məḥşərdən
Yanar nār-ı ġəmə köñlüm şəb-i hicrān düşər yādə

5. Demə Żū`ī ki əfğān eylərəm görcək firāqından
Görəndə ol məhi cān düşməyür əfğān düşər yādə

---

[1] Ali İmran suresi, 197. ayet. Erişim: 6 Nisan 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=3&ayet=197
[2] Zumer suresi, 53. ayet. Erişim: 6 Nisan, 2019, http://kuranmeali.com/AyetKarsilastirma.php?sure=39&ayet=53
[3] 54a; 100b
[4] 54a; 107a

196[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Həmīşə istər idim cān verim qabaqundə
Vəlī nə sūd ki verdim ġəm-i firāqundə

2. Cəhāndə kimsə belə ḥəsrət olmasun yā Rəb
Bu ḥəsrət ilə ki mən oldum iştiyāqundə

3. Əlündən alcaqın ey sāqī başdə şūr artdı
Nə var idi sənə qurbān sənün ayağundə

4. Düşəndə yādımə cism içrə titrəşür cānım
O günləri ki keçərdi ẖˇoş ittifāqundə

5. Bu günə zəhr-i firāqı ki içmisən Żū`ī
Ḥəmīm-i dūzəẖ olur şəhd tək məzāqundə

197[2]
fā'ilātün / fā'ilātün / fā'ilātün / fā'ilün

1. Yoẖdı cānı hər kimün köñlündə cānān olmasə
Çün cəmādə bənzəyir hər yerdə kim cān olmasə

2. Dutdı zülfün bāğ-ı ḥüsnün görmədim ruẖsārıvı
Ḫülddən Ādəm kənār olmazdı şeyṭān olmasə

3. Ḫˇoşdı 'uşşāqə tamāşā-yı gül-i rūyun əgər
Yüz min ay u il keçüb fəṣl-i gülüstān olmasə

4. Mürdə cismin 'āşiqün qılmazdun əḥyā hər nəfəs
Mö'cüz-i 'Īsā əgər lə'ündə pünhān olmasə

5. Lə'lün 'eşqi olmasaydı məndə etməzdün cəfā
Çün küdūrət məḥv olur gər aradə qan olmasə

6. Nālə qılmə hicrdən ey dil ki ne'mətdür bu həm
Kim bilürdi vəṣl ẕövqin dərd-i hicrān olmasə

7. 'Ārif ü 'āşiqdən özgə Żū`iyā bir kimsənə
Eyləməzlərdi 'ibādət ḥūr u ġılmān olmasə

198[3]
mefā'ilün / fe'ilātün / mefā'īlün / fe'ilün

1. Firāqə döndi mənim vəṣl-i yārım āẖırdə
Nə növ'lən keçəcək rūzgārım āẖırdə

2. Pozuldı rövnəq-i ürdībehişt hicrünlə
Ḫəzānə döndi 'əcəb növ-bəhārım āẖırdə

3. Gecə günüz çəkürəm intiẓārun ey məh-rū
Nə gün təmām olacaq intiẓārım āẖırdə

4. Qurudı nəẖl-i ṣəfā ṣarṣar-ı ḥəvādiṡ ilə

---

[1] 54a; 108b
[2] 54b; 111a
[3] 164a

Töküldi gör nə şifət bərg ü bārım āẖırdə

5. Ümīd ẖˇoşdı firāq içrə vəṣldən Żū`ī
Ki şād olur dil-i ümmīdvārım āẖırdə

199[1]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Nigārā bir zəmān āẖır bizim sarı güẕār eylə
Ḫəzān-ı hicrimi vəṣl-i ruẖunlə növ-bəhār eylə

2. Bu ẖəṭṭ ü zülf ü qəddinlə gülüstānə qədəm bas bir
Bənəfşə sünbüli pəjmürdə sərvi sər-mişār eylə

3. Qızarmış lə'l tək lālə qılur mənlik fəẖārətlə
Ruẖ-ı rəẖşānıvı göstər onı həm dāğdār eylə

4. Görünməz söyləyürlər çeşmə hərgiz çeşme-i ḥeyvān
Təkəllümlə bu pünhān sirri bir aç āşkār eylə

5. Əgər ol büt əlində Żū`iyā mey cāmını görsön
Dil ü dünyā vü dīn ü cān ayağınə niẕār eylə

200[2]
mefā'īlün / mefā'īlün / mefā'īlün / mefā'īlün

1. Köñül verdim vəfālı sanubən bir yārə bī-hūdə
Cəfā eylən o bəd-ẖū bī-vəfā ẖūn-ẖᵛārə bī-hūdə

2. Olub ol şəm' ġeyrə mən onun rūy-ı firāqındə
Dəm-ā-dəm yandım āhım ātəşindən nārə bī-hūdə

3. Ruẖ u zülfün ẖəyālilə köñül hər rūz u şəb ġəmdən
Olubdur zār u sər-gərdān gəzər āvāra bī-hūdə

4. Ġəm-i ruẖsārı bəsdir gūşə-i möḥnətdə mən zārə
Aparmun dostlar bi`llāh məni gülzāra bī-hūdə

5. Ṭəbībā Żū`īnün dərdi saqalmaz dərd-i hicrāndır
Cəfā çəkmə 'əlāc etmə belə bīmāra bī-hūdə

201[3]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Kim verdi dil mənim təki bu dil-rübālarə
Kim düşdi 'eşqdən belə mən tək bəlālarə

2. Qaldım o ẖāl-i mehri ilə küfrdə əsīr
Düşdim o çīn-i zülfün ucundan ẖətālarə

3. Əğyāra verme dərd ü ġəmin ol pərīvəşün
Yā Rəb nəsīb-i dərdini qıl āşnālarə

4. Şāhı olə sənün təki ey māh bir kəsün
İnṣāfdur kim olə yüvünci gədālarə

[1] 91a
[2] 93b
[3] 94a

5. Lüṭf eylə Żū`iyə elə cövrün ziyādə kim
Dīvānə köñlüm ʻādət edübdir cəfālarə

202[1]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Gördüm o māhı oldı köñül mübtəlā genə
Düşdi bəlālarə bu dil-i pür-bəlā genə

2. Ṣayd etdi tāzədən dil-i əndūhuna kimi
Peykān-ı ġəmzədən o büt-i bī-vəfā genə

3. Saldun həzār möhnətə ey çərẖ-i dūn məni
Sölə görim nə eylədim āyā saña genə

4. Başın kəsüb ayağə sal ol zülf-i pür-ẖəmi
Çün baş olur o yüzi qaradan ẖəṭā genə

5. Bī-ʻārlıq görün nə qədərdür bu Żū`īdə
Ol bī-vəfāyə cānını eylər fədā genə

203[2]
fāʻilātün / fāʻilātün / fāʻilātün / fāʻilün

1. Cəmʻ edüb zülfün[3] bəlā ẖeylin gəlüb cān üstünə
Gör nə cəmʻiyyət qılublar bir pərīşān üstünə

2. Sünbül-i zülfi tökülmüş rūyınə ol güllər (?) ẖūn
Eylə kim əbr-i bəhārı mehr-i rəẖşān üstünə

3. Sölədim ey sərv dut çeşm-i üzə mənzil dedi
Məskən etmək mümkün olmaz bəḥr-i ʻümmān üstünə

4. ʻĀriż-i gül-gūnun üzrə ol iki ẖāl-i siyāh
Gūyiyā ol nöqṭədür kim yazılur qāl üstünə

5. Rəḥm et ey məh Żū`iyə möḥnət-i hicrün bugün
Qəṣd edübdir imdi cān-ı zār u nālān üstünə

204[4]
feʻilātün / feʻilātün / feʻilātün / feʻilün

1. Dil-i sūr eyləmək ülfət ləb-i ẖəndānı ilə
Görək āẖır nə edir çərẖ çalışur cānı ilə

2. Dögi müjgān-ṣafı çeşmimdəki peykānlarıdur
Ki çıqub dişrə gözimdən cigərim qanı ilə

3. Necə əğyārı görim mən ki ölürdüm ġəmdən
Gər görirdim ki düşüb sāyə gəzir yanı ilə

4. İstəməm ləẕẕət-i vəṣlin o sitəm-kārə gülün
Ḫū dutub bəs ki köñül möḥnət-i hicrānı ilə

5. Küfr-i zülfilədi īmānun ilən zāhid kim

---
[1] 94a
[2] 94a
[3] zülfün: hicrün (d.)
[4] 94b

Hansı zāhiddi qalan şəhrdə īmānı ilə

6. Sanmə bī-hūşluqım bī-hūdə gördükdə yüzin
Alur ārāmımı bir ġəmzə-i pünhānı ilə

7. Żū`iyā yoẖ elə dil-dūn-ı ġəm hicrānındə
İstəsön vüṣlət əgər ġönçə-i ẖəndānı ilə

205[1]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Gəlib məsīḥ-i köñül zāra āh u zārun ilə
Olub ġərīq cəhān çeşm-i əşkbārun ilə

2. Dilərdi cān ki bulə feyż-i məqdəmün gəl gör
Ki az qalubdı o həm çıqsun intiẓārun ilə

3. H̱əzānun āfəti yetmək gülə odur bā'iṣ
Ki ḥəddini tanımub etdi bəḥṣ 'izārun ilə

4. Nigārım oldı günüm qara hicrdə bi`llāh
H̱əyāl-i ḥəlqə-i gīsū-yı tābdārun ilə

5. Budur cəhāndə təmənnāsı Żū`ī-i zārun
Olə şəhīd sənün tīğ-i ābdārun ilə

206[2]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. H̱˘oş ol ki var idi başımdə nəş`ə-i bādə
Gözimdə 'āriż-i gül-gūn-ı dil-bər-i sādə

2. Bir əldə sāğər-i mīnā bir əldə ṭürrə-i yār
Təmām tār u dəf çəng cümlə āmādə

3. Nə ẖovf-ı ātəş-i dūzəẖ nə meyl-i rövże-i ẖüld
Nə ḥūr u cənnət-i ġılmān düşərdi mi yādə

4. Həzār ḥeyf ki getdi o günlərim əldən
N`edim bu çərẖün əlindən kimə gedim dādə

5. Əgər behiştdə min ḥūr versə Tarı baña
Dögül 'əvəż birinə ol günün bu dünyādə

6. Hanı behiştdə ol şūẖ tək rəfīq-i şəfīq
Ki mūmiyā-yı fərəḥdür qulūb-ı nā-şādə

7. Nə fā`idə elə gündən ki fövt olub Żū`ī
Baña gəlür elə kim gördügümdi rö`yādə

207[3]
mef'ūlü / fā'ilātü / mefā'īlü / fā'ilün

1. Ey dil nəẓārə eylə cəhān kār u bārınə
Aldanmə gülşən ü gülünə növ-bəhārınə

---

[1] 95a
[2] 115a
[3] 121b

2. Gör ʻāqibət nə eylədi bu zārə kūj-püşt
Beş gün içində Rüstəm ü İsfəndiyārınə

3. Hīç kimsə mülk-i dövlətə məğrūr olmasun
Cəmşīdü ki peşīn nə apardı məzārınə

4. Əczā-yı ḫāk cümlə şəhənşəh vücūdıdur
Ol baş qarışmış imdi bu başmaq ġubārınə

5. Toprağə döndürüb neçə yüz min pərīveşi
Ḫākından imdi gül bitüb oḫşar ʻizārınə

6. Dərd-i şərāb-ı ḫumda Fəlāṭūn ġubārıdur
Dövrān nə ḥāk gör gətürüb rūzgārınə

7. Məğrūr olmə ey dil-i dīvānə ʻibrət al
Bāḫ diqqət ilə bu fələkün bir mədārınə

8. Hər ẕərrə ḫāk bir ṣənəmün al yuvaqıdur
Fərş-i rəh olmuş imdikinün rəh-kənārınə

9. Bir vəqt olur ki imdikinün qədd ü qāmətin
Kərpic kəsüb qoyarlar o vəqtə ḥaṣārınə

10. Yoḫdur bu ḥālə vāqif olan Żū`ī hīç kəs
Gəlməz bu növʻ gövhər-i əsrār kārınə

208[1]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Meysiz bəhār u seyr ü ṣəfādan nə fā`idə
Bī-yār cām-ı rūḥ-fəzādan nə fā`idə

2. Mey bəzmi yār vəṣli gülüstāndə ḫˇoşdu līk
Bī-həm-dəm ilə bəzm-i ṣəfādan nə fā`idə

3. Bir gün mənim murādım ilə dövr qılmadı
Dövr-i sipihr ü çərḫ-i dəğādan nə fā`idə

4. Cəmşīd yā Sikəndər əgər olson ey köñül
Āḫır fənādı çünki fənādan nə fā`idə

5. Çoḫ olmə şīftə gül-i gülzār-ı ʻāləmə
Hər bir nigār-ı bī-sər ü pādan nə fā`idə

6. Bəd-bəḫt ü nīk-baḫtlıqun bāʻis̱in bilən
Çün yoḫdı lāf-ı ẕehn ü ẕəkādan nə fā`idə

7. Bər-bād oldı āḫırı bād üzrə ḥökm edən
Bilqeys-i təḫt-i mülk-i səbādan nə fā`idə

8. Āḫır çürir[2] ḫakdə pāy-māl-i ḫəlq olur
Bu ṭəmṭərāq rüfʻət-i cādan nə fā`idə

9. Bī-hūdə çoḫ da qılma namāz eyləmə duʻā
Żū`ī bu nā-qəbūl duʻādan nə fā`idə

---
[1] 122b
[2] çürür: çözür

209[1]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Salmasun nərgis-i məẖmūruva zülfün sāyə
Qoymə şāh-bāzə olə zāğ [u] zəġanın həm-sāyə

2. Bāvər etməm sənə həmtā olə dünyādə bu gün
Enə gökdən yerə bir vəchdə yüz min āyə

3. Çək cəzādur sənə dīvānə köñül mən demədim
Zülfünə bağlama dil düşmə belə sevdāyə

4. Nəş`ə-i lə'l-i ləbün ẕövqüni zāhid bilsə
Kāfirəm meyl eləyə Kövsər ilə ḥavrāyə

5. Özün inṣāf elə ey şūẖ sitəmdür bəddür
Eləməzlər bu qədər ẓülm-i sitəm tərsāyə

6. Kāş 'āşiq saña olmaydım əzəldən ey māh
Salmayaydım başımı munca ġəm-i ġovqāyə

7. Özgədür şīvəsi Żū`ī bu pərī ruẖsārun
Verməyüb Ḥəq bunı hər māh-ı mələk sīmāyə

210[2]
fe'ilātün / fe'ilātün / fe'ilātün / fe'ilün

1. Görmüşəm dün gecə ẖᵛurşīd-i dirəẖşān yuẖudə
Yetüşür[3] vüṣlətə kim görsə bu 'ünvān yuẖudə

2. Vəṣldə yetmiş idim ẕövq-i ṣəfā eylər idim
O ṣifət kim olə bir kimsənə sulṭān yuẖudə

3. Ləb-i şīrīn şəkərbārıvə verdim köñlüm
Ṣanki oldım o gecə ẖosrov-ı dövrān yuẖudə

4. E'tibārı yuẖunun yoẖdı əgər 'āləmdə
Ṣidqlə çünki gətürdim saña īmān yuẖudə

5. Ṣübḥ qıldı yüzüvə Żū`ī irādətlə nəẓər
Çünki mən görmiş idim bāğ-ı gülüstān yuẖudə

211[4]
mefā'ilün / fe'ilātün / mefā'ilün / fe'ilün

1. Ümīd var bu bəzmə o yār bir də gələ
Füsürdə gülşənə ol növ-bəhār bir də gələ

2. O lālə-ruẖ gözəlim lüṭf ilə şükuftələnüb
Məni bu növ' görüb dāğdār bir də gələ

3. Ümīd kəsmə köñül tīr-i ġəmzəsindən kim
Su arẖə bir gəlüb ümmīd var bir də gələ

4. Bu 'ərṣə qalmıyə ẖālī ḥərīfdən yā Rəbb

---
[1] 125a
[2] 126a
[3] yetüşür: yetür şəh
[4] 132b

Gəlüb gedübsə də ol şəh-süvār bir də gələ

5. Cəhānı belə görüb əhl-i məʻrifət getdi
Bu ʻəṣrdə sölə Żū`ī nə var bir də gələ

212[1]
mefāʻīlün / mefāʻīlün / mefāʻīlün / mefāʻīlün

1. Gətür sāqī qədəḥ kim yandı cān bu zəhr-i bī-cāyə
Fədā cān u tənimdür doğrı rind-i bādə-peymāyə

2. Riyādan ẖəlq içün qurmış neçə yüz dām-ı təzvīrin
Aparur cənnətə ṣāḥib olub firdövs-i əʻlāyə

3. Nə bir zāhiddür ancaq rāh-ı rəsm-i şərʻdən ẖāric
Təmāmən ġərqdür bu ġəflət ü cəhl ilə dəryāyə

4. Cəhāndan olub tərk insāniyət üslūb-ı qānūnī
Dönübdür Leyliyə zər ẖəlq də Məcnūn-ı şeydāyə

5. Zərə H̱āliq deyürlər saẖlayurlar çoẖ ʻəzīz anı
Verüblər dīn evin bu küfr ilə tārāc-ı nəʻmāyə

6. Ḥəqīqət ʻāləmində yoẖ təfāvüt ẕərrə miqdārı
Nə fərqi yā Menātə qulluq et yā Lāt u ʻUzzāyə

7. Nə dīndür hansı məẕhəbindü yā Rəbb kim səẖā əhlin
Səfāhət əhli derlər ṣāḥib-i eḥsān-ı əʻṭāyə

213[2]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Düşdi güẕārımız genə bir dil-rübā ilə
Yā Rəb günim necə keçəcək bu həvā ilə

2. Bənd oldı çīn-i zülfünə dil mürği nā-gəhān
Düşdim bu dām-ı ʻeşqə genə mən ẖəṭā ilə

3. Nāṣiḥ məẕəmmət etmə məni dərd-i ʻeşqdə
Nə çārə rūzgārdə ḥökm-i qəżā ilə

4. Nə məndən et şikāyəti nə yārdan köñül
Hər nə ʻədāvətün olə eylə H̱udā ilə

5. Nə var firāqə tāb nə dildārə dəst-rəs
Çərẖün nədür ẖüṣūməti mən-bī-nəvā ilə

6. Çək imdi ey köñül ġəm-i hicrān bəlāsını
Sən nīşə ülfət eylədün hər bī-vəfā ilə

7. Zülfi tək oldı mı necə sin qara günlərün
Mehr etmə demədim saña hər məh-liqā ilə

8. Sor ḥālımı tərəḥḥüm ilə kim əsīriñəm
Nə ʻeybi gər təkəllüm edə şəh gədā ilə

9. Nūş-ı ləbündi dərd-i dil-i Żū`iyə dəvā

[1] 137a; 137b
[2] 166a

Loqman ʻəlāc bilməz onə yüz dəvā ilə

214[1]
mefʻūlü / fāʻilātü / mefāʻīlü / fāʻilün

1. Ver sāqī bādə tā içək ol māh-rū ilə
Bəlkə günāh ḫəṭṭi[2] pozulsun bu su ilə

2. Bi`llāh behiştdür baña hər yerdə gər olam
Ol müşk-i mū-nigār u mey-i müşk-bū ilə

3. Az cəhd qıl vüṣālə köñül ṣəbr qıl dayan
Kim tapdı ārzūsunı bu cüst [ü] cū ilə

4. Ey cān çoḫ etmə ləʻl-i ləbi ārzūsunı
İskəndər öldi dəhrdə bu ārzū ilə

5. Yüz āh-ı sūznāk ilə vəṣlə yetüşmədim
Zāhid necə tapar sölə bu hāy u hū ilə

6. Qoy ʻeşqinün həlākı olum ey göz ağlama
Yoḫ ḥācəti şəhīd olanun şüst [ü] şū ilə

7. Zāhid dilər ki ḥūr ilə olsun behiştdə
Mən gülşən içrə bir neçə həm-dəm səbū ilə

8. Yā Rəb gələn bəhār ṣəfā-yı vüṣāl ver
Çün yetmişük kərəvət-i hicr ilə bu ilə

